Xalqın qəzeti!

# Xalq qəzeti

№ 69 (30763) 10 aprel 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan qlobal problemlərin həllinə önəmli dəstək göstərir

### *ADA Universitetində Prezident İlham Əliyevin iştirakı ilə "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forum keçirilib*



**Aprelin 9-da ADA Universitetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə «Yeni dünya nizamına doğru» mövzusunda beynəlxalq forum keçirilib. Dövlətimizin başçısı forum iştirakçılarının suallarını cavablandırıb.**

Forumu açan ADA Universitetinin rektoru **Hafiz Paşayev** dedi: Zati-aliləri cənab Prezident, dəyərli konfrans iştirakçıları. Sizi və bütün iştirakçıları ADA Universitetində qəbul etməkdən məmnunluq duyur və şərəf hissi keçirirəm. Beynəlxalq siyasətin müzakirəsinə həsr olunan bu tədbiri yeddinci dəfə keçirməkdən böyük fəxarət hissi duyuruq və bu konfransların hər birinə verdiyi dəstəyə, onlarda iştirak etdiyinə görə Prezident Əliyevə dərindən minnətdarıq. Ötən illərdə altmış ölkədən iki yüzdən artıq ekspert və alim Bakıda və azad edilmiş Qarabağın dörd şəhərində keçirilmiş bu müzakirələrdə iştirak etmiş, sonradan regional və qlobal məsələlərlə bağlı bir çox məqalələr dərc etmişdir. Bu il ADA Universitetinin beynəlxalq konfransına rekord sayda - 80 əcnəbi iştirakçı qatılıb. İştirakçıların 50 faizindən çoxu konfransımızda ilk dəfədir ki, iştirak edir. Konfransın mövzusu qlobal gündəmin cari vəziyyətinə çox uyğundur. Dünya tektonik dəyişikliklərə, regional və qlobal münaqişələrə, siyasi səhnələrin radikallaşdırılmasına, millətçiliyin baş qaldırmasına və çoxtərəfliyə edilən hücumlara, beynəlxalq hüququn zəifləməsinə, güc, qüvvə və zorakılığın dominantlığına məruz qalır. Bunlar bugünkü dünyanın ortaq xüsusiyyətləridir və biz bu mövzulara iqlim məsələlərini, miqrasiya problemlərini, proteksionizmi və ticarət müharibələrini əlavə edəcəyik. Bizi hansı gələcək gözləyir? Yeni dünya düzəni necə olacaq? Azərbaycan kimi ölkələrin cərəyan edən belə hadisələrdə və meyillərdə rolu nədir?

**(ardı 2-ci səhifədə)**

## "Sərhəddə oldular, ya restoranlarda vaxt keçirtdilər..."

*Erməni politoloq Aİ missiyasını alt-üst etdi*

**Bugünlərdə beş mininci patrul reydi kimi mənasız işi həyata keçirdiyini təntənəli şəkildə qeyd edən Avropa İttifaqının Ermənistandakı EUMA abreviaturalı monitorinq missiyasına qarşı erməni siyasi dairələrində etirazlar səslənməkdədir. Əslində, etirazlar həmişə olub. Ancaq hesab edirik ki, Stenford Universitetinin politologiya doktoru Artur Xaçikyan, belə demək mümkünsə, baltanı lap kökündən vurub. Xaçikyanın konkret nələrdən söz açdığını diqqətə çatdıracağıq. Hələlik isə...**



Məlumdur ki, Aİ-nin Azərbaycan–Ermənistan şərti sərhədinin Hayastan tərəfində keşik çəkən mülki müşahidə missiyası 2023-cü ilin yanvarından "iş başındadır". Təsisatın əvvəlcə iki ay müddətinə fəaliyyət göstərəcəyi bildirilsə də, sonradan vaxt uzadıldı. Uzatmalar 2025-ci ilin fevral ayında da oldu.

O da məlumdur ki, Azərbaycan Aİ missiyasının öz ərazisində fəaliyyətinə razılıq verməyib. Bu prinsipial yanaşma dövlətimizin Cənubi Qafqazda "kənar oyunçu"ların mövcudluğunun yolverilməzliyi xəttindən qaynaqlanıb. Həmçinin, Azərbaycan mövcud müstəvidəki prinsipiallığını Ermənistanla sülh prosesinə də gətirib və bu barədə sonda söz açacaq, bəzi əlaqəli məqamlara aydınlıq gətirəcəyik.

**(ardı 9-cu səhifədə)**

## Azərbaycan – ABŞ: keçmişin dərsləri və nikbinlik üçün əsaslar

*Prezident İlham Əliyevin Bakı-Vaşinqton münasibətlərinə baxış prinsipiallığı*



**Prezident İlham Əliyev bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bildirmişdi ki, ABŞ hakimiyyəti Azərbaycana yanaşmasını ölkənin Ermənistanla əlaqələri prizmasında qurmamalı idi. Dövlətimizin başçısı mövqeyini Birləşmiş Ştatların əvvəlki administrasiyasının fəaliyyətindən söz açarkən dilə gətirmiş, ikitərəfli təmaslardakı neqativ ab-havanı doğuran şəraitə nəzər salmış, Ağ evin yeritdiyi kursun yolverilməzliyini vurğulamışdı.**

Prezident İlham Əliyev dünən ADA Universitetində keçirilmiş "Yeni dünya nizamına doğru" mövzusundakı beynəlxalq forumda çıxışı zamanı da eyni məsələlərə müəyyən fərqli rakusdan toxunub, ən başlıcası isə Bakı – Vaşinqton münasibətləri ilə bağlı gözləntilərini diqqətə çatdırıb.

Bəli, tam əminliklə deyə bilərik ki, Ermənistanın hazırkı iqtidarı Azərbaycanla sülh gündəliyini mürəkkəbləşdirərkən, ABŞ-ın sabiq rəhbərliyinə də arxalanmışdı. Xatırladaq ki, Bayden administrasiyası Birləşmiş Ştatların müxtəlif konqresmen və senatorlarını anti-Azərbaycan fəaliyyətinə kökləyir, siyasi şantaj yolu tutaraq ölkəmizi erməni avantürasının saxlayacaq sərfəli barış sazişi ilə razılaşdırmağa cəhd göstərirdi. Ona görə də Prezident İlham Əliyev bildirib: "Bayden administrasiyası mövqeyini birmənalı olaraq, Ermənistanla bağladı. Ermənistan – Azərbaycan münaqişəsi başladıqdan sonra biz bunu ilk dəfə gördük".

Həqiqətən, Baydenədək ABŞ prezidentlərindən heç biri ermənipərətliyi onun qədər dramatik məcraya qaldırmamışdı. Şantajdan söz düşmüşkən isə Ağ evin sabiq komandasının üzvləri təkcə konqresmen və senatorlara "meydan açmaq"la kifayətlənməyib, eyni zamanda, bilavasitə özləri də eyni "ampluada" olublar. Üstəlik, Ermənistana konkret dəstək olublar ki, bu baxımdan həm ötən il imzalanmış ABŞ – Avropa İttifaqı – Ermənistan sazişini, həm də bu il yanvarın 14-də açıqlanmış ABŞ – Ermənistan Strateji Tərəfdaşlıq Xartiyasını misal çəkmək mümkündür. Qeyd edək ki, sonuncu sənəd Prezident Donald Trampın rəsmən fəaliyyətə başlamasından cəmi 6 gün əvvəl imzalanmışdı.

Deməli, Bayden – Blinken administrasiyasında erməniپərəstlik o qədər yüksək səviyyədə olmuşdu ki, bu komanda mövcudiyyətinin son günlərində də İrəvanın maraq və mənafelərini təmin etməyi düşünüb. Yəqin razılaşarsınız ki, ortada ABŞ adına son dərəcə utancverici mənzərə yaranmışdı. Ermənistanda isə hesab edirdilər ki, Tramp Administrasiyası İrəvana sərfəli sayılan utanc durumu gələcəyə daşıyacaq.

**(ardı 8-ci səhifədə)**

## "Ayırıcı xətlər"i çəkənlərin sonrakı peşmançılığı

Səhifə ⇨ 9

## Azərbaycan Avropa İnvestisiya Bankının maliyyə tərəfdaşıdır

**Avropa İnvestisiya Bankının (EİB) Azərbaycana investisiyalarının ümumi həcmi, təxminən, 80 milyon avro təşkil edir. Bu barədə bankdan məlumat verilib. Bildirilib ki, 2024-cü ilin dekabr ayında "EIB Global" dövlət xidmətlərinin rəqəmsal infrastrukturunun inkişafı üçün 43 milyon avro məbləğində kredit sazişi imzalayıb. Vəsait "AzInTelecom" dövlət şirkətinə 2 müasir data mərkəzinin tikintisi üçün ayrılıb.**



Bu kredit "EIB Global"ın Azərbaycanın dövlət sektoruna ayırdığı ilk vəsaitdir. Layihə dövlət məlumatlarının və xidmətlərinin daha təhlükəsiz, sürətli və əlçatan olmasını təmin etmək məqsədi daşıyır. Planlaşdırılan data mərkəzləri bulud xidmətləri təqdim edəcək. Bundan əlavə, EIB ölkəmizdə dəmir yolu nəqliyyatının təhlükəsizliyinin və etibarlılığının artırılmasına dəstək üzrə 10 aylıq işi tamamlayıb.

**(ardı 11-ci səhifədə)**

## ABŞ Şərqi Avropadan geri çəkilirmi?

**Vaşinqton-Moskva münasibətlərinin yumşalması fonunda Avropa dövlətlərində milli təhlükəsizliklə bağlı gərginlik artır. Xüsusilə qitənin şərqindəki ölkələr və onların xalqları Rusiyanın Ukraynadan sonra bu istiqamətdə mümkün geniş miqyaslı hücumundan əndişələnirlər.**



Narahat olmaq üçün isə kifayət qədər əsaslar var. Pentaqon artıq Avropanın təhlükəsizlik çətiri rolunda çıxış etmək niyyətində deyil. Qitə əhalisinin müdafiə xərcləri komfortlu dönəminə son qoyula bilər. Avropa istər-istəməz öz hayına qalmalıdır.

**(ardı 13-cü səhifədə)**

# Azərbaycan qlobal problemlərin həllinə önəmli dəstək göstərir

(əvvəli 1-ci səhifədə)



Cənab Prezident, dünən tikinti və yenidənqurma işlərinin bizə böyük təsir bağışladığı Qarabağa və Xankəndiyə səfərimizdən sonra bu gün bu qlobal və regional məsələlərlə bağlı dünyanın ən təcrübəli liderlərindən biri olaraq Sizin fikirlərinizi eşitmək bizim üçün şərəf olardı. İnanırıq ki, Sizin iştirakçılarla apardığınız qarşılıqlı müzakirələr və sonra da davam edən panellər bu regionla bağlı və dünya miqyasında sülh üçün baxışın daha da yaxşı formalaşmasına və çatdırılmasına kömək edəcək. İnanıram ki, qonaqlarımız Azərbaycanın sürətli transformasiyası və inkişafı ilə bağlı Bakını daha çox biliklərlə və müsbət təəssüratlarla tərk edəcəklər. Cənab Prezident, bizə vaxt ayırdığınız üçün Sizə bir daha təşəkkür edirik və çıxışınızı səbirsizliklə gözləyirik. Buyurun, cənab Prezident, söz Sizindir.

**Prezident İlham Əliyev:** Sabahınız xeyir, xanımlar və cənablar. Əvvəlcə hamınızı Azərbaycanda salamlamaq və ADA Universitetinə, onun rəhbərliyinə və rektoruna, professor Paşayevə belə bir prosesin başladılması təşəbbüsünü irəli sürdüyünə görə minnətdarlığımı bildirmək istəyirəm.

Artıq qeyd edildiyi kimi, müxtəlif ölkələrdən olan beynəlxalq ekspertlərin böyük bir qrupu qlobal gündəlikdə duran mühüm məsələləri müzakirə etmək üçün Azərbaycanı yeddinci dəfədir ki, ziyarət edir. Eyni zamanda, bütün bu səfərlər Azərbaycanı daha da yaxşı tanımağa, ölkənin nəbzini tutmağa xidmət edir.

Azərbaycanın tarixi ərazilərinin azad edilməsindən sonra beynəlxalq ekspertlərin həmin ərazilərə müntəzəm səfərləri onlara ölkəmizin tarixi haqqında daha dolğun məlumat verir. Onlara münaqişənin tarixi və İkinci Qarabağ müharibəsində şanlı Zəfərimizdən ayrılması mümkün olmayan Azərbaycanın bugünkü reallığı və beynəlxalq dəstək olmadan ölkənin ərazi bütövlüyünün öz gücü və siyasi-hərbi yolla bərpası ilə bağlı unikal presedent haqqında məlumat verir. Rektor Paşayev qeyd etdiyi kimi, siz dünən əfsuslar olsun ki, bir çox illər ərzində - otuz ildən artıq müddətdə erməni separatizminin mərkəzi olan Xankəndi şəhərini ziyarət etdiniz. Əslində, Ermənistanın dəstəklədiyi və maliyyələşdirdiyi separatçı hərəkat bu şəhərdə, Azərbaycanın əzəli torpağında başlamışdır. Xankəndi adının özü onun Azərbaycan mənşəyini və kökünü, Xanın kəndi olduğunu nümayiş etdirir.

Lakin Azərbaycanın Qarabağ bölgəsində sovet hökumətinin siyasi, tarixi, iqtisadi və mədəni nöqteyi-nəzərdən qeyri-qanuni və tamamilə əsassız olan Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması qərarından sonra təəssüf ki, təcavüzkar separatizmə aparan bu prosesə start verildi.

1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması, əslində, zaman bombası idi və bu bomba separatçılara, onların sponsorlarına və münaqişəni öz siyasi məqsədləri üçün istifadə edən müxtəlif tərəflərə lazım olan anda partladı.

Biz buna, əslində, suverenliyimiz uğrunda döyüşdə son nöqtə olan, 24 saatdan az davam edən hərbi əməliyyatla bir il yarım bundan əvvəl son qoyduq. Siz orada olmusunuz. Siz nələrin baş verdiklərinin şahidi olmusunuz. Hesab edirəm ki, bu gün Azərbaycanın reallığını rayonlara səfər ən yaxşı nümayiş etdirir. Xüsusilə dağıdılmış və ermənilərin işğal etdiyi rayonları nəzərdə tuturam. İndi mən müzakirələrin aparılmasına daha çox vaxtın ayrılması üçün giriş nitqimi yekunlaşdıracağam. Əminəm ki, dünənki və bugünkü müzakirələr və ekspertlər arasında qarşılıqlı əlaqələr bizə birgə yanaşmaları hazırlamağa və keçən dəfə, ötən il görüşdüyümüzdən bəri tamamilə fərqli olan sürətlə dəyişən dünya ilə bağlı fikirlərimizin mübadiləsinə kömək edəcək.

Bir daha bizimlə birlikdə olduğunuza görə çox sağ olun. Sizə Azərbaycanda yaxşı vaxt keçirməyi arzulayıram.

**Prezidentin köməkçisi Hikmət Hacıyev:** Təşəkkür edirik, cənab Prezident. İcazənizlə, müzakirələrimizə başlamaq istərdik və Sizə sual ünvanlamaq üçün kifayət qədər çox iştirakçı yazılıb. Birinci, İsveçdən olan Svante Kornell ilə başlamaq istərdik.

**Svante Kornell:** Çox sağ olun, cənab Prezident, Sizi yenidən görmək necə də xoşdur. Son zamanlarda Azərbaycanın həm Mərkəzi Asiyada, həm də Yaxın Şərqdə cərəyan edən proseslərdə əhəmiyyətli iqtisadi və siyasi münasibətlərə malik iştirakçı qismində güclü cəlb edildiyinin şahidi olmuşuq. Azərbaycanın, eyni zamanda, Avropa, Mərkəzi Asiya və Yaxın Şərqin bir hissəsi kimi özünü necə görməsi və dünyanın bu üç hissəsini bir araya gətirmək üçün oynaya biləcəyi rolu barədə bizə məlumat verə bilərsinizmi? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Bu məsələ qismən bizim yerləşdiyimiz coğrafiya və Azərbaycan xalqının tarixi, Azərbaycanın, eyni zamanda, Şərqi və Qərbi coğrafiyanın bir hissəsi olaraq əsrlər boyunca necə inkişaf etməsi ilə bağlıdır. Əlbəttə ki, coğrafiya hər bir ölkə üçün mühüm amildir. Lakin o, siyasətimizdə dominantlıq edən yeganə amil deyil. Beləliklə, biz siyasətimizi həmin coğrafiya əsasında qurmuşuq. Hesab edirəm ki, Xəzər dənizinin o tayındakı və Azərbaycanın cənubundakı qonşularımızla, xüsusilə Yaxın Şərq ölkələri ilə çox güclü münasibətlər qurmuşuq. Avropa ölkələri ilə uzunmüddətli əməkdaşlığa gəldikdə, bu ölkələrin bir çoxu ilə Azərbaycan strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalayıb və ya qəbul edib. Beləliklə, artıq qurulmuş bu platforma bizə Mərkəzi Asiya və Avropa regionu arasında coğrafi, siyasi, iqtisadi və nəqliyyat körpüsü olaraq önəmli rol oynamağa imkan verir. Biz indi istər Avropa İttifaqı və ya Amerika Birləşmiş Ştatları olsun, istərsə də digər beynəlxalq təşkilatlar olsun, Qərbdən Mərkəzi Asiyaya və əlbəttə ki, həmin regionla uzunmüddətli əməkdaşlığın qurulmasının planlaşdırılmasına böyük marağın olduğunu bilirik. Azərbaycanın nəzərə alınmamasının mümkünsüz olduğunu anlamaq üçün, sadəcə, xəritəyə nəzər salmaq kifayət edər. Baxmayaraq ki, Avropada Azərbaycanı nəinki bu prosesdən ayırmağı, eyni zamanda, Qafqazda, xüsusilə Cənubi Qafqazda ayırıcı xətlər yaratmaq istəyən bəzi qüvvələr var. Lakin bu səylər əlbəttə ki, uğurla nəticələnməyəcək. Çünki Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında nəinki coğrafiya, eyni zamanda, siyasi, iqtisadi, mədəni əlaqələr tərəfdaşlığın bu unikal ab-havasını yaradır. Beləliklə, Azərbaycan geosiyasi cəhətdən Cənubi Qafqazda, Xəzər dənizinin sahilində yerləşən bir ölkədir, lakin, eyni zamanda, biz Mərkəzi Asiyaya yaxınıq. Yalnız Xəzər dənizi bizi ayırır. Beləliklə, praktiki əməkdaşlıq, nəqliyyat, Orta Dəhliz nöqteyi-nəzərdən biz körpülər qurmaq və yükdaşımaların həcmini artırmaq məqsədilə çoxlu işlər görmüşük. Çünki Azərbaycanın nəqliyyat infrastrukturuna, xüsusilə dəniz limanına, gəmiqayırma zavoduna, dəmir yolu müəssisələrinə və bu gün yaratdığımız digər logistik infrastrukturumuza yatırılan böyük investisiyalar önəmlidir və ildən-ilə biz təkcə Mərkəzi Asiyadan yox, həmçinin Azərbaycanın ərazisindən keçməklə Çindən gedən və Avropadan Çinə gedən yüklərin həcminin artdığını görürük. Hesab edirəm ki, bu, vacib bir aktivdir və Mərkəzi Asiya ölkələri ilə münasibətlərini yaxından qurmaq istəyən istənilən beynəlxalq aktor üçün yenə də xəritəyə və Azərbaycan ilə Mərkəzi Asiya ölkələri liderləri arasında siyasi müstəvidə qarşılıqlı əlaqələrə nəzər salmaq kifayətdir.

Eyni sözləri biz Yaxın Şərq ölkələri və Körfəz Əməkdaşlıq Şurasına üzv ölkələrlə olan güclü əlaqələrimizə də şamil edə bilərik. Azərbaycan qarşılıqlı hörmət və maraq əsasında çox güclü əlaqələr qurmuşdur. Biz artıq müxtəlif investisiya layihələri üzərində fəal işləyirik. Eyni sözləri Mərkəzi Asiya ölkələri haqqında da söyləmək olar. Biz bəzi Mərkəzi Asiya ölkələri və Körfəz Əməkdaşlığı Şurasına üzv ölkələrin bəziləri ilə bir neçə birgə investisiya fondunu yaratmışıq. Beləliklə, bu sinerjinin yaradılması əlbəttə ki, bizim hamımıza fayda verəcək. Bu yaxınlarda - altı ay bundan əvvəl biz Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında Xəzər dənizinin dibi ilə gedəcək yaşıl enerji kabelinə dair mühüm bir müqavilə imzaladıq. Beləliklə, bu müqavilə Mərkəzi Asiyanın artıq mövcud olan və bəzilərinin üzərində iş gedən geniş enerji resurslarını buraya gətirəcək və Azərbaycanın geniş enerji resurslarına əlavə edəcək, enerji təhlükəsizliyi ilə bağlı Avropa ölkələrinə dəstək olacaq. Hələ ki, söhbət neft və qazdan gedir. Lakin yaşıl enerjidən elektrik enerjisi yaradılacaq. Bir neçə gün bundan əvvəl Bakıda Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının ənənəvi iclası keçirilmişdir. Onun gündəliyinin bir qismi yaşıl enerjiyə həsr olunmuşdur. Beləliklə, daşımalar, yaşıl enerji, təhlükəsizlik, sabitlik və əlbəttə ki, regionumuzun dövlətçiliyi və müstəqilliyini qorumaq üçün birgə səylər mühüm beynəlxalq amildir.

**Hikmət Hacıyev:** İkinci sual, Stefani Fenkart, Avstriya.

**Stefani Fenkart:** Bizi qəbul etdiyiniz üçün çox sağ olun, cənab Prezident. Mən Vyanadakı Beynəlxalq Sülh İnstitutunda çalışıram. Mən keçən dəfə də burada idim və Ermənistanla Azərbaycan arasında barışıq, vasitəçilik barədə sual vermişdim. Bu dəfə isə daha uzunmüddətli perspektivə yönəlmiş sual vermək istəyirəm. İstərdim ki, yeni dünya düzəni mövzusunu nəzərə alaraq, Cənubi Qafqaz ölkələri üçün uzunmüddətli baxışınız haqqında bizə məlumat verəsiniz və yəqin Ermənistan ilə Azərbaycan arasında sülhün uzun çəkəcəyini görürsünüz. Bir-biri ilə razılaşma, sülh sazişinə nail olma nöqteyi-nəzərindən bu proses hələ də uzun çəkəcək. Lakin əngəlləri aşmaq olar. Bütün bunlara baxmayaraq, düşünürəm ki, bir Avropa dövləti kimi gələcəkdə müharibələrin aparılmasının necə mümkünsüz edilməsinə və sonra da Avropa İttifaqı kimi institusional formanın alınmasına dair baxış kimi bir fikrə malik olmaq vacibdir. Mən Sizə bu yolla irəliləməyi təklif etmirəm. Lakin, Sizin də əvvəl qeyd etdiyiniz kimi mövcud coğrafiyanı nəzərə alaraq, azərbaycanlılar, ermənilər və gürcülərin bəhrələnəcəyi Cənubi Qafqaz üçün uzunmüddətli baxışınız nə olardı? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Bəli, hesab edirəm ki, biz nail olunması mümkün olan orta perspektivli hədəflər haqqında da danışa bilərik. Əfsuslar olsun ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı Cənubi Qafqaza nisbətən inteqrasiya olunmuş region kimi inkişaf etməyə imkan vermədi. Bizim hamımızın buna imkanı var idi. Lakin Azərbaycan xalqına qarşı təcavüz və onun iztirabı bunun reallaşmasına imkan vermədi. Beləliklə, Cənubi Qafqaz inteqrasiya olunmamışdı. Buna baxmayaraq, iqtisadi və nəqliyyat marşrutları və əlbəttə ki, enerji təhlükəsizliyi nöqteyi-nəzərindən bu, baş verə bilərdi. Azərbaycanla Gürcüstan arasındakı münasibətlərə baxsaq, indicə qeyd etdiyim enerji təhlükəsizliyi, daşımalar, siyasi dialoq, investisiyalar, iqtisadi üstünlüklər kimi bütün bu seqmentləri görə bilərik. Beləliklə, Ermənistan, əslində, özünü bütün bunlardan məhrum etdi, işğal və təcavüz nəticəsində özünü tranzit ölkəsi, Azərbaycanın enerji resursları və nəqliyyat marşrutları üçün önəmli tranzit ölkəsi olmaqdan məhrum etdi. Neft, qaz və ya yük daşımaları olmasından asılı olmayaraq, Azərbaycandan gələn bütün tranzit Gürcüstandan keçir. Beləliklə, Ermənistan bu prosesin bir hissəsi ola bilərdi. Gələcəkdə cərəyan edəcək hadisələrin düzgün hesablanılmaması və gələcək iqtisadiyyatını, "böyük Ermənistan" arzusu olan həqiqi müstəqilliyini qurban verməsi onların təqsiridir. Azərbaycan və Ermənistan arasında saziş imzalananda və imzalandığı təqdirdə əlbəttə ki, əməkdaşlığın başlanılmasına heç bir maneə qalmayacaq. Hesab edirəm ki, biz vaxt itirməməliyik, çünki yenə də sülh sazişinə gəldikdə, top Ermənistandadır. Mən bir çox hallarda Ermənistandan ərazi bütövlüyümüz və onların konstitusiyası ilə bağlı gözlədiklərimizi dəfələrlə açıq şəkildə bildirmişəm. Bunlar məlumdur. Beləliklə, bütün bu işlər tamamlanan və sülh sazişi imzalanan kimi Cənubi Qafqazı inteqrasiya olunmuş regiona çevirməyə cəhd etmək üçün heç bir maneə qalmayacaq. Hesab edirəm ki, bu vəziyyət Cənubi Qafqazın üç ölkəsinin xeyrinədir. Realist olduğum üçün biz dərhal Ermənistanla dost olacağımızı təsəvvür edə bilmərik. Bu, real deyil və hətta belə bir iqtisadi inteqrasiya haqqında danışmaq hələ tezdir. Lakin biz etimadın artırılması üçün kiçik addımların atılmasına hazırıq. Bu yaxınlarda gürcü dostlarımız tərəfindən atılmış müəyyən təşəbbüslər var idi və biz onlara müsbət cavab verdik. Beləliklə, biz Ermənistan tərəfinin mövqeyini gözləyəcəyik. Bu baş versə, jurnalistlər və ziyalıların mübadilə səfərləri, transsərhəd çaylarla bağlı sessiyalar kimi kiçik addımlar atıla bilər, çünki bu məsələ Azərbaycanı ciddi narahat edir. Çünki Ermənistan Araz çayını çirkləndirir və yeri gəlmişkən, Azərbaycan istiqamətində Kür çayı məsələsi müvafiq şəkildə müzakirə olunmalıdır. Beləliklə, bütün bunların praktiki təsiri ola bilər. Bu kiçik addımlarla biz etimadsızlığı azaltmağa çalışa bilərik. Etimadı qurmaq üçün illər tələb olunur, lakin ən azından etimadsızlığı azaltmaq olar, biz buna hazırıq.

**Hikmət Hacıyev:** Brenda Şaffer, Amerika Birləşmiş Ştatları və İsrail.

**Brenda Şaffer:** Sabahınız xeyir, Prezident Əliyev.

**Prezident İlham Əliyev**: Sabahınız xeyir.

**Brenda Şaffer:** Biz 2025-ci ili yaşayırıq, 44 günlük müharibədən demək olar ki, beş il ötüb. Həlak olmuş şəhidləri, xüsusilə ölkəsini müdafiə edən gəncləri və həyatının hər günü mübarizəyə çevrilmiş yaralananları xatırlamaq yerinə düşərdi. Lakin bu həm də Ali Baş Komandandan, Azərbaycanın və onun Ordusunun müharibəyə hazırlaşma prosesinə rəhbərlik etmiş Prezidentdən soruşmaq fürsətidir. Beş ildən sonra hansı qənaətə gəlmisiniz? Deyə bilərik ki, İkinci Dünya müharibəsindən sonra çox az sayda müharibənin real sonu olmuşdur. Tərəflər davam edən münaqişəni, sadəcə, süründürürlər. Ermənistan-Azərbaycan müharibəsi 2023-cü ilin antiterror əməliyyatı da daxil olmaqla sona çatmış yeganə müharibədir. Beləliklə, Siz özünüz üçün hansı nəticələr çıxarmısınız? Ali Baş Komandan olaraq müharibədən beş il sonra urban müharibə, mülki şəxslər arasında itkilərin və mülki infrastruktura dəymiş ziyanın azalması. Biz burada əyləşərkən əfsuslar olsun ki, hələ də davam edən müasir müharibələrdən çıxardığınız nəticələr nədir?

**Prezident İlham Əliyev**: Təşəkkür edirəm. Əlbəttə ki, bu suala cavab vermək üçün müxtəlif seqmentlər mövcuddur. Birincisi, müdafiə qabiliyyətidir. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan öz Silahlı Qüvvələrində islahatları davam etdirmişdir. Bu ona görə olmuşdur ki, ərazimizdə hələ separatçılar var idi və biz istənilən təxribatlara hazır olmalı idik. 2020-ci il müharibəsindən suverenliyimizi tam bərpa etdiyimiz 2023-cü ilə qədər müəyyən hərbi qarşıdurmalar var idi. İkinci Qarabağ müharibəsi zamanı hərbi əməliyyatların tərəfimizdən aparılması tərzi Azərbaycan hərbi qüvvələrinin yüksəksəviyyəli bacarığını, nizam-intizamını və Azərbaycan hökumətinin siyasi iradəsini nümayiş etdirdi.

Biz intiqam almadıq. Lakin xüsusilə Qarabağa qayıdanda və barbarlığı, vəhşiliyi gördükdə bizim işğal illərində hansı hissləri keçirdiyimizi təsəvvürünüzə gətirə bilərsiniz. Beləliklə biz dedik ki, - və mən bunu dəfələrlə demişəm, - intiqamımızı döyüş meydanında alacağıq. Biz normal insan davranışından və özümüzün sadiq olduğumuz müharibə qaydalarından kənara çıxan bir hərəkət etməyəcəyik. Bu, belə də oldu. Biz müharibəni bütün beynəlxalq qaydalara və dəyərlərə dair anlayışımıza uyğun apardıq. Bu, 44 günlük müharibənin hər bir gününü diqqətlə nəzərdən keçirən bütün ekspertlər tərəfindən yüksək qiymətləndirildi. Beləliklə, müharibə bitdikdən sonra, əlbəttə ki, vəziyyəti tamamilə sabit olan bir vəziyyət kimi qiymətləndirmək olmazdı. 2023-cü ilin sentyabrına qədər bu belə deyildi, bizim itkilərimiz olurdu. Əfsuslar olsun ki, Ermənistan və onun arxasında duran bəzi xarici qüvvələr onlara çox pis məsləhətlər verirdilər. Əslində, 2020-ci il noyabrın 10-da Ermənistan kapitulyasiya aktına imza atdı və tarixdən hamımız bilirik ki, bir ölkə kapitulyasiya edəndə onun başına nə gəlir. Lakin bu, baş vermədi. Beləliklə, Ermənistan sanki Azərbaycan xalqının 30 illik işğal iztirabı olmamış, 44 günlük müharibə olmamış kimi davranmağa davam etdi və öz dırnaqarası dostlarından pis məsləhətlər aldı. Yeri gəlmişkən, bu proses hələ də davam edir. Baxmayaraq, biz dəfələrlə onlara xəbərdarlıq etmişik ki, onlar istər köhnə, istərsə də yeni dostları hesab etdikləri dairələrə bel bağlamamalıdırlar. Çünki onlar burada bizimlə üz-üzə qalacaqlar. Bizim maraqlarımızı, beynəlxalq arenada olan siyasi maraqlarımızı müdafiə etmək üçün kifayət qədər siyasi iradəmiz var və bizi siyasətimizdən döndərəcək hər hansı bir beynəlxalq təzyiqə məruz qoymaq mümkün deyil. Beləliklə, hərbi nöqteyi-nəzərdən istər İkinci Qarabağ müharibəsi olsun, istərsə də 2023-cü ilin sentyabrında keçirilmiş antiterror əməliyyatı olsun, bundan sonra hərbi potensialımızı gücləndirmək üçün etdiklərimiz tamamilə anlaşılandır. Xüsusilə həqiqi sülhə və sabitliyə gətirib çıxarmayacaq, Ermənistanda geniş vüsət almış militarizasiya prosesini, Ermənistanın yeni dostları tərəfindən təchiz edilmiş ölümcül silahları nəzərə alaraq. Bu yalnız gələcəkdə potensial gərginliyə aparıb çıxaracaqdır.

Biz Ermənistanda kifayət qədər güclü revanşist qrupların olduğunu bilirik. Mən onları iki qrupa bölərdim: 30 illik işğala görə məsuliyyət daşıyan fəal revanşistlər və guya konstruktiv yanaşma sərgiləməyə cəhd göstərən, lakin, əslində, eyni revanş və intiqam hissi ilə yaşayan bugünkü hökumət olan passiv revanşistlər. Onların ölümcül silahları almasının səbəbi də budur. Onlar bəzi silahları pulsuz əldə edirlər. Bu, onların Azərbaycana qarşı yeni hərbi əməliyyatları planlaşdırmalarının səbəbidir. Bu səbəbdən onlar ATƏT-in Minsk qrupunun buraxılmasına dair bizim legitim təklifimizi qəbul etmək istəmirlər. Çünki bizim hamımızın bildiyi kimi, Minsk qrupu Qarabağ münaqişəsi ilə bağlı olan məsələləri həll etmək üçün yaradılmışdır. Əgər Ermənistan hökuməti bəyan etdikləri kimi münaqişənin bitdiyini və Qarabağın Azərbaycanın bir hissəsi olduğunu hesab edirsə, Minsk qrupunun hüquqi olaraq buraxılması üçün heç bir səbəb yoxdur. De-fakto olaraq qrup fəaliyyət göstərmir, lakin rəsmi olaraq Minsk qrupunun buraxılması üçün Azərbaycanla birlikdə birgə müraciəti imzalamaqdan imtina etmək onların öz vaxtını gözləməsinə işarə edir. Ola bilsin onlar bəzi dəyişiklikləri, onlara üstünlüklər verən müəyyən beynəlxalq vəziyyəti gözləyirlər. Onlar Amerikada seçkilərdən sonra demokratların administrasiyada qalacaqlarına çox güvənirdilər. Lakin Prezident Trampın qələbəsi onları çox məyus etdi. Biz hamımız bunu bilirik. Buna baxmayaraq, Ermənistanın siyasi isteblişmenti Azərbaycan məsələsində parçalanmayıb. Onlar konsolidasiyalı mövqeyə malikdirlər. Bu, sadəcə, terminologiya, davranış və taktikadan asılı olan bir məsələdir. Beləliklə, biz buna hazır olmalıyıq, həm hərbi nöqteyi-nəzərdən, həm də siyasi nöqteyi-nəzərdən. Beləliklə, sülh sazişi imzalanana və Ermənistan da onların konstitusiyasında hələ də mövcud olan Azərbaycana qarşı bütün ərazi iddialarından imtina edənə və Azərbaycanla münasibətlərin normallaşması üçün səmimi davranış sərgiləyənə qədər onlar həmişə yeni hərbi qarşıdurma təhlükəsini törədəcəklər. Burada sonuncu məqam odur ki, 2020-ci ildən bəri artıq beş il ötüb, biz hələ də Azərbaycanın Ermənistana qarşı yeni təcavüz planlaşdırdığına dair tamamilə əsassız olan mülahizə və ittihamlarla üzləşirik. Beləliklə, artıq beş il ötüb, lakin hələ də əsasən Fransa hökuməti və Avropa İttifaqında onların siyasətinə əməl edənlər və Blinken vəzifədə olarkən Dövlət Departamenti tərəfindən yaradılmış qara propaqanda davam edir. Bu qara propaqanda davam edir və bir çox hallarda bağlı qapılar arxasında mən deyirdim: "Baxın, əgər biz 2020-ci ilin noyabrında müharibəni davam etdirmək istəsəydik, onu davam etdirərdik. Biz hərbi əməliyyatlarımızı Xankəndinin həndəvərində dayandırdıq. Biz insanların ölməsini istəmədiyimizə görə müharibənin davam etməsini istəmirdik. Biz bunu sülh yolu ilə etmək istəyirdik. Biz bunu davam etdirmək istəsəydik, düz Ermənistanla sərhəddə hər yerdə - Zəngilanda, Kəlbəcərdə, digər istiqamətlərdə idik, Ermənistanın ordusu tamamilə demoralizə olunmuşdu". Ermənistan hökumətinin özünün təsdiq etdiyi kimi orduda 12 min fərari var idi. Beləliklə, heç kim bizim qarşımızı ala bilməzdi ki, biz indi yanlış olaraq ittiham olunduqlarımızı etməyək. Amma bizim belə bir niyyətimiz yox idi və indi də belə niyyətimiz yoxdur. Lakin biz, eyni zamanda, ayıq-sayıq olmalıyıq. Biz 30 illik işğalı unutmamalıyıq. Biz təkcə diasporda, Fransa və Amerika Birləşmiş Ştatlarında yox, Ermənistan hökumətində və bütün siyasi dairələrdə hələ də dövriyyə edən "böyük Ermənistan" xəyallarını unutmamalıyıq.

(ardı 3-cü səhifədə)

# Azərbaycan qlobal problemlərin həllinə önəmli dəstək göstərir

(əvvəli 2-ci səhifədə)

Qarabağın yenidən geri alınmasını xəyal etməyən bir erməni siyasətçisini demək olar ki, tapa bilməzsiniz. Bu, reallıqdır. Biz bu reallığı müxtəlif informasiya mənbələrindən bilirik və biz bununla yaşamalıyıq. Odur ki, ola bilsin, bunlar bizim müharibədən, postmüharibə vəziyyətindən çıxardığımız nəticələrdir və postmüharibə vəziyyətinin necə inkişaf edəcəyi əsasən Ermənistandan asılıdır. Biz tamamilə legitim olanları etmişik. Biz ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etmişik, separatizmə son qoymuşuq və sərhədlərimizi nəzarətimiz altına almışıq. Bizim üçün bu məsələ bitib. Lakin bu, bizim potensial təhdidləri və potensial təhlükəni, sadəcə, nəzərə almayacağımız demək deyil. Biz həmişə onları yerinə otuzdurmağa hazır olmalıyıq. Bu səbəbdən biz ordu quruculuğuna külli miqdarda vəsait xərcləməyə davam edirik. Bu, bizim dırnaqarası təcavüzü planlaşdırdığımız üçün deyil. Bu onun üçündür ki, biz təcavüzün qurbanı olaraq özümüzü müdafiə etmək və bir də bizə ziyan verməyə qərarlaşdırdığı halda Ermənistanı cəzalandırmaq iqtidarında olmaq istəyirik.

**Hikmət Hacıyev**: Daria İsaçenko, Almaniya.

**Daria İsaçenko**: Hörmətli cənab Prezident, bu imkana görə çox təşəkkür edirəm. Mən Almaniyanın Beynəlxalq və Təhlükəsizlik Məsələləri üzrə İnstitutunda fəaliyyət göstərirəm. Sualım Türkiyə və İsraillə bağlıdır. Azərbaycanın hər iki ölkə ilə yaxşı və yaxın münasibətləri var. Bu iki ölkə arasında hazırkı gərginliyi nəzərə alsaq, bu, Azərbaycana necə təsir göstərir və Azərbaycan Türkiyə ilə İsrail arasında gərginliyin azaldılması istiqamətində hər hansı bir fəaliyyətdə rol oynayırmı? Təşəkkür.

**Prezident İlham Əliyev**: Bəli, haqlısınız. Hər iki ölkə Azərbaycanın yaxın dostudur. Biz Türkiyə ilə müttəfiqik. Biz 2021-ci ildə Şuşa Bəyannaməsini imzalamışıq və rəsmi surətdə müttəfiq olmuşuq. Baxmayaraq ki, bizim müttəfiqlik münasibətlərimiz de-fakto bu formal prosedurdan uzun müddət əvvəl mövcud olub.

İsrail Azərbaycana dost ölkədir. Uzun illər ərzində hər ikimiz üçün çətin zamanlarda qarşılıqlı dostluq nümayiş olunub. Ona görə də, əlbəttə ki, bu iki ölkə arasındakı gərginlik bizim üçün çox narahatlıq doğurur. Artıq məlum olduğu kimi, - baxmayaraq ki, biz özümüz bunu açıq şəkildə heç vaxt bəyan etməmişik, bu, artıq kifayət qədər geniş şəkildə yayılıb, - Türkiyə ilə İsrail arasında ilk uğurlu barışıq müəyyən dərəcədə Azərbaycanın vasitəçiliyi ilə əldə olunub. Çünki indi iki ölkə arasında baş verənlər ilk böhran deyil, yaxın keçmişdə ikincidir. İlk böhran zamanı biz ölkələri yaxınlaşdırmağa çalışmaq üçün fəal rol oynadıq. Bu, təkcə Azərbaycan deyildi, lakin deyərdim ki, Azərbaycan bu prosesdə birinci yerdə idi. Yenə də bu, bağlı qapılar arxasında baş verdi. Biz bunu heç vaxt ictimailəşdirmədik. Biz buna görə heç vaxt özümüzü tərifləməyə çalışmadıq. Biz, sadəcə olaraq, müttəfiqimiz və qardaşımız olan Türkiyəyə, dostumuz İsrailə öz əlaqələrini yenidən qurmaq üçün yardım etmək istədik. Bəlkə də bilirsiniz ki, bu normallaşmanın nəzərəçarpan əlamətləri də var idi, məsələn, İsrail Prezidenti cənab Hersoqun Türkiyəyə səfəri və Prezident Ərdoğanla görüşü, Prezident Ərdoğanla Baş nazir Netanyahu arasında Nyu-Yorkda görüş. Bu, iki il bundan əvvəl baş vermişdi. İndi biz bir növ dejavü yaşayırıq. Biz addımlarımızın alqoritmini bilirik. Mən sizi əmin edə bilərəm ki, yardım etməyə çalışmaq üçün səy göstəririk. Ola bilsin ki, hazırkı mərhələdə bundan daha çox söz demək doğru olmaz, çünki yenə də bu, iki ölkə arasındakı münasibətlərdir. Aramızdakı hər hansı prosesi, - əgər, ümumiyyətlə, belə bir proses varsa, - nə dərəcədə ictimailəşdirmək istəmələrinə onlar özləri qərar verməlidirlər. Normallaşmanın birinci raundu zamanı biz tamamilə sakit idik. Biz bağlı qapılar arxasında işləyirdik. Təsəvvür edə bilərsiniz ki, biz indi eyni işi görürük. Ümidvarıq ki, bu proses normallaşmaya aparacaq. Dostlarınız arasında pis münasibətlərin olması hər zaman pisdir. Bu, onlar üçün pisdir, bizim üçün pisdir və dünya üçün pisdir. Çünki düşünürəm ki, legitim narahatlıqlara, kifayət qədər yüksək səviyyədə etimadsızlığa baxmayaraq, hələ də normallaşma və qarşılıqlı maraq doğuran sahələr üçün əsas tapmaq olar. Zənnimcə, proses dayanmamalıdır. Azərbaycan prosesə kömək etmək üçün əlində olan hər şeyi edir.

**Hikmət Hacıyev**: Ramiz Yunus, ABŞ.

**Ramiz Yunus**: Möhtərəm cənab Prezident, bu gün burada olmaq mənim üçün böyük şərəfdir. Sizinlə yenidən görüşməyə çox şadam. Bu imkana görə təşəkkür edirəm. Dəvətə görə təşəkkür edirəm. Mənim üçün bu, böyük imkandır. Sizin iştirakınızla keçirilən çox mühüm beynəlxalq tədbirlər üçün Vətənimə, xüsusilə Qarabağa, Azərbaycanın Qarabağ bölgəsinə gəlmək bir ənənəyə çevrilib. Keçən dəfə bu, Şuşada idi, indi Xankəndidə, Bakıda. Eyni zamanda, dünyadakı və regiondakı ciddi geosiyasi məsələlərlə bağlı Sizə sual ünvanlamaq imkanını yüksək qiymətləndirirəm. Möhtərəm cənab Prezident, keçən dəfə ABŞ-dakı seçkilərdən əvvəl mənim sualıma cavab verərkən Siz həm demokratlarla, həm də respublikaçılarla təmasda olmaqla bağlı mükəmməl təcrübənizi paylaşdınız. Xatırlayıram, Siz söylədiniz ki, respublikaçıların administrasiyası ilə işləmək Sizin üçün hər zaman daha asandır. Möhtərəm cənab Prezident, Sizə sualım var. Ağ evdə hakimiyyətin dəyişməyindən sonra Sizin gözləntiniz özünü doğrultdumu, yoxsa bu barədə danışmaq hələ tezdir? Bu gün Azərbaycan və regionumuz üçün əsas riski nədə görürsünüz? Bir daha təşəkkür edirəm, möhtərəm cənab Prezident.



**Prezident İlham Əliyev**: Təşəkkür edirəm. Mənim şəxsi təcrübəm nöqteyi-nəzərindən, - mən bunu dəfələrlə bölüşmüşəm, - sözsüz ki, respublikaçıların administrasiyası ilə işləmək demokratların administrasiyası ilə işləməkdən daha rahat olub. Mən prezident kimi fəaliyyətə 2003-cü ildə, Prezident Corc Buşun dövründə başlamışam və iki ölkə arasında münasibətlər çox yaxşı idi. Hər ikimiz qarşılıqlı dəstəyi yüksək qiymətləndirirdik və ikitərəfli əlaqələrimizin strateji əhəmiyyətini açıq şəkildə bəyan edirdik. Azərbaycan Əfqanıstanda və İraqda əməliyyatlara qoşulan ilk qeyri-NATO ölkələri arasında idi. Bu, ABŞ administrasiyasının müraciətinə əsasən olmuşdu. Əks halda, biz orada olmazdıq. Biz təkcə çox sayda hərbçilərimiz vasitəsilə fiziki dəstəyi deyil, həm də istər hava yolu ilə və ya yerüstü vasitələr və Xəzər dənizi vasitəsilə Əfqanıstana mühüm nəqliyyat əlaqəsini təmin etdik. Bu, Prezident Buş administrasiyası dövründə ABŞ hökuməti tərəfindən yüksək qiymətləndirildi. Prezident Buşun səlahiyyət müddəti başa çatandan sonra vəziyyət ciddi şəkildə olmasa da bir qədər dəyişdi. Lakin Bayden-Blinken administrasiyası dövründə ABŞ ilə Azərbaycan arasında münasibətlər böhran vəziyyətində olan münasibətlər kimi səciyyələndirilə bilər. Bunun səbəbkarı biz deyildik. Biz dünyanın ən güclü ölkəsi olan ABŞ ilə hər zaman yaxşı münasibətlərimizin olmasını istəmişik. Bu, cənab Blinkenin rəhbərlik etdiyi Dövlət Departamentinin yürütdüyü anti-Azərbaycan siyasəti və Prezident Bayden administrasiyasında olan anti-Azərbaycan mövqeli bir çox şəxslər üzündən baş verdi. Mən Azərbaycanda məyusluğa səbəb olmuş müxtəlif faktları qeyd edə bilərəm. Düşünürəm ki, cəmi birini - Azərbaycana qarşı sanksiyaların yenidən necə tətbiq olunmasını söyləmək kifayətdir. ABŞ-ın Azərbaycana ehtiyacı olanda Azərbaycana münasibətdə ayrı-seçkiliyi nümayiş etdirən Azadlığa Dəstək Aktına “907-ci düzəliş” müvəqqəti olaraq dayandırılırdı. ABŞ-ın hər bir prezidenti hər il bunu dayandırırdı. Lakin Bayden-Blinken administrasiyası Əfqanıstandan qaçan kimi,- bunu onların necə etdiyini hamımız gördük, - onlar bizə qarşı bu düzəlişi yenidən tətbiq etdilər. Belə nankor olmaq administrasiyanın özünə də ziyan verir. Çünki bundan sonra onlara kim etimad edəcəkdi? Bizim Bayden-Blinken komandasına etimad səviyyəmiz sıfra bərabər idi. Münasibətlərimiz dərin böhran içərisində idi.

Bayden-Blinken komandasının rəhbərliyi dövründə ABŞ Ermənistana münasibətdə birtərəfli mövqe tutdu. Bu, Ermənistan-Azərbaycan münaqişəsi başlayandan bəri ilk dəfə idi ki, rəsmi şəkildə baş verirdi. Bəli, demokratların hakimiyyətdə olduğu bütün administrasiyalar dövründə Ermənistanın necə dəstəkləndiyini biz hamımız bilirdik. Lakin buna baxmayaraq, Amerikanın prosesdə vasitəçilik tarixində heç vaxt onlar Ermənistana münasibətdə birtərəfli mövqe tutmamışdılar. Ötən il aprelin 5-də cənab Blinken, xanım Ursula Fon der Lyayen, cənab Borell və cənab Paşinyanın iştirakı ilə Brüsseldə keçirilmiş çox qəribə görüşü xatırlamaq kifayətdir - ABŞ və Avropa siyasətçilərindən ibarət komandanın nəinki postsovet məkanının, dünyanın heç bir ölkəsi ilə indiyədək keçirmədiyi bir görüş. Bizdə kifayət qədər etibarlı məlumat var ki, razılaşdırılmış protokolun bir hissəsi hərbi potensialın artırılmasına həsr olunmuşdu. Biz bunun qarşısını almaq üçün bu məsələni əvvəlcədən qaldırmışdıq. Sonradan bu, sənədin mətnindən çıxarılmışdı. Lakin de-fakto bu mövcud idi. Buna əsaslanaraq qondarma “Avropa Sülh Fondu” silah almaq üçün Ermənistana ilk transını ayırdı. Blinkenin dövründə ABŞ-Azərbaycan münasibətlərinin pisləşməsində başqa mühüm bir amil Prezident Trampın səlahiyyətlərinin icrasına başlamazdan 5 gün əvvəl imzalanmış strateji tərəfdaşlıq bəyannaməsi oldu. Bu il yanvarın 14-də Vaşinqtonda Dövlət katibi Blinken və Ermənistanın xarici işlər naziri strateji tərəfdaşlığa dair bəyannamə imzaladılar - oğrular kimi tələsik. Yeni komandanın gəlişinə cəmi 5 gün qalmış, - siyasəti Prezident Tramp müəyyənləşdirəcəkdi, - bu nəyə lazım idi? Bu, cənab Blinkenin növbəti anti-Azərbaycan addımı idi. Mən buna çox təəssüflənirəm, çünki təmaslarımızın əvvəlində mən ona çox etimad edirdim. Lakin əfsuslar olsun ki, mən yanılmışdım. Qafqazda ayırıcı xətlər çəkmək, Azərbaycanı təcrid etmək, bizə qarşı ayrı-seçkilik etmək, Azərbaycan haqqında şayiələr yaymaq cəhdləri oldu. Bayden-Blinken komandası hakimiyyətdən gedən kimi, Azərbaycana qarşı bütün bu insinuasiyalar dərhal dayandırıldı. Onların “Washington Post”, “New York Times”, “Politico” və s. kimi bizə qarşı çox aqressiv olan, Prezident Trampın “feyk xəbərlər” adlandırdığı mediası Azərbaycan haqqında çirkin məqalələr dərc etməyi dərhal dayandırdı. Biz bilirdik ki, bu məqalələrin mənbəyi Dövlət Departamentidir. USAID-lə də bağlı vəziyyət eyni idi. İndi, yeri gəlmişkən, bizim Baş prokuror USAID-in qanunsuz fəaliyyətini araşdırır. Mənə ilkin araşdırma ilə bağlı artıq məlumat verilmişdir. Bu, anti-Azərbaycan fəaliyyətinin miqyasını, hökumətimizə xələl gətirmək, daxili işlərimizə müdaxilə etmək və qarışmaq səylərini nümayiş etdirir. Sənədlər hazır olan kimi biz onu Prezident Tramp administrasiyasına təqdim edəcəyik ki, onlar bu korrupsiyaya uğramış USAID və onun korrupsiyalaşmış rəhbərləri barəsində ciddi tədbirlər görə bilsin. Beləliklə, bu tarixdir və mən bu tarix barədə bəlkə də saatlarla danışa bilərəm, lakin indi ən mühüm olan odur ki, bəli, biz gözlədiyimizi artıq əldə etmişik ya yox? Mən deyərdim, bəli. Çünki, birincisi, ABŞ siyasətində anti-Azərbaycan trendi dayandırıldı və bu, artıq müsbət məqamdır. İkincisi, artıq Tramp administrasiyasının üzvləri ilə Azərbaycan nümayəndə heyəti arasında müxtəlif səviyyələrdə yüksəksəviyyəli təmaslar baş tutub, gündəlik çox səmərəli və qarşılıqlı şəkildə məqbul olub. Üçüncüsü, Tramp administrasiyasının gündəliyini nəzərə alsaq, biz münasibətlərimizdə bu dövrün tərəfdaşlığımızı gücləndirmək üçün çox yaxşı imkan olacağını gözləyə bilərik, həmçinin bizim birinci prezidentlik dövründə Tramp administrasiyası ilə işləməklə bağlı çox müsbət təcrübəmiz var. Bizim münasibətlərimizdə heç bir böhran yox idi. Bəli, münasibətlərimiz istədiyimiz kimi fəal deyildi, lakin bu, birinci prezidentlik dövrü idi. İndi Prezident Tramp və komandası Avropa İttifaqının ona qarşı riyakarlığını gördü, Avropa liderlərinin xanım Harrisi dəstəkləməklə ona qarşı sövdələşmənin arxasında necə durduğunu gördü, beləliklə, o, bunu öz üzərində hiss etdi. Ona görə də ikinci prezidentliyi dövrü, - əlbəttə ki, bu, mənim qiymətləndirməmdir, - birinci dövrlə müqayisədə daha fəal olacaq və daha çox diqqəti amerikalıların milli maraqlarına yönəldəcək. Amerikanın milli maraqları baxımından, bunu tam əminliklə deyə bilərəm: Azərbaycanla güclü əlaqələrin olması bu region üçün çox mühümdür. Çünki Azərbaycan Cənubi Qafqazın aparıcı ölkəsidir. Qlobal Cənubun bir hissəsi olan, 4 il uğurlu sədrlik etdiyimiz Qoşulmama Hərəkatında güclü mövqeyə, artıq müzakirə etdiyimiz kimi Mərkəzi Asiya regionu ilə güclü əlaqələrə malik olan, imkanları, iqtisadi potensialı, enerji ehtiyatları olan, gücünü paradlarda deyil, döyüş meydanında nümayiş etdirmiş Ordusu olan və hər kəslə siyasi əlaqələri olan Azərbaycan ABŞ üçün çox mühüm tərəfdaş ola bilər. Biz bunun olmasını istəyirik. Biz bunun baş verdiyini görürük, eyni zamanda, başa düşürük ki, indi Prezident Tramp və komandası qlobal gündəlikdə duran daha aktual və mühüm məsələlərlə məşğuldur. Ona görə də biz yeni administrasiya ilə çox güclü, proqnozlaşdırılabilən, uzunmüddətli strateji əlaqələrə başlayacağımız və ya ola bilsin ki, yenidən başlayacağımız vaxtı gözləyirik.

**Hikmət Hacıyev**: Thembisa Fakude, Cənubi Afrika.

**Thembisa Fakude:** Təşəkkür edirəm. Sabahınız xeyir, cənab Prezident, bizi qəbul etdiyinizə görə təşəkkür edirəm. Bu, mənim Azərbaycana ikinci səfərimdir. Keçən dəfə Sizinlə Şuşada Qlobal Media Forumunda görüşmüşdük. Dəvətə görə bir daha təşəkkür edirəm. Ən azı Afrika nöqteyi-nəzərindən biz Azərbaycanın geosiyasi gücünü və Qoşulmama Hərəkatının rəhbərliyində iştirakını müşahidə edirik. Bu il Siz, həmçinin COP29-a rəhbərlik edirsiniz, biz hamımız bunu maraqla izləyirik. Lakin mühüm olan odur ki, Azərbaycan həm də Afrikadakı sosial, təhsil layihələrinə investisiya yatırır, sözsüz ki, bir çox afrikalılar buna çox sevinir. Bizim Afrikadan gələrək Azərbaycanda təhsil alan daha çox tələbəmiz var. Siz, həmçinin bəzi dövlət xidmətlərinin öyrədilməsi və peşəkarlaşdırılması baxımından təcrübənizi bölüşürsünüz. Bu, yüksək qiymətləndirilir. Lakin afrikalılar, - həm də xüsusilə mənim gəldiyim Afrikanın cənub hissəsində, - Azərbaycanın daha yaxından iştirakını istəyirlər. Sualım belədir və mən bu cavabı öz ölkəmə çatdırmalıyam. Sizin xüsusilə Cənubi Afrikada sosial, təhsil və digər akademik fəaliyyətinizi genişləndirməklə bağlı planlarınız varmı? Əgər varsa, bu hansı planlardır? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev**: Təşəkkür edirəm. İlk növbədə, demək istərdim ki, Cənubi Afrika Afrika qitəsində bizim uzun illərdir səfirliyimizin olduğu az sayda ölkədən biridir. Bizim Afrikada çox səfirliyimiz yoxdur. Lakin səfirliklərin sayı artmaqdadır. Düşünürəm ki, Cənubi Afrika ilklərdən biri olub. Beləliklə, bu, bizim sizin ölkənizlə müxtəlif sahələrdə işləməyə olan böyük marağımızı nümayiş etdirir. Bəli, biz dəstəyimizə ehtiyacı olan Afrikadakı dostlarımızı hər zaman dəstəkləmişik. COVID pandemiyası zamanı biz 80-dən çox ölkəyə maddi və humanitar dəstək göstərmişik, həmin ölkələrin əksəriyyəti Afrika qitəsində olub. Biz müxtəlif vasitələrlə təhsil proqramlarını, tibbi proqramları dəstəkləmişik. Biz Afrikadan olan tələbələrə təqaüdlər veririk. Biz bunu dövlət vəsaiti hesabına, QHT-lər vasitəsilə, Azərbaycanın Xarici İşlər Nazirliyinin tərkibində olan beynəlxalq yardım üzrə agentliyi vasitəsilə edirik. Beləliklə, bütün bunlar həyata keçirilir. Bəli, biz daha fəal qarşılıqlı əlaqələrin olmasını istərdik. Düşünürəm ki, Afrika liderlərinin Azərbaycana builki səfərləri bu böyük qarşılıqlı marağı nümayiş etdirir.

Qoşulmama Hərəkatına gəlincə, biz dörd il ərzində bütün üzv ölkələrə çox yardım etdik. Biz Qoşulmama Hərəkatında yaxşı irs qoyduq. Çünki müəyyən mərhələdə bu hərəkat bir qədər zəifləməyə başlamışdı. Beləliklə, biz yeni dinamika gətirdik. Biz uğurla yaradılmış Parlament Platforması və Gənclər Platforması yaradılması təşəbbüsü ilə çıxış etdik. Beləliklə, bu, Azərbaycanın iki mühüm irsidir və biz Qoşulmama Hərəkatının institusional inkişafı və onun təşkilata potensial transformasiyası istiqamətində fəal işlədik. Bizim sədrliyimiz yekdilliklə dəstəkləndi. Biz 3 il müddətinə seçilmişdik, lakin sonra üzv dövlətlər sədrliyimizi daha bir il müddətinə uzatmağı qərara aldılar ki, bu da hərəkatın tarixində görünməmiş hadisədir. Beləliklə, yenidən yekdil qərarla Azərbaycanın sədrliyi uzadıldı. Bu onu göstərir ki, üzv dövlətlər arasında müəyyən ikitərəfli və ya çoxtərəfli anlaşılmazlıqların olmasına baxmayaraq, - hansı ki, başadüşüləndir – çünki 120 ölkə var, - Azərbaycana münasibətdə onların hamısı bizim rolumuzun qiymətləndirilməsində vahid mövqedən çıxış etmişdi. COP zamanı biz açıq şəkildə bəyan etdik ki, əsas hədəfimiz az inkişaf etmiş ölkələri, ekzistensial təhdidlə üzləşmiş ölkələri dəstəkləmək olacaq. Biz bunu etdik. COP-un nəticələrinə gəldikdə, - baxmayaraq ki, bilirəm məqsədi Azərbaycanın sədrliyini nüfuzdan salmaq olan bəzi qondarma ekspertlər deyirdilər ki, maliyyələşməyə nail olunmadı, - biz maliyyələşməni 100 milyard ABŞ dollarından qaldırdıq. Bütün COP-larda, COP28-də əldə olunan səviyyə 100 milyard idi. Ölkəmizdə keçirilmiş COP-da biz bunu 300-ə qaldırdıq. Beləliklə, bu, nailiyyət deyil? Əlbəttə ki, nailiyyətdir. Biz maliyyələşməni 3 dəfə artırdıq. Biz İnkişaf Etməkdə Olan Kiçik Ada Dövlətləri üçün xüsusi proqrama start verdik. Ekzistensial təhdidlərlə əlaqədar İnkişaf Etməkdə Olan Kiçik Ada Dövlətlərinə birbaşa dəstək məqsədilə Azərbaycan 10 milyon ABŞ dolları ayırdı, çünki iqlim dəyişikliyi hər kəs üçün problemdir, lakin onlar üçün söhbət onların həyatından gedir, söhbət onların gələcəyindən gedir. COP zamanı əldə olunmuş başqa mühüm bir nailiyyət karbon bazarının fəaliyyət göstərməsi ilə bağlı razılıq idi. Bu məsələ azı 10 il razılaşdırılmamışdı. Beləliklə, bizim sədrliyimiz sayəsində, bizə olan etimad sayəsində bu məsələ Azərbaycanda razılaşdırıldı. Həmçinin sözsüz ki, biz Qlobal Cənubla Qlobal Şimal arasında körpülərin qurulmasında mühüm rol oynadıq. Bu, bizim qarşımıza qoyduğumuz mühüm tapşırıqlardan biri idi. Bizim COVID-lə apardığımız mübarizə, COP-a ev sahibliyi etməyimiz, - yeri gəlmişkən, ilin sonuna qədər biz prezident olacağıq, - beləliklə, Afrika ölkələri ilə ikitərəfli təmaslar bizim gündəliyimizi aydın şəkildə nümayiş etdirir. Biz bir çox Afrika ölkəsində səylərimizə çox müsbət reaksiya müşahidə edirik. Bizim Afrika ölkələri ilə daha güclü əlaqələr qurulması istiqamətində xarici siyasətimiz artıq mənim tərəfimdən müəyyən edilib və təsdiqlənib. Faktiki olaraq, bu təşəbbüslə mən çıxış etdim. Bu mərhələdə biz daha fəal olmalıyıq.

İşğal və Ermənistanla münasibətlərimizlə bağlı artıq müzakirə etdiklərimizə gəldikdə, bütün işğal illəri ərzində bizim əsas xarici siyasət prioritetimiz ərazi bütövlüyünün bərpası olub. Bütün səylərimizin yekun hədəfi var idi - suverenliyin və ərazi bütövlüyünün bərpası. Ona görə də potensial xarici siyasət gündəliyimizdəki bir çox digər mühüm məsələlər arxa plana keçmişdi və bu, başadüşüləndir, çünki bu, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli ideyası idi. İndi bu məsələ həll olunduğuna görə, bizim dost hesab etdiyimiz, bəzi başqa qitələrdəki bəzi digər ölkələrdən fərqli olaraq Azərbaycana heç bir zərər verməmiş, dostluğu qiymətləndirən ölkələrlə daha güclü əlaqələrin qurulması üçün daha çox vaxtımız və daha çox imkanımız var. Biz sizin qeyd etdiyiniz həmin məsələlər, eləcə də digər məsələlər üzərində işləməyə hazırıq. Biz artıq mühüm məsələləri həll etmələri üçün Afrikadakı bəzi ölkələrə aşağıfaizli kreditlər vermək üzrəyik. Biz artıq Afrikada yaxın əlaqələrimizin olduğu bəzi ölkələr üçün investisiya portfelini hazırlayırıq. Beləliklə, bu, təkcə humanitar deyil, həm də biznes əlaqələri, investisiyalar və əlbəttə ki, siyasi münasibətlər olacaq.

**Hikmət Hacıyev:** Anton Deymoviç, Xorvatiya.

**Anton Deymoviç:** Sağ olun, cənab Prezident. Burada olmaqdan şərəf hissi duyuram. Mən Xorvatiyadanam.

İqtisadiyyat naziri cənab Cabbarovun Xorvatiyaya uğurlu səfəri oldu. Biz Azərbaycanı dəstəkləyən dost ölkəyik, çünki bizim də ərazimiz işğal altında olub. Biz sizi, xüsusən də indi, yəni uğurlu əməliyyatlardan sonra qəti şəkildə dəstəkləyirik ki, cəzasızlıq olmasın, Gəncə kimi şəhərə hücum etmiş hər bir hərbi cinayətkar mühakimə edilsin. Beləliklə, sualım mənim regionuma aiddir. Hazırda Albaniya qazlaşdırmaya milyardlarla sərmayənin yatırılmasını arzulayır. Çünki onlarda TAP boru kəməri var, lakin ölkə qazlaşdırılmayıb. Hazırda Xorvatiya öz qaz boru kəmərinin uzadılması məqsədilə Avropanın vəsaitlərini istifadə edir. Sizin fikrinizcə, Brüsselə Balkanlar üçün sərmayə planında həmin qazlaşdırma layihələrində iştirak etməyin vaxtının yetişməsi barədə danışmaq, Azərbaycanı, sadəcə, faydalı qazıntı və qaz platforması kimi deyil, o cümlədən tərəfdaş ölkə kimi qəbul etmək, onun yaşıl enerjisinə qapıları açmaq, regionla əməkdaşlıq etmək, eləcə də Azərbaycanın yenidənqurma və süni zəka layihələrində və digər işlərdə iştirak etmək fürsəti görünürmü? Sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun. Elə indicə artıq qeyd etdiyim kimi, beş gün əvvəl Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurasının 11-ci və Yaşıl Enerji Məşvərət Şurasının 3-cü iclaslarını keçirdik. Bunlar bir neçə il öncə Azərbaycan və Avropa Komissiyasının himayəsi ilə irəli sürdüyümüz bizim təşəbbüs idi.

(ardı 4-cü səhifədə)

# Azərbaycan qlobal problemlərin həllinə önəmli dəstək göstərir

(əvvəli 3-cü səhifədə)



Giriş nitqimdə ötən il Avropanın qaz bazarında nəyi etdiyimiz barədə məlumat verməklə yanaşı mən qeyd etdim ki, əgər Avropa maliyyə təsisatları və Avropa Komissiyası böyük həcmdə qazı almağı davam etmək və Azərbaycandan qaz təchizatını artırmaq istəyirlərsə, onda onlar iki mühüm məsələni həll etməlidirlər. Birincisi, təsisatların maliyyə siyasətidir. Bütün enerji layihələrimizdə, - istər neft, istər qaz olsun, - eləcə də hasilat və nəqlolunmada, korporativ maliyyələşmə ilə kreditə götürülən pul vəsaitləri arasında razılaşdırılmış nisbət var idi. Adətən 70 faiz kredit, 30 faiz isə korporativ pul vəsaitləri idi. Beləliklə, indi Avropa İttifaqı Azərbaycandan daha çox qaz istəyir və bu səbəbdən Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen 2022-ci ilin iyulunda Azərbaycana səfər etdi. O vaxt Avropa İttifaqı qaz təchizatından çox narahat idi və biz energetika sahəsində Strateji Tərəfdaşlıq haqqında Bəyannaməyə imza atdıq. Həmin vaxtdan etibarən, Avropa Komissiyasının müraciəti əsasında, biz Avropaya qaz təchizatını təxminən 60 faiz artırmışıq və bu, 2021-ci ildə 8 milyard kubmetrdən 2024-cü ildə 13 milyard kubmetrə çatdı. Beləliklə, bir çox Avropa ölkəsi, o cümlədən Xorvatiya Azərbaycan qazının alıcısına çevrildi. Hazırda mövcud yataqlardan ixrac üçün daha çox qazımız var və həmin yataqlarda işlənilmənin yeni fazasındayıq. Qaz hasil edilən yataqlar ilkin mərhələdədir. Əlavə bir neçə milyard kubmetr qazımız da olacaq, çünki biz yaşıl enerji stansiyalarını quracağıq və beləliklə, bu gün elektrik enerjisinin istehsalında istifadə etdiyimiz qaza qənaət edəcəyik. Bir sözlə, bütün bu addımlar qaz təchizatımızı minimum 10 milyard kubmetrə qədər artırmaq potensialımızı formalaşdırır.

Daha çox təfərrüatlara varmaq istəməzdim. Lakin minimum dedikdə, mən hər qiymətləndirməm zamanı daha çox mühafizəkar olmağa çalışıram. Yəni, bu, ən kiçik minimumu təşkil edir. Nəqletmə infrastrukturu olan Cənub Qaz Dəhlizinin buraxma qabiliyyəti tam dolub, əlavə yer yoxdur, o genişləndirilməlidir. Lakin yenə sual yaranır: necə? Kredit vəsaitləri və korporativ vəsaitlər hesabına. Burada biz belə bir nöqtəyə gəlib çıxırıq: Avropa İnvestisiya Bankı faydalı qazıntı layihələrinin maliyyələşdirilməsini tam dayandırıb. Bu, strategiyadır və hamımız bilirik ki, həmin Bank Avropa Komissiyasına tam inteqrasiya olunub. Özünün faydalı qazıntı səhifəsini rəsmən tam bağlamasa da, Avropa Yenidənqurma və İnkişaf Bankı həmin sahə üçün çox kiçik hissə saxlayır. Bu ilin yanvarında Davosda bu bankın prezidenti ilə söhbət zamanı mən həmin məsələni qaldırdım. Mən bir neçə gün əvvəl, Almaniya Prezidentinin səfəri zamanı da bu məsələni qaldırdım, çünki Avropanın aparıcı ölkəsi kimi Almaniya həmin siyasətə təsir etmək üçün bir çox vasitələrə malikdir. Aprelin 4-də Məşvərət Şurasında çıxışım zamanı bu məsələni açıq qeyd etdim. Sonra Avropanın enerji komissarı ilə də görüş zamanı bu məsələni qaldırdım. Bir sözlə, bu, bir nömrəli məsələdir. Faydalı qazıntıya tətbiq edilən embarqo aradan qaldırılmalıdır. Onların yubanmaması üçün bir baxsınlar ki, Prezident Tramp faydalı qazıntı ilə bağlı nə edir!

İkinci mühüm meyar uzunmüddətli müqavilələrdir. Avropa İttifaqı bir tərəfdən bəyan edir ki, 2050-ci ildə onlar karbon baxımından neytral olacaq, digər tərəfdən isə məndən sərmayə qoymağı və daha çox qaz hasil etməyi xahiş edir. Beləliklə, həmin qaz nə vaxt və haraya nəql olunacaq? Əgər qazı bizdən əldə etməsəniz, onda mən niyə sərmayə yatırmalıyam və ya nəyə görə sizin bazarınıza əsas bazar kimi baxmalıyam? Bəli, qanunvericilik, qaydalar, prosedurlar, qarşılıqlı bağlantılar və bütövlükdə, qiymət baxımından, Avropa İttifaqının bazarı premium hesab edilir. Lakin başqa bazarlara nəzər salsaq, qonşuluğumuzda Azərbaycan qazına tələbat var. Biz təkcə Qərbə deyil, həmçinin Şərqə və Cənuba baxa bilərik. Beləliklə, bu, Azərbaycanın qaz sənayesinin gələcək inkişafı, Avropanın enerji təhlükəsizliyi üçün vacibdir.

Avropanın enerji təhlükəsizliyi problemləri bizə məlumdur. Hazırda onların təhlükəsiz şəraitdə olmasına baxmayaraq, orada sənayenin tələbatları bizə bəllidir. Hətta yaşıl enerjiyə olan tələbatı da bilirik. Yaşıl enerjiyə böyük sərmayələrin yatırılmasına baxmayaraq, Avropa İttifaqında yenə də elektrik enerjisi çatışmır və bu məqsədlə hazırda Azərbaycandan Qara dənizin dibi ilə Rumıniyaya çəkiləcək yaşıl enerji kabeli üzərində işləyirik. Yeri gəlmişkən, dörd qiqavat yalnız başlanğıcdır. Beləliklə, Avropa Komissiyasında əyləşənlər gözlərindən eynəyi çıxarsınlar və dünyaya realist nöqteyi-nəzərdən baxsınlar, Azərbaycan kimi ölkələri dəyərləndirsinlər və Qafqazı sevdikləri ilə sevmədiklərinə bölməyə cəhd etməsinlər, yaxşı tərəfdaş kimi davransınlar. Biz buna hazırıq.

Xorvatiyaya gəldikdə, biz ötən il həmin ölkəyə qazı təchiz etməyə başladıq. Hazırda qaz təchizatımız 12 ölkəni əhatə edir, onlardan 10-u Avropa ölkəsidir, sonunculardan 8-i isə Avropa İttifaqının üzvüdür. Siz, həmçinin Albaniyanın qazlaşdırılmasını qeyd etdiniz. Sadəcə, sizi məlumatlandırmaq istərdim ki, Albaniyanın Korça şəhərində qazlaşdırma layihəsi Azərbaycan sərmayələri sayəsində həyata keçiriləcək. Beləliklə, o, artıq razılaşdırılıb. Alban hökuməti həmin şəhəri seçdi və düşünürəm ki, bu il biz qazlaşdırmağa sərmayə yatırmağa başlayacağıq. Bu sahədə təcrübəmiz var. Biz Gürcüstanın qazlaşdırılmasına artıq böyük sərmayələr yatırmışıq, düşünürəm ki, indi orada qazlaşdırmanın səviyyəsi təxminən 80 faiz təşkil edir. Biz öz vəsaitlərimizlə başladığımız zaman həmin səviyyə 30 faiz təşkil edirdi. Hazırda Bolqarıstanda qazlaşdırma layihəsini müzakirə edirik. Əslində, həmin ölkədə qazlaşdırma var, lakin məhduddur. Bu gün Bolqarıstan öz qaz istehlakının təxminən 50 faizini Azərbaycandan təmin edir və biz digər ölkələrdə də eyni addımı atmağa hazırıq. Yeri gəlmişkən, Xorvatiyaya gəldikdə, işimiz yalnız qazlaşdırmanın və ya qaz təchizatının müzakirəsi ilə məhdudlaşmır. Energetikaya aid digər məsələlər də var. Sağ olun. Bu suala görə minnətdaram, çünki mən həmin mühüm məsələni Avropadakı tərəfdaşlarımızın diqqətinə bir daha gətirə bildim.

**Hikmət Hacıyev:** Ömər Aşur, Qətər və Birləşmiş Krallıq.

**Ömər Aşur:** Çox sağ olun, cənab Prezidenti. Burada olmaqdan məmnunam və mənim üçün şərəfdir. Bizi qəbul etdiyinizə görə təşəkkür edirəm. Mən Sizi həm ərazilərin azad edilməsi, həm dünən gördüyümüz yenidənqurma işləri ilə bağlı bir daha təbrik edirəm. Mən Qətərdəki Doha İnstitutunu və eyni zamanda, Birləşmiş Krallığın Ekseter Universitetini təmsil edirəm. Sualım Ukrayna ilə bağlıdır. Rusiyanın Ukraynadakı müharibəsi ilə bağlı Azərbaycanın mövqeyi nədən ibarətdir? Hazırda müharibə vəziyyəti demək olar ki, 12 ildir davam edir. Müharibə həm qlobal, həm regional məsələlərə, o cümlədən Qafqaz, Avropa, Orta Şərq, hətta Hind və Sakit okean regionlarına təsir göstərir. Böyük hərbi və diplomatik nailiyyətləri əldə etmiş ölkənin Prezidenti kimi həmin müharibənin sonunu necə görürsünüz? Sağ olun.

**Prezident İlham Əliyev:** Birincisi, Rusiya ilə Ukrayna arasında müharibə ilə bağlı mövqeyimizə gəldikdə, biz hər zaman Ukraynanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləmişik, dəstəkləyirik və dəstəkləməkdə davam edəcəyik. İşğaldan və öz ərazi bütövlüyünün pozulmasından əziyyət çəkmiş ölkə kimi, biz, əlbəttə, həmin vəziyyəti tam anlayırıq. Bir sözlə, kimdən soruşsanız, deyəcək: “Biz istəyirik ki, müharibə dərhal dayansın”. Bəli, biz də istəyirik. Lakin əsas sual ondan ibarətdir ki, həmin atəşkəs, daha doğrusu, potensial atəşkəs və əgər belə demək olarsa, müvəqqəti atəşkəs dayanıqlı olacaqmı? İki açıq müharibədən keçmiş və onların arasında olan dövrü görmüş ölkə kimi deyə bilərəm ki, atəşkəs heç zaman müharibəni dayandırmır. Heç vaxt. Bizim məsələdə də bu, baş vermədi. Bu, ölkələrə, sadəcə, yenidən qruplaşmaq, səfərbər olunmaq və yenidən başlamaq üçün müvəqqəti fürsətdir. İkincisi, atəşkəs hansı mənada olacaq? O da vacibdir, çünki onun şərtləri müharibəni dayandırmaq arzusunda olanlar üçün çox vacibdir ki, onlar nə haqda danışıldığını aydın anlasınlar. Hamı deyir, mən istəyirəm müharibə dayansın. Bəli, gəlin bunu alqışlayaq. Bəs sonra necə? Dayandırmaq – hansı mənada? Yəni, topdan atəş, hava bombardmanı, snayper atəşi, təxribat qrupları olmayacaq? O, hansı mənada olacaq? Rusiya ilə Ukrayna qoşunları arasında təmas xətti bizimki ilə müqayisədə xeyli uzundur. Bəli, bu gün fərqli görünür. Bizə gəldikdə, təmas xətti Ermənistanın xeyli xeyrinə idi, çünki təbiətin relyefi onlara üstünlük verərək onları qoruyurdu və əslində, işğalı davam etdirməyə şərait yaradırdı. Üstəgəl, 26 illik atəşkəs dövründə, onlar bəzən beş, bəzən altı və hətta ondan çox səngər, tikanlı məftil və mina zolaqları kimi istehkam xətlərini yaratmışlar. Hər həftə mina partlayışına görə bizim itkilərimiz olur. Təxminən 400 şəxs minaya düşüb. Onlardan 70-dən çoxu həyatını itirib, qalanları ciddi bədən xəsarəti alıb. İnsanlar Ukraynada atəşkəs və ya sülh haqqında danışanda onlar qoşunlara nəzarət etməyin nə dərəcədə çətin olduğunu anlayırlarmı? Ukrayna və Rusiya ordularında nizam-intizam səviyyəsi nə yerdədir? Bilmirəm. Bəlkə də bilirəm, lakin şərh vermək istəmirəm. Azərbaycan Ordusunda nizam-intizam səviyyəsi yaxşı məlumdur. Biz Ali Baş Komandanın bircə əmri ilə Xankəndinin yaxınlığında dayandıq. Digər tərəfdən, həmin təmas xətti təhlükəsiz və etibarlı olacaqmı? Vasitəçi olmağı arzulayan dairələr həmin təmas xəttində beynəlxalq sülhməramlıları tələb edəcəklərmi? Onlar işğal illəri ərzində bunu bizdən tələb etdilər. Birləşmiş Ştatlar, Rusiya və Fransanın ümumi mesajlarından biri təmas xəttinə, belə demək olarsa, sülhməramlıların gətirilməsi idi. Bu, nə deməkdir? Bu o deməkdir ki, onlar bizdən işğal ilə barışmağı istəyirdilər.

Əgər işğal olunmuş yerlərdə sülhməramlı təmas xəttinə gəlirsə, bu o deməkdir ki, siz öz ərazinizlə vidalaşmalısınız və ən azı, mən bildiyimə görə, heç bir ölkə ərazi bütövlüyü ilə güzəştə getməyi və sülh müqabilində özünün beynəlxalq səviyyədə tanınmış ərazisini qurban verməyi Ukraynadan gözləməyi razılaşmayacaq. Düşünürəm ki, bu, ədalətli və realist görünmür, çünki “gəlin müharibəni dayandıraq” kimi yaxşı sözləri söyləmək işin bir hissəsidir. Onun digər hissəsi, daha dərinə baxmaq və yaxın vaxtlarda müharibədən çıxmış ölkələrdən soruşmaq ki, dayanıqlı sülhü qurmaq üçün hansı razılaşmalar lazımdır? 1994-cü ilin mayından Ermənistanla atəşkəs olduqdan sonra müharibə heç zaman dayanmamışdır. Müxtəlif toqquşmalar olmuşdur. Daha sonra, 2016-cı ilin aprelində biz ermənilərə göstərdik ki, onlar ərazilərimizdən çıxmalıdır və biz genişmiqyaslı hərbi əməliyyatlara girmək istəmədik. Bu səbəbdən, o, cəmi üç gün çəkdi. Lakin biz onlara göstərdik ki, ərazilərimizi azad edə bilərik və kiçik də olsa azad etdik. Lakin onlar bundan dərs çıxarmadılar. Sonra isə digər bir neçə hadisə oldu. 26 il ərzində snayper müharibəsi heç zaman dayanmadı və hətta indi Ermənistan tərəfindən sərhədimizdə çoxsaylı atəşləri görə bilərsiniz və bizimkilər atəş açanda, bu, yalnız cavab atəşi olur. Ermənistan ordusunda nizam-intizam çox aşağıdır. Onlar orduda heç zaman xidmət keçməmiş şəxsləri və ya 30 il əvvəl xidmət keçmiş şəxsləri çağırırdılar. Mülki şəxslərdən ibarət yaraqlı qruplarını, veteran qruplarını yaradırdılar. Adi orduda xidmət keçməmiş şəxsləri cəlb edirdilər, çünki Ermənistanda insan ehtiyatları çatışmırdı. Bir sözlə, bütün bu suallar, əlbəttə ki, böyük mövzuya aiddir və bu haqda biz saatlarla danışa bilərik. Lakin əsas məsələ yenə də həll olunmasa, bunun nəticəsi olmayacaq. Şəxsən mən realist olaraq, yaxın gələcəkdə Ukrayna ilə Rusiya arasında sülh üçün hər hansı perspektivi görmürəm. Rusiya işğal olunmuş əraziləri Rusiyanın bir hissəsi kimi bəyan edib. Onlar bundan necə geri çəkilə bilərlər? Ukrayna, o cümlədən bütün dünya həmin işğal olunmuş əraziləri Ukraynanın hissəsi hesab edir. Azərbaycan da onları Ukraynanın hissəsi hesab edir. Onda necə qurban verə bilər və deyə bilər ki, ərazilər Ukraynanın deyil? Əgər bu baş verərsə, onda belə çıxır ki, mən beynəlxalq siyasətdə nəyi isə başa düşmürəm. Əfsuslar olsun ki, müharibələr yekun kapitulyasiya aktı olanda bitir. Bizim Xorvatiyadan olan dostumuz qeyd etdiyi kimi, onlar öz ərazisini azad etdi, sərhədə çıxdı və dayandı. Biz də eyni addımı atdıq. Öz sərhədimizə çıxıb dayandıq. Real dünyada müharibə bu cür bitir.

**Hikmət Hacıyev:** Səfir Hulusi Kılıç, Türkiyə.

**Hulusi Kılıç:** Çox sağ olun cənab Hacıyev. Zati-aliləri, cənab Prezident, Sizin mühüm iştirakınızla bu konfransda olmaq böyük şərəfdir. Mən Zati-aliləri səfir Paşayevə və onun dəyərli komandasına bu cür mühüm konfransa məni dəvət etdiklərinə görə minnətdaram. ADA Universiteti hazırkı mövzuya həsr olunmuş mühüm beynəlxalq konfransı bu regionda təşkil edən yeganə təsisatdır. Cənab Prezident, fəxr edirəm ki, müharibədə tarixi Zəfəriniz və 23 saatlıq antiterror əməliyyatı ilə Siz nəsillər üçün tarix yazdınız. Onlar Sizi və Sizin irsinizi hər zaman xatırlayacaqlar. Siz nəinki Azərbaycanın ərazi bütövlüyünü, o cümlədən beynəlxalq ədaləti bərpa etdiniz. Sualımı verməzdən əvvəl istərdim Sizin iki ən yeni mühüm tarixi uğurunuzu hörmətli iştirakçıların diqqətinə çatdırım. Birincisi, Siz Qoşulmama Hərəkatında dörd il ərzində sədr kimi böyük nailiyyətlər əldə etdiniz. Siz həqiqətən sədrliyiniz dövründə bu Hərəkatı canlandırdınız. İlk iki il qlobal pandemiyaya təsadüf etdi. Biz Azərbaycanın bir çox Afrika ölkələrinə hədiyyə etdiyi peyvəndləri və qeyd etdiyiniz kimi, sədrliyiniz dövründə qadın və gənclərə diqqətin yönəldilməsini heç zaman yaddan çıxarmayacağıq. Hazırlıqların cəmi səkkiz ayından sonra Siz möcüzə etdiniz. COP29 əla səviyyədə təşkil olundu. Prezident Makron kimi bəzi Avropa rəhbərlərinin boykot çağırışlarına baxmayaraq, təxminən 80 min qonaq və 70 dövlət başçısı tədbirə qatıldı. Mən həmin uğuru müşahidə etməkdən çox fərəhləndim. Sizə ən səmimi təbriklərimi çatdırmaq istəyirəm. Zati-aliləri, biz çox yaxşı bilirik ki, Siz Türk Dövlətləri Təşkilatına çox böyük önəm verirsiniz və bu il Azərbaycan qarşıdan gələn Zirvə toplantısına ev sahibliyi edəcək. Növbəti ayda qeyri-formal Zirvə görüşü Budapeştdə keçiriləcək. Zati-aliləri, Türk Dövlətləri Təşkilatını necə dəyərləndirirsiniz? Çox sağ olun.

**Prezident İlham Əliyev:** Cənab səfir, ölkəmiz haqqında söylədiyiniz xoş sözlərə görə təşəkkür edirəm. Siz Azərbaycanın böyük dostusunuz. Sizin burada səfir kimi fəaliyyətiniz dövründə və sonra siz hər zaman ölkəmizə və xalqımıza qardaş yanaşmanı nümayiş etdirmisiniz. Mən fəaliyyətinizi izləyirəm və bizimlə olduğunuza görə çox məmnunam. Azərbaycan Türk dünyası ölkələri arasında əməkdaşlıq zamanı çox mühüm rol oynamış ölkədir. Biz ötən yay Şuşada ilk qeyri-formal Zirvə toplantısına başladıq, çünki həmkarlarıma dedim ki, ildə bir dəfə toplaşmaq kifayət deyil. Gəlin ildə iki sessiya keçirək. Beləliklə, həmin təşəbbüs dəstəkləndi və artıq ənənə mövcuddur. Ola bilsin, gələn ay görüş olsun. Tarixlər hələ müəyyən edilməyib. Lakin, çox güman ki, gələn ay ikinci qeyri-rəsmi Zirvə görüşümüz olacaq və sonra isə Azərbaycanda rəsmi Zirvə toplantısı keçiriləcək. Türk dünyasında ölkələr arasında münasibətlər bizim üçün çox vacibdir. Bizim üçün bu, xarici siyasətimizin əsas prioritetlərindən biridir. Bizi tarix, etnik köklər, dil oxşarlıqları, mədəniyyət və adət-ənənələr birləşdirir və biz təşkilatı daha güclü və nəticəyə yönələn təşkilat kimi görmək istəyirik. Bu məqsədlə Azərbaycan əlindən gələni edir. Düşünürəm ki, üzv dövlətlər arasında qarşılıqlı fəaliyyət baxımından çox yaxşı mühit var. Mən üzv dövlətlər arasında ikitərəfli qaydada bütün bunları yaxından izləyirəm və görürəm ki, həm ikitərəfli, həm çoxtərəfli qaydada heç bir narazılıq yoxdur. Eyni zamanda, düşünürəm ki, hamımızın səyləri bugünkü sürətlə dəyişən dünyada kifayət deyil. Forumumuzun mövzusu həqiqətən göstərir ki, biz yubanmalı deyilik və təşkilatımızı mühüm qlobal iştirakçıya çevirmək fürsətini əldən buraxmalı deyilik. Bunun üçün böyük potensial var. Geniş coğrafiya, insan ehtiyatları, təbii ehtiyatlar, nəqliyyat marşrutları mövcuddur.

Təşkilat etnik köklərə əsaslanır. Bir çox təşkilatları tanıyırıq. Onlarla müqayisə etmək istəmirəm. Lakin Türk Dövlətləri Təşkilatının unikallığı onun etnik mənşəyə, ümumi köklərə, ənənələrə, ümumi dəyərlərə əsaslanmasıdır. Biz həmin dəyərlərlə bölüşürük. Yenə də müqayisə etməmək çətindir. Üzrlü hesab edin, lakin bunu edəcəyəm. Əgər Avropa İttifaqına baxsanız, tamamilə fərqli dəyərləri olan ölkələri görəcəksiniz. Həmin ölkələrin xalqları bir-birindən tam şəkildə fərqlənir. Əgər Cənubu və Şimalı götürsək və bəzi ölkələrdə siyasi hadisələrə baxsaq görərik ki, onlar bir-birindən tam fərqlənir. Hazırda biz Avropa İttifaqında dəyərlər, mədəniyyət, ənənələr, miqrantlar, tariflər və sairə məsələlərdə xeyli narazılıqlar görürük. Belə bir hal Türk Dövlətləri Təşkilatında varmı? Yox. Bizdə yoxdur. Bu, bizi unikal edir. Bəs onda nə çatışmır? Bizim güclü beynəlxalq fəaliyyətimiz. Bu, kifayət deyil və biz daha çox çıxış etməli, daha fəal olmalı və qlobal məsələlərdə öz sözümüzü deməliyik. Bu halda yenə də coğrafiya, əhali nəzərə alınmalıdır. Hələ hərbi imkanları buraya əlavə etsək, hər şey aydın olar. Yaxşı məlumdur ki, Türkiyə Ordusu Avropada ən güclü ordudur. Azərbaycan da öz hərbi imkanlarını nümayiş etdirdi. Beləliklə, bunları əlavə etsək, biz həqiqətən qlobal səviyyədə beynəlxalq fəaliyyətin mərkəzinə çevrilə bilərik. Xüsusən də bəzi təşkilatları, daxili mübahisələri, inamsızlığı və qarşılıqlı etimadın çatışmamasını görəndə hər bir şey aydın olur. Mən Avropa İttifaqını xatırlatdım. Mən, həmçinin NATO-nu qeyd edə bilərəm. Hamımız bilirik ki, hazırda NATO-nun bəzi üzv ölkələri 5-ci maddə haqqında düşünür. Bunun nəzərə alınacağı ehtimalına gəldikdə, NATO daxilində müəyyən inamsızlıq var və bu, qlobal səviyyədə hələ ən güclü beynəlxalq təşkilatlardan biridir. Buna görə biz daha fəal olmalıyıq. Bəlkə uyğun söz deyil, lakin biz boşluğu doldurmalıyıq, ən azı Avrasiyanın nəhəng sahəsində qərarların qəbul edilməsi mərkəzinə çevrilməliyik.

**Hikmət Hacıyev:** Viktor Kipiani, Gürcüstan.

**Viktor Kipiani:** Cənab Prezident Əliyev. Bizə vaxt ayırdığınıza görə təşəkkür edirəm. Hər zaman olduğu kimi, bizim suallarımızı səmimi cavablandırdığınıza görə sağ olun. Mən bunu yüksək qiymətləndirir və buna hörmətlə yanaşıram. Bəzi suallar üst-üstə düşür və bu da anlaşılandır. Biz Cənubi Qafqaz regionuna toxunduq. Bu, bizim yaşadığımız geosiyasi və geoiqtisadi mühitdir. Ancaq istərdim ki, biz diqqəti regionumuza yönəldək, çünki region mövzusu getdikcə yeni məzmun kəsb etməyə başlayır. Bu təlatümlü təchizat zəncirlərinin yenidən formalaşması fonunda regionumuz geosiyasi baxımdan özünü necə təqdim edə bilər, necə daha da rəqabətli ola bilər? Gürcüstanı təmsil etdiyim üçün həm də ikitərəfli əlaqələrimizi necə gördüyünüzlə bağlı sual vermək istərdim. Bu əməkdaşlığın təməli iki böyük lider tərəfindən 1990-cı illərin əvvəlində qoyulub və bu, təbii baş verən bir proses olub. Regionun uzaqgörən lideri kimi Siz ikitərəfli münasibətlərimizin perspektivini necə görürsünüz? Əminəm ki, biz bir-birimizin uğurlu gələcəyinin qapısı rolunu oynayırıq.

**Prezident İlham Əliyev:** Gürcüstanla əlaqələr bizim üçün strateji əhəmiyyətə malikdir. Xalqlarımız tarixi bağlılığı, bizim birgə keçmişimizə, - hansı ki, o dövrdə qeyri-azad və qeyri-müstəqil idik, - və müstəqillik dövrünə nəzər salsaq görərik ki, Azərbaycan ilə Gürcüstan arasında qarşılıqlı anlaşma, dostluq və tərəfdaşlıq yüksək səviyyədə idi. Bunun sayəsində biz Cənubi Qafqaz regionunu strateji əhəmiyyətli bölgəyə çevirə bildik. Bunu, sadəcə, özümüz – Azərbaycan və Gürcüstan etdi. Xəzər dənizi və Qara dəniz arasında yerləşdiyimizdən biz müxtəlif region və qitələr ilə təmasda olmaq üçün bir növ keçid rolunu oynayırıq. Əminəm ki, perspektivlər cari vəziyyət qədər parlaq olacaqdır.

İki ölkə arasında sıx tərəfdaşlıq və dostluq münasibətlərinin bariz nümunəsi kimi Gürcüstanın Baş nazirinin ölkəmizə səfərini qeyd edə bilərəm. Bu, onun seçkilərdən sonra ilk xarici səfəri idi. Adətən seçkilərdən sonra ilk xarici səfərin rəmzi mənası var. Beləliklə, ilk səfər Azərbaycana edildi və tezliklə seçkilərdən sonra Gürcüstan Prezidenti də ilk xarici səfərini Azərbaycana edəcək. Beləliklə, bu iki fakt münasibətlərimizin, bizim qarşılıqlı sadiqliyimizin və dostluğumuzun aydın göstəricisidir. Bizi birləşdirən layihələrdən çox danışa bilərik. Onlar yaxşı məlumdur və bununla vaxtınızı almaq istəməzdim. Ancaq onlar yalnız bizim xalqlarımız və ölkələrimiz üçün deyil, daha geniş coğrafiya üçün vacibdir. Hazırda isə biz buraya yaşıl gündəliyi əlavə edirik. Biz artıq buna qısa şəkildə toxunduq. Bu, Azərbaycan və Gürcüstan üçün yaşıl dəhlizdir. Bu, nəqliyyat dəhlizidir, Orta Dəhlizdir – bunlar qaçılmazdır.

Səmimi desəm, mən xanım Ursula Fon der Lyayen tərəfindən Avropa Komissiyasının rəhbərliyi və Mərkəzi Asiya dövlətlərinin liderləri arasında Özbəkistanda keçirilən Zirvə görüşündə səsləndirilən şərhlərdən xəbər alanda təəccübləndim. O, orada özlərinin Avropanın “qlobal qapısı” adlandırdıqları Orta Dəhlizin irəlilədilməsi haqqında danışarkən Azərbaycan və Ermənistan, Ermənistan və Türkiyə arasında sərhədlərin açılmasına toxunub. Bu, təəccüb doğurur, çünki bu dəhliz mövcuddur və Ermənistan orada heç bir rol oynamır.

(ardı 5-ci səhifədə)

# Azərbaycan qlobal problemlərin həllinə önəmli dəstək göstərir

(əvvəli 4-cü səhifədə)

Biz Avropa bürokratlarının Ermənistanla bağlı hisslərini anlayırıq, ancaq siz xəritəni görməzdən gələ bilməzsiniz. Bu gün biz avropalılara Mərkəzi Asiya ilə əlaqə qurmağa kömək edən müxtəlif imkanları yaratmışıq. Gürcüstanın dəniz limanları, Bakı-Tbilisi-Qars dəmir yolu, Azərbaycanın Ələt Limanı – bütün bunlar nəqliyyat sahəsi üçün əhəmiyyətlidir. Bütün bunlar haqqında danışılmır, bu layihələrə nə qədər vəsait yatırdığımız gözardı edilir. Yalnız Türkiyə və Ermənistan, Ermənistan və Azərbaycan arasında sərhədlərin açılması haqqında danışılır. Bunun Avropaya nə aidiyyəti var? Bu, onların işi deyil. Türkiyə-Ermənistan, Ermənistan-Azərbaycan münasibətlərində Avropa İttifaqı bu işlərdən nə qədər uzaq dursa, bir o qədər yaxşıdır.

Gürcüstan haqqında isə bir kəlmə belə deyilmədi. Sanki Gürcüstan mövcud deyil. Bu, ədalətsizlikdir. Avropa Komissiyasının Gürcüstanın daxil işləri ilə bağlı proseslərə münasibəti isə qətiyyən qəbuledilməzdir. Bu, müstəmləkəçilərin davranışıdır. Onlar gürcü xalqının iradəsinə özlərinin müstəmləkəçi keçmişinin prizmasından yanaşırlar. Bu, tamamilə qəbuledilməzdir. Gürcü xalqı bilir ki, biz onlarla birlikdəyik və Gürcüstan hökuməti də bunu bilir. Gürcüstanın bütün daxili işləri Brüsseldəki bürokratlar deyil, gürcü xalqı tərəfindən həll edilməlidir. Beləliklə, biz Azərbaycan ilə Gürcüstan arasında tərəfdaşlığı gücləndirməliyik.

Əvvəlki suallar zamanı müzakirə etdiyimiz kimi, Cənubi Qafqazda imkanları nəzərdən keçirdikdə bizim əlaqələr qurmaq üçün vasitəçilərə ehtiyacımız yoxdur. Biz vasitəçilərdən təngə gəlmişik. 28 il ərzində vasitəçilərimiz var idi – həmin o məşhur Minsk qrupu. Onların yeganə məqsədi işğalı əbədiləşdirmək və Qarabağı Ermənistana verməkdən ibarət idi. Ona görə biz kiminsə vasitəçi olmaq istədiyini eşidəndə bir az narahat oluruq. Gəlin bunu özümüz edək, biz bu regionda yaşayırıq. Azərbaycan olaraq biz Avropa təsisatları ilə yaxşı əlaqələrə malik olmaq istəyirik, xüsusilə də Avropa Komissiyası ilə. Ancaq bizim maraqlarımızın qurban verilməsi hesabına yox. Onların davamlı olaraq bizim daxili işlərimizə qarışması, cəmiyyətimizin müxtəlif seqmentlərinin maliyyələşdirilməsi, gənclərimizin beyinlərinin yuyulması, regionumuzda yaşayan xalqların zəhərlənməsi – bütün bunlar bizə lazım deyil. Budur bizim görmək istədiyimiz Cənubi Qafqaz. Cənubi Qafqazın aparıcı dövlətləri olaraq Azərbaycan və Gürcüstan bu işdə məsuliyyəti öz üzərində götürərək əməkdaşlıq etməlidirlər. Əlbəttə, burada Ermənistan da var və o, ancaq Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı konstitusiyasına dəyişiklik edəcəyi təqdirdə bu prosesə qoşula bilər. Bu vaxt biz regionumuzda uzunmüddətli proqnozlaşdırılabilən vəziyyətdən bəhs edə bilərik.

**Hikmət Hacıyev:** Rik Fon, Böyük Britaniya.

**Rik Fon**: Cənab Prezident, bu gözəl imkana görə təşəkkürümü bildirirəm. Mən Böyük Britaniyanı təmsil edirəm. Fürsətdən istifadə edərək, ölkənizin Londondakı səfirliyinin fəaliyyətini təqdir etmək istərdim və mən onlarla həvəslə əməkdaşlıq edirəm. Cənab Prezident, İranla əlaqələrin perspektivlərinə dair danışmağınızı istərdim, xüsusilə də həyata keçirilən yüksəksəviyyəli səfərlər və İranda azərbaycanəsilli Prezidentin seçilməsi fonunda. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Biz Prezident Pezeşkianın bu ay ölkəmizə səfər edəcəyini gözləyirik. Bu, ikitərəfli əlaqələrimizin inkişafı və regional proseslər baxımından çox vacib səfər olacaqdır. Son aylar ərzində yüksəksəviyyəli nümayəndələrin qarşılıqlı səfərləri baş tutub. İrandakı seçki prosesi bizi ruhlandırdı. Biz seçilmiş Prezident tərəfindən verilmiş mesajları alqışladıq. Biz bütün qonşularla yaxşı münasibətlərə malik olmaq istəyirik, o cümlədən İranla.

Bizim olduqca geniş iqtisadi və nəqliyyat gündəliyimiz var. Biz Orta Dəhliz haqqında danışdıq, ancaq Azərbaycan, həmçinin digər mühüm dəhliz – Şimal-Cənub dəhlizinin tərkib hissəsidir. Bir daha qeyd edim ki, bağlantı layihələri həyata keçirilərkən Azərbaycandan yan keçməyin mümkünsüz olmasını anlamaq üçün, sadəcə, xəritəyə nəzər salmaq kifayətdir. Azərbaycan ərazisində avtomobil və dəmir yolu layihələrinin hamısı icra edilib. Sadəcə, yükdaşımaların həcminin artacağını nəzərə alaraq, biz hazırda dəmir yolumuzu müasirləşdiririk. Dəmir yolu xətləri mövcuddur, ancaq Cənubdan Şimala və əks istiqamətdə nəql ediləcək yükləri qəbul etmək üçün dəmir yolu genişləndirilməlidir.

Enerji infrastrukturu və elektrik xətləri ilə bağlı məsələlər həll olunub. Biz İrana elektrik enerjisi ixrac edirik. Həmçinin regionda çoxtərəfli əməkdaşlıq üzərində də çalışırıq. Əlbəttə, biz səfirliyimizə qarşı törədilmiş terror aktı kimi faciəvi hadisələri unuda bilmərik. Ancaq bu, Prezident Pezeşkianın seçilməsindən öncə baş vermişdir. Biz qəti şəkildə əminik ki, bu, Azərbaycana qarşı




təşkil edilmiş terror idi. Bu hadisənin şəxsi zəmində baş verməsi kimi iddialar tamamilə əsassızdır. 40 dəqiqə ərzində həmin terrorçu səfirliyin binasına daxil olmağa çalışmış, nəticədə buna nail olmuşdur və ona silahsız təhlükəsizlik zabiti müqavimət göstərmişdir. Bu vaxta qədər o, artıq bir nəfəri qətlə yetirməyi, digər iki nəfəri isə ağır yaralamağı bacarmışdır. Həmin 40 dəqiqə ərzində şəhərin mərkəzində polis olmayıb. Təsəvvür edirsinizmi? Bunu təsəvvür etmək çətindir. Terrorçu isə “Kalaşnikov” avtomatı, çəkic və “Molotov kokteyli” ilə silahlanmışdı. Bizim küçədə və daxildə olan təhlükəsizlik kameraları bunun hamısını qeydə alıb. Səfirliyimizi qorumalı olan polis nəfəri isə hadisə yerindən qaçıb. Bəlkə bunu qorxusundan edib, ancaq o, qonşuluqda yerləşən polis bölməsinə niyə xəbər verməyib ki, səfirlik terror hücumuna məruz qalıb? Mən İrandan olan qonaqlara sual verdim – mənim yerimdə olsanız, nə düşünərsiniz? Bu, təəssüfdoğuran hal oldu və bildiyiniz kimi, biz səfirlik heyətimizi tam şəkildə təxliyə etdik. Hadisədən bir ildən artıq vaxt keçmişdi və daha sonra İranın mərhum xarici işlər naziri mənə söz verdi ki, cinayətkar mühakimə ediləcək və ən ağır cəza alacaqdır. O vaxtdan iki ildən artıq vaxt keçməsinə baxmayaraq, bu, baş verməyib. Törətdiyi terror aktından dərhal sonra terrorçu televiziyaya çıxaraq mediaya müsahibələr verdi. Siz belə halın şahidi olmusunuz? Başqa dövlətin səfirliyində qətl törədən insan dərhal müsahibə verir. Elə həmin gün bu şəxs ruhi xəstə elan edilir. Ancaq tibbi ekspertiza ilə prosedur hər kəsə bəllidir. Bu, vaxt tələb edir, çünki bəzi hallarda cinayətkarlar özlərini ruhi xəstə kimi təqdim edirlər. Yəni, insanın ruhi xəstə olub-olmadığını müəyyən etmək üçün vaxt lazımdır. Bunun üçün tibbi komissiya tələb olunur. Beləliklə, bu şəxs, sadəcə, ruhi xəstə elan edildi. Artıq iki il keçib, ancaq məhkəmənin qərarı icra edilməyib. Biz bilirik ki, İranda daha yüngül cinayətlərlə bağlı qərarlar bir neçə aya icra olunur. Bu işdə isə iki ildən artıq vaxt ötüb. Bizi bunu unuda bilərikmi? Əlbəttə ki yox. Bu, bizim münasibətlərə kölgə salır. Biz ümid edirik ki, İranın yeni hökuməti əvvəlki hökumətin vədlərini yerinə yetirəcək. Təkcə bu terror hadisəsini törədən şəxs deyil, onun arxasında dayananlar, onu Azərbaycan səfirliyinə göndərənlər də məsuliyyətə cəlb olunacaq. Bununla yanaşı, yeni administrasiya ilə bizim işgüzar əlaqələrimiz var, onlardan gözləntimiz bu məsələni həll etməkdir. Biz orada siyasi sistemin mürəkkəbliyini, icra hakimiyyətinin məhdud imkanlarını anlayırıq. Biz bunları bilirik, ancaq iki ölkə arasında əlaqələrin tam normallaşdırılması üçün bu terror hadisəsini törədən, onu təşkil edən və bu hadisənin arxasında dayanan hər kəs mühakimə edilməli və cəzalandırılmalıdır.

**Hikmət Hacıyev:** Talha Şabit, Pakistan.

**Talha Şabit**: Mən ilk dəfədir ki, Azərbaycana səfər edirəm. Dünən də Qarabağda olmaq çox xoş oldu. Bu imkanın yaradılmasına görə təşəkkür edirəm. Mənim sualım Çinin Qlobal Cənubdakı rolu ilə bağlıdır. Bildiyimiz kimi, Çinin “Bir kəmər, bir yol” layihəsi qarşılıqlı inkişafı təşviq edir. İnkişaf etməkdə olan dünyada uzunmüddətli dayanıqlılıqla bağlı çağırışlara baxmayaraq, Çinin Afrika, Latın Amerikası və Asiyada diplomatik, iqtisadi və siyasi təsiri artmaqdadır. Çin, həmçinin Qərbin çətiri altında olan Dünya Bankı və Beynəlxalq Valyuta Fondu kimi təsisatlara alternativ təklif edir. Çin Qlobal Cənub çərçivəsində Qərbin hökmranlığında olan dünya nizamını necə dəyişə bilər?

**Prezident İlham Əliyev:** Sualınızın maliyyə hissəsinə gəldikdə deyə bilərəm ki, Azərbaycan uzun illərdir beynəlxalq maliyyə təsisatlarından asılılığını, demək olar, sıfra endirmişdir. Mənim ilk prezidentliyim dövründə biz Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığı dayandırdıq. Digər maliyyə təsisatlarına gəldikdə, biz ya portfelimizi bağlamışıq və ya buna çox yaxınıq. Bizim birbaşa xarici borcumuz, sadəcə, 5 milyard dollardır, bu isə ümumi daxili məhsulun 7 faizindən azdır. Bu, bizim maliyyə vəsaitlərinə ehtiyac duymadığımızı göstərir. Əksinə, maliyyə təsisatları müraciətlər edirlər ki, bizə kreditlər ayırsınlar. Biz hazırda bu istiqamətdə işləyirik, çünki portfelimizi tam sıfra endirmək istəmirik. Bizim əsas tərəfdaşlarımız sırasında Çinin təşəbbüsü ilə təsis edilmiş Asiya İnfrastruktur İnvestisiya Bankı yer alır. Yəni, bu baxımdan burada əlavə edə biləcəyim bir şərh yoxdur, çünki bu mövzu mənim gündəliyimdə deyil. Bu, artıq həll olunmuş məsələdir.

Siyasət və nəqliyyat baxımından deyə bilərəm ki, biz çoxsaylı müsbət hadisələrin şahidi oluruq. Bunlar arasında mən Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlıq haqqında Bəyannaməni qeyd etmək istərdim. Həmin Bəyannamə mənim Sədr Si Cinpinlə görüşümün nəticəsində qəbul olunub. Bu isə ikitərəfli münasibətlərimiz üçün çox əhəmiyyətli nailiyyət oldu. Çünki Çin kimi nəhəng ölkə ilə strateji tərəfdaşlıq formatına nail olmaq bizim üçün olduqca vacibdir. Biz hazırda Çin şirkətləri ilə fəal çalışırıq. Biz onları müxtəlif sahələrdə strateji tərəfdaşımız olmağa dəvət etmişik, o cümlədən yaşıl enerji sahəsində. Deyə bilərəm ki, yaşıl ictimai nəqliyyat vasitələri istehsal edən Çin şirkəti tərəfimizdən seçilib və bu il artıq istehsal edilmiş ilk avtobuslar istifadəyə veriləcək. Bununla yanaşı, Çin şirkətləri Günəş panelləri istehsalçılarıdır və bu panellər Azərbaycanda başqa ölkələrin sərmayəsi ilə inşa edilən stansiyalarda istifadə olunur. Biz, həmçinin Çin şirkətləri ilə yaşıl enerji sahəsinə birbaşa sərmayə yatırılması istiqamətində də danışıqlar aparırıq.

Müdafiə sahəsində də əməkdaşlıqla bağlı dialoqa başlayırıq. Hesab edirik ki, bu, uğurlu proses ola bilər. Çünki artıq qeyd etdiyim kimi, Azərbaycan Silahlı Qüvvələrini müasirləşdirməyə davam edir. Bizim üçün də təchizatın coğrafiyasını genişləndirmək və birgə istehsal müəssisələri yaratmaq maraqlı olar. Orta Dəhlizə - Sədr Si Cinpinin “Bir kəmər, bir yol” təşəbbüsünə gəldikdə, nədənsə onu Avropada “qlobal qapı” adlandırmağa çalışırlar. Səmimi desəm, mən bilmirəm bunun mənası nədir. Ancaq “Bir kəmər, bir yol” layihəsinə gəldikdə, biz bunu ilk gündən dəstəkləmişik. Biz bunu təkcə ictimai bəyanatlarla deyil, həm də sərmayə yatırmaqla etdik. Biz Xəzər dənizinin ən böyük limanını inşa etdik. Bu gün bizim gəmiqayırma zavodumuzda altı gəmi inşa olunur. Bu zavodun sifariş siyahısı doludur. Biz dəmir yollarımızı müasirləşdirdik, hətta Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstandan keçən hissəsinə əlavə investisiya yatırdıq. Hazırda onun yükötürmə qabiliyyəti 5 milyon tondur. Zənnimizcə, Çindən gələn yüklərin bir hissəsi Zəngəzurdan, Zəngilan istiqamətindən keçə bilər.

Yeri gəlmişkən, əvvəlki suala cavab olaraq deyə bilərəm ki, biz İran tərəfi ilə bu ölkənin ərazisindən keçərək Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək və Ermənistandan yan keçən marşrut üzərində çalışırıq. Avtomobil yolu hissəsi artıq hazırdır. İndi orada körpü inşa edilir. İran tərəfi ilə dəmir yolu hissəsinə dair danışıqlar gedir. Azərbaycan və İran öz aralarında razılığa gəlməlidirlər, çünki Ermənistan bu hissədə bizə maneə törədir. Biz oturub gözləyə bilmərik. Biz Ermənistandan yan keçəcək marşrutu inşa etməyə dair razılığa gəldik. Onlar isə regionda dalan olmaqda davam etsinlər. Beləliklə, praktiki baxımdan bizim ikitərəfli gündəliyimizin vacib amili olacaqdır. Azərbaycan Qlobal Cənubun fəal ölkəsidir və Çin burada çox vacib rol oynayır. Çin bizim 4 il sədrlik etdiyimiz Qoşulmama Hərəkatının üzvüdür. Beləliklə, bu, çoxşaxəli münasibətdir, olduqca güclüdür və böyük gələcək potensialı var.

**Hikmət Hacıyev:** Cənab Prezident, biz demək olar ki, iki saatdır müzakirə aparırıq və Sizin gərgin qrafikiniz var. Bununla yanaşı, kifayət qədər suallarımız var. İcazənizlə, mən sualları bir araya toplayardım.

**Prezident İlham Əliyev:** Auditoriya yorulmayıbsa, davam edə bilərik.

**Hikmət Hacıyev:** O zaman növbəti sual Jorge Hukladandır, İspaniya.

**Jorge Hukla:** Çox təşəkkür edirəm. Cənab Prezident, qısa bir şərhim və bir sualım var. Mən beynəlxalq münasibətlər üzrə professoram, ancaq əvvəlki dövrdə İspaniya parlamentinin üzvü və ölkəmin AŞPA-dakı nümayəndəsi olmuşam. Mən Qarabağ probleminin beynəlxalq hüququn əsasında həll edilməsinə illər sərf etmişəm, belə bir qənaətə gəlmişəm ki, bu işdə beynəlxalq hüquq və beynəlxalq təşkilatlar tam uğursuzluğa düçar olublar. Sizi beynəlxalq təşkilatların müdaxiləsi olmadan əldə edilmiş ikitərəfli kompromis münasibətilə təbrik edirəm.

Sualım isə belədir: Cənab Prezident, yeni dünya nizamı başlanğıc mərhələsindədir, ancaq müəyyən siyasi modellər beynəlxalq münasibətlərdə hələ də faydalı alətlər kimi qalmaqdadır. Onlardan biri 2014-cü ildən bəri paylaşdığınız Qoşulmama Hərəkatı prinsiplərinə uyğun strateji düşüncədir. Qoşulmama Hərəkatına sədrlik təcrübənizi nəzərə alaraq, orta güc kimi Azərbaycanın yeni dünya nizamında rolu nədən ibarətdir? Çox sağ olun.

**Prezident İlham Əliyev:** Bəli, biz sədrliyimizə böyük məsuliyyətlə yanaşdıq. Biz Qoşulmama Hərəkatının nisbətən yeni üzvü idik və sədr seçildiyimiz zaman 10 il idi ki, üzv dövlət idik. Bu o deməkdir ki, bizim bu təsisata qoşulmağımızla bağlı strateji qərarımız düzgün və zamanında atılmış addım idi. Bu illər ərzində biz bu təşkilatı transformasiya etmək üçün gərgin fəaliyyət göstərdik. Biz anlayırıq ki, bu, uzun prosesdir. Ancaq biz müəyyən institusional platformaların yaradılmasına nail olduq. Biz bu haqda artıq danışdıq. Bu, həmçinin bizim üçün özümüzü təqdim etmək fürsəti idi. Təəssüflər olsun ki, bir tərəfdən COVID-19 pandemiyası baş verdi, digər tərəfdən bu, bizim üçün təkcə danışmaq deyil, əməli surətdə iş görmək imkanı yaratdı. Biz olduqca məsuliyyətli davrandıq və əziyyət çəkən ölkələrə yardım etdik. Biz 10 milyon dollar həcmində birbaşa, 10 milyon dollar məbləğində isə Ümumdünya Səhiyyə Təşkilatı çərçivəsində yardımlar göstərdik. Yeri gəlmişkən, COVID-19 dövründə istifadə olunan məlumat bazasını biz yaratdıq və o, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən istifadə edildi. Bu, şaxələnmiş yardım və həmrəylik prosesi idi. Azərbaycanın sədrliyindən qalmış növbəti miras “Troyka” formatının təsis edilməsi idi. Bu təşəbbüs dəstəkləndi və o, sinerjinin təmin edilməsinə yönəlmişdi. Biz bu gün sədr ölkə deyilik, ancaq “Troyka” çərçivəsində təmsil olunuruq. Yəni, təşkilatın işinin irəlilədilməsi üçün bizim müəyyən alətlərimiz var və biz bu istiqamətdə işləri davam etdirəcəyik.

Siz Avropa Şurasının və beynəlxalq təşkilatların Ermənistan ilə münaqişəni həll etmək qabiliyyətini vurğuladınız. Bizim bu təşkilata qoşulduğumuz dövr mənim xatirimdədir. O zaman mən parlamentin üzvü idim. Bizim Avropa Şurası ilə bağlı böyük gözləntilərimiz var idi, hesab edirdik ki, o, bizə bu məsələni beynəlxalq gündəliyə daxil etməyə yardım göstərəcək, biz bu Avropa strukturunun dəstəyini əldə edəcəyik. Çünki burada kimin qurban, kimin isə təcavüzkar olduğu aydın idi.

Lakin təəssüflər olsun ki, bu, baş vermədi. Biz 2001-ci ildə Avropa Şurasına üzv seçildik və mən oradakı Azərbaycan nümayəndə heyətinin ilk rəhbəri idim. Təəssüflər olsun ki, biz orada ədalətli mövqeyimizin dəstəklənmədiyini gördük. Həmçinin orada çoxsaylı ermənipərəst lobbiçiləri gördük. Xatırlayıram ki, biz öz aramızda onları Azərbaycana nifrət edənlər adlandırırdıq. Bu gün də onların sayı kifayət qədərdir.

Beləliklə, bizim gözləntilərimiz özünü doğrultmadı. Biz heç Parlament Assambleyasını bu işlə ciddi məşğul olmağa cəlb edə bilmədik. Bizim yeganə nailiyyətimiz 2005-ci ildə qətnamənin qəbul edilməsi oldu. Orada münaqişə və işğal məsələsi öz əksini tapmışdı. Beləliklə, burada iki fakt var idi. Birincisi, Parlament Assambleyası əsasən anti-Azərbaycan mövqeyində idi, ikincisi isə ATƏT-in Minsk qrupu istənilən təşkilatın bu məsələ ilə məşğul olmasına əngəl törədirdi.

Mənə məlumdur ki, hətta ATƏT-in Minsk qrupu Strasburqa səfər edərək ABŞ, Rusiya və Fransanın vahid mövqeyini orada ortaya qoymuşdu: “Bu prosesə qarışmayın, bu, bizim inhisarımızdadır. Müdaxilə etməyin”. Məsələ məhz bundan ibarət idi. Yəni, bu platformadan istifadə edərək bu məsələyə diqqətin yönəldilməsi ilə bağlı gözləntilərimiz özünü doğrultmadı. Bundan əlavə, AŞPA özünün ərazi bütövlüyünü bərpa etdiyinə görə Azərbaycanı cəzalandırmaq qərarına gəldi. 2023-cü ilin sentyabrında Qarabağdakı separatçıların kökü kəsildi. Məhz bu səbəbdən onlar 2024-cü ilin yanvarında bizim nümayəndə heyətimizi səsvermə hüququndan məhrum etdilər. Onlar bunu insan hüquqları məsələsi çərçivəsinə daxil etməyə çalışdılar, ancaq bu, qətiyyən belə deyil.

Qeyd etdiyim kimi, biz 2001-ci ildən bu təsisatın üzvü idik və bu vaxtadək Azərbaycan nümayəndə heyətinin mandatı şübhə altına alınmırdı. Məhz suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etdikdən bir neçə ay sonra onlar bizi səsvermə hüququndan məhrum etdilər. Yaranmış şəraitdə bizim orada fəaliyyətimizi dayandırmaq qərarını verdik. Həmin vaxtdan etibarən biz onların iclaslarında iştirak etmirik.

Yeri gəlmişkən, Azərbaycan Avropa İnsan Haqları Məhkəməsinin hakimlərinin seçilməsində iştirak etmədiyindən, biz bu məhkəmənin qərarlarını tanımırıq. Bu, bizim mövqeyimizdir və fürsətdən istifadə edərək bəyan edirəm ki, Avropa Məhkəməsinin heç bir qərarının bizim üçün hüquqi qüvvəsi yoxdur. Çünki biz səsvermə hüququmuzdan məhrum edilmişik. Biz bu hakimlərə səs verməmişik. Biz onların kim olduğunu bilmirik. Zənnimcə, Avropa Şurası “üzərində oturduğu budağı” kəsdi. Onlar Azərbaycana qarşı ayrı-seçkilik etdilər, bizi təcrid etməyə cəhd göstərdilər, lakin bununla özlərini Qafqazdan məhrum etdilər. Gürcülər də eyni addımı atdılar. Mən Gürcüstanın orada təmsil olunmasının dayandırılması ilə bağlı hökumətin qərarını tam dəstəkləyirəm. Çünki bu, növbəti ayrı-seçkilik halı idi.

Avropa Parlamentində yer almayan, nəticə etibarilə Avropa Şurasında qərarlaşan bəzi avropalı siyasətçilərin müstəmləkəçilik düşüncəsi təəssüflər olsun ki, əks nəticə verir. Mən həmin vaxt sual verdim - Azərbaycanda kimsə bizim bu təşkilatda təmsil edilməməyimizə fikir verdimi? Bizim üçün həyat davam edir.

Yeri gəlmişkən, COP29 çərçivəsində Avropa Şurasının Baş katibi Azərbaycana səfər etdi və burada məndən bu təşkilatdan tam çıxmamağı xahiş etdi. Dedim ki, xahiş edirsinizsə, tam çıxmarıq. Lakin bizim orada olub-olmamağımız heç nəyi dəyişmir.

Biz bu təşkilata qoşulandan bəri dünya dəyişib və Avropa da kəskin şəkildə dəyişib. Bizim Avropa İttifaqı ilə bağlı gözləntilərimiz ciddi şəkildə dəyişib və müzakirələrinizin mövzusu da dəyişib.

Prezident Trampın hakimiyyətə gəlməsi ilə bu dəyişiklik tamamlandı. Bu gün heç nə baş verməmiş kimi davranmaq, habelə Avropa Şurasında və ya Avropa Parlamentində qəbul edilmiş hər hansı bir qətnamənin nəyisə dəyişəcəyinə inanmaq sadəlövhlük olar. Bizim bu təşkilatlara münasibətimiz bu qeyri-adekvatlığa tamamilə uyğundur. Bir ölkə olaraq Azərbaycan özünü bu regionda rahat hiss edir.

Biz artıq bu məsələni müzakirə etdik, istər Cənubi Qafqaz olsun, istərsə də Mərkəzi Asiya və ya Yaxın Şərq. Biz özümüzü rahat hiss edirik, özümüzü təmin edən iqtisadiyyatımız var. Sabit siyasi sistemimiz və vahid milli ideya ətrafında səfərbər olmuş cəmiyyətimiz mövcuddur. İkinci Qarabağ müharibəsindəki Qələbə bu birliyi daha da gücləndirib. Brüsseldə və Strasburqdakı bürokratlar sanki özlərinin başqa planetində yaşayırlar və hesab edirlər ki, hər kəs onlara daha yaxın olmaq istəyir.

Həmin dövr çoxdan keçmişdə qalıb. Bəli, biz tərəfdaşlığa və dostluğa açığıq. Ancaq o halda ki, bizim daxili işlərimizə müdaxilə edilmir və bizə yad olan dəyərlər bizə aşılanmır. Bu, bizim mövqeyimizdir.

Bir daha sizə təşəkkür edirəm ki, bu məsələyə toxundunuz. Siz mənə imkan yaratdınız ki, bu məsələlərə öz yanaşmamızı açıqlayım və dünyaya olan baxışımızı təqdim edim.

(ardı 6-cı səhifədə)

# Azərbaycan qlobal problemlərin həllinə önəmli dəstək göstərir



(əvvəli 5-ci səhifədə)

**Hikmət Hacıyev:** Anatoli Boyaşov, Belarus.

**Anatoli Boyaşov:** Çox sağ olun, cənab Prezident, burada olmaqdan şərəf və məmnunluq duyuram. Mən 2019-cu ildə Prezident Lukaşenko tərəfindən yaradılmış Belarus Strateji Araşdırmalar İnstitutunu təmsil edirəm. Bizim əsas funksiyamız Prezidentimizi analitik informasiya ilə təmin etməkdir. İkitərəfli əməkdaşlığımızın genişlənməsini nəzərə alaraq yalnız bir sual seçmək çox çətindir, lakin buna baxmayaraq, sualımı verim. Müşahidələrimiz göstərir ki, son dövrlərdə seçkiyə müdaxilə texnologiyaları çox təkmilləşib. Buna baxmayaraq, Azərbaycanda prezident seçkiləri ən yüksək sabitlik və siyasi dayanıqlılıq şəraitində keçirildi. Mənim sualım belədir: Azərbaycanda seçki suverenliyinin düsturu nədir? Həmçinin Siz seçkilərə müdaxilə texnologiyalarında dəyişiklikləri müşahidə edirsinizmi? Təşəkkürlər.

**Prezident İlham Əliyev:** Əslində, əvvəlki illərdə seçkilərimizə müdaxilə, necə deyərlər, texnoloji proseslə edilmirdi. Amma müxtəlif çox sadə alətlər vasitəsilə edilirdi.

Birincisi, Qərbin qeyri-hökumət təşkilatlarının Azərbaycana göndərdiyi pullar idi. İkincisi, Qərb mediasında anti-Azərbaycan təbliğatı, Prezident Trampın saxta xəbərlər mənbəyi adlandırdığı "Vaşinqton Post", "New York Times" kimi nəşrləri, təbii ki, Fransanın hökumətyönlü "Figaro" və "Le Monde" kimi saxta mediaları elə bir ab-hava yaratmaq istəyirdilər ki, guya Azərbaycanda diktaturadır, demokratik təcrübə yoxdur, insan haqları vəhşicəsinə pozulur, müxalifət mələkdir, hakimiyyət isə şeytandır. Beləliklə, çox sadə idi. Bir az sadəlövh olduğumuz vaxtlarda hətta ağlımıza gətirə bilməzdik ki, üzümüzə gülənlər bizə arxadan zərbə vurmaq istəyirlər. Həmin vaxtda biz faktiki olaraq bu maliyyə vəsaitlərinin axınına tam nəzarət etmirdik. Bu səbəbdən, Milli Demokratiya İnstitutu kimi bədnam qurumların, əslində, burada hökuməti devirmək planı hazırlamasının səbəbi də bu idi. Bunu aşkar etdik. Beləliklə, biz bank hesabından bir milyon ABŞ dollarından çox vəsait nağdlaşdırıldığını aşkar etdik. Sonra biz o pulun bir hissəsini müxalifətyönlü fəalların kirayələdikləri mənzillərində "Molotov kokteylləri"ni və hökumət binalarına, polislərə necə hücum etmək təlimatlarını tapdıq. Beləliklə, bütün bunları yaşamışıq. 2005-ci ildə buradakı narıncı inqilab cəhdləri ABŞ Dövlət Departamenti tərəfindən təşkil olunmuşdu. Bunu hamımız xatırlayırıq, heç vaxt unutmuruq. Beləliklə, bu da çox sadə idi. İndi bunu etmək daha çətindir. Çünki birincisi, biz maliyyə sisteminə tam nəzarət edirik. İkincisi, yerli QHT-lərə, əslində, müxalifətin qollarına verilən bütün qrant adlanan vəsaitlər indi qeydiyyatdan keçməlidir. Burada pul qaçaqmalçılığı çox çətindir. Amma təəssüf ki, bəzi Qərb təşkilatları hələ çox "yaradıcıdırlar". Beləliklə, onlar müxtəlif kuryerlər vasitəsilə buraya pul daşımağın yeni yollarını tapıblar. Onlar bu pulu, əsasən, Gürcüstan vasitəsilə gətirirdilər. Gürcüstan deyəndə, pulun Gürcüstan tərəfindən ayrıldığını söyləmək istəmirəm. Bu, Gürcüstanda hələ də fəaliyyət göstərən Qərb qeyri-hökumət təşkilatlarındandır - xaricilərin nəzarətində olan Gürcüstan bankları vasitəsilə. Adsız kredit kartları və nağd pullar vəziyyətin sabitliyini pozmaq üçün buraya gətirilir. Amma bunun izinə düşəndə, hüquq-mühafizə orqanlarımız həmin pul qaçaqmalçılarını məsuliyyətə cəlb edəndə bizi ittiham etməyə başlayırlar ki, guya biz bəzi qeyri-demokratik işlər görürük. Azərbaycanda vəziyyət belə idi. Ümidvaram ki, bu bitəcək, çünki tamamilə faydasızdır, mənası yoxdur. Kimin kim olduğunu hamı bilir. Amma buna baxmayaraq, bizdə zəmanət yoxdur ki, onlar bir gün yenə də bir kukla gətirib prezident kürsüsünə otuzdurmaq, sonra da yenidən Azərbaycanı istədikləri kimi idarə etmək fikrinə düşməyəcəklər.

Prezident Trampın başladığı iş çox ümidvericidir, lakin hesab edirəm ki, o, dayanmamalıdır. USAID, əlbəttə ki, bir nəhəngdir, tamamilə korrupsiyaya uğramış bir qurumdur. Bu haqda danışmışam. Xoş xəbərdir ki, "Azadlıq Radiosu", "Azad Avropa" və "Amerikanın Səsi" artıq fəaliyyətini dayandırıb. Amma bu, kifayət deyil, daha dərinə getmək lazımdır. "Human Rights Watch", "Freedom House", "Amnesty İnternational", "Transparency" - onun siyasi düşmənlərinin bütün bu infrastrukturu tamamilə fəaliyyətsiz vəziyyətə gətirilməlidir. Biz bütün o qarayaxma kampaniyaları ilə, əlaqələndirilmiş hücumlarla üzləşmiş bir ölkə olaraq onların necə işlədiklərini, necə fəaliyyət göstərdiklərini çox yaxşı bilirik. Biz o insanları tanıyırıq, səfirliklərdə qeyri-qanuni fəaliyyətlə məşğul olan insanları tanıyırıq və biz ABŞ Prokurorluğuna, hüquq-mühafizə orqanlarına cənab Trampın sələflərinin qeyri-qanuni dağıdıcı fəaliyyəti haqqında bütün məlumatları təqdim etməyə hazırıq. Bu barədə sualınıza cavab verdiyimi düşünürəm. Beləliklə, bizimlə olduğunuz üçün təşəkkür edirik.

**Hikmət Hacıyev:** Əhməd Taher, Misir.

**Əhməd Taher:** Təşəkkürlər, Zati-aliləri cənab Prezident. İkinci dəfə burada olmaq şansı yaratdığınız üçün təşəkkür edirəm. Bir şərhim və bir sualım var. Şərhim dünən Qarabağda gördüklərimlə bağlıdır. Mən Qarabağda üç dəfə olmuşam. Dünən mən Azərbaycanın 1918-ci ildə müstəqillik əldə etdikdən və 1991-ci ildən sonra uğur hekayəsini görürəm. Deməli, bu gün Qarabağın işğaldan azad edildikdən sonra yenidən qurulmasını, Azərbaycanın Qarabağı işğaldan sonra necə bərpa etdiyini görmək çox xoşdur. Mən bunu nadir uğur və nailiyyət hesab edirəm. Buna görə Sizi təbrik edirəm. Sualım isə Azərbaycanın İslam dünyasında mühüm yeri ilə bağlıdır. Ona görə də biz Azərbaycanın Yaxın Şərqdəki böhranla bağlı siyasətinə, xüsusilə Qəzza, Suriya və Livanda baş verənlərə dair fikirlərini öyrənmək istərdik.

**Prezident İlham Əliyev:** Ölkəmiz haqqında fikirlərinizə görə təşəkkür edirəm. Çox minnətdaram ki, siz artıq bir neçə dəfə Qarabağda olmusunuz. Bunun üçün sizə təşəkkür edirəm. Qəzzadakı vəziyyətlə bağlı qeyd edim ki, Azərbaycan böhranın ilk günlərindən atəşkəsin olmasını, hərbi əməliyyatların dayandırılmasını fəal şəkildə müdafiə edib və bizim mövqeyimiz dəyişməz olaraq qalmaqdadır. Hər bir ölkədəki vəziyyətə gəldikdə - onlar üçün nəyin prioritet olduğuna ölkələrin özləri qərar verməlidirlər. Ona görə də heç bir ölkədə, hətta işğal dövründə Ermənistanda belə daxili vəziyyəti şərh etmirdik. Biz heç vaxt daxili gündəmə münasibət bildirməmişik. Amma, eyni zamanda, Suriya ilə bağlı deyə bilərəm ki, biz hökumət dəyişikliyinin baş verməsinə görə şadıq. Çox təəssüf ki, Suriya əvvəlki rəhbərliyin dövründə ermənipərəst və anti-Azərbaycan mövqe tuturdu. Ermənistan rəhbərliyi ilə Suriyanın əvvəlki rəhbərliyi arasında çoxlu siyasi təmaslar - təbrik məktubları, qarşılıqlı səfərlər olub. İndi isə Ermənistan hökuməti elə bilir ki, bunu heç kim xatırlamır. Amma hamımız onların prezident Əsəd hökumətinə nə qədər yaxın olduqlarını, necə ünsiyyət qurduqlarını, necə əməkdaşlıq etdiklərini xatırlayırıq. İndi Suriyaya humanitar yardım göndərməyə çalışmaları bir daha erməni riyakarlığını nümayiş etdirir. Ümid edirəm ki, Suriyanın yeni hökuməti bu riyakarların və yeni hökumətin düşmənlərinin bu ölkədə yer tapmalarına çalışmalarına imkan verməyəcək. Biz Suriyanın yeni hökumətini dəstəkləyirik, rəsmi məktublar mübadiləsi oldu, təbrik etdik. Təbii, biz çox şadıq ki, indi nəhayət qardaş ölkəmiz Türkiyənin bu cənub sərhədində sülh olacaq, Türkiyəyə Suriyadan heç bir təhlükə olmayacaq. Bu, bizim üçün çox vacib bir inkişafdır. Bu, həm də qlobal dəyişikliklərin bir hissəsidir və bundan başqa, biz özümüz Suriya xalqı və Türkiyə üçün sevinirik.

İslam dünyasındakı rolumuza gəldikdə, bu, müsəlman icmaları tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan dəfələrlə müxtəlif tədbirlər üçün ev sahibi ölkə seçilib və biz İslam Əməkdaşlıq Təşkilatının sammitinə ev sahibliyi edəcəyik. İslam Dünyasının Mədəniyyət, Təhsil və Elm Təşkilatı (ICESCO) Şuşanı İslam mədəniyyətinin paytaxtı seçib və ötən ilin mayında Şuşada ICESCO-nun Baş katibi və mən bunu rəsmi şəkildə elan etmişik. Belə ki, müsəlman xalqları arasında həmrəylik baxımından bizim rolumuz yüksək qiymətləndirilir. İstər müsəlman dünyasının dini liderləri, siyasi liderlər, həmçinin İslam Əməkdaşlıq Təşkilatı və Ərəb Liqası qardaşlarımıza göstərdiyimiz dəstəyi yüksək qiymətləndirirlər. Bununla bağlı son məqam: Düşünürəm ki, müsəlman dünyası ölkələri hər hansı bir ərəb ölkəsindəki vəziyyətlə bağlı siyasətlərini qiymətləndirərkən və ya işləyib hazırlayarkən, ilk növbədə, Ərəb Liqasının müəyyən təlimatlarına əməl etməlidirlər. Düşünürəm ki, bu, bu məsələləri necə həll etməyin, buna münasibət bildirməyin ən yaxşı yolu olacaq, çünki onlar daha yaxşı bilirlər. Ərəb Liqası bütün ərəb ölkələrini birləşdirir və bu ölkələrdəki vəziyyətlə bağlı hər bir məsələdə bu qurumun siyasəti ən azından bizim üçün bir istiqamət olmalıdır. Məncə, hamı üçün belə də olmalıdır.

**Hikmət Hacıyev:** Cənab Prezident, Urs Ankauf, Almaniya.

**Urs Ankauf:** Zati-aliləri möhtərəm cənab Prezident Əliyev, bu gün bizimlə olduğunuza görə çox sağ olun. Mən Almaniya ilə ikitərəfli münasibətlərə diqqəti cəlb etmək istərdim. Qeyd etdiniz ki, Prezidentimiz Frank-Valter Ştaynmayer bu yaxınlarda Azərbaycanda rəsmi səfərdə idi. Almaniya Prezidentinin administrasiyası tərəfindən səfərdən əvvəl ləğv edilmiş qeyri-qanuni işğalçı rejimin bayrağının yerləşdirilməsi narazılıq yaratmışdır. Xoşbəxtlikdən, Prezidentin saytından həmin məlumat silindi və Sizə üzrxahlıq məktubu göndərildi. Rəsmi bəyanatı oxumuşam, lakin sualım belədir ki, hazırda bizdə yeni hökumətin formalaşdırılmasının son mərhələsində olmağımızı nəzərə alaraq, Azərbaycanın Almaniya ilə siyasi və iqtisadi əməkdaşlıqla bağlı gözləntiləri nədir?

**Prezident İlham Əliyev:** Çox sağ olun. Birincisi, bayraqla bağlı vəziyyətə gəlincə, təbii ki, bunu görəndə hamımız çox təəccübləndik. Düzünü desəm, mən həmişə olduğu kimi, maksimum səmimi olmağa çalışıram, bunun səhv olduğunu düşünmək bizim üçün çox çətin idi. Çünki Almaniya çoxillik dövlətçilik ənənələri olan bir ölkədir və bütün atributlara diqqətlə yanaşılır. Bu, təkcə separatçıların bayrağı olan bayraq deyildi, artıq ölmüş separatçı qurumun bayrağı idi və orada əlavə bir şərh var idi – "Dağlıq Qarabağ" adını gördük. Bu, artıq mövcud deyil. Bu, dediyimiz kimi, yalnız erməni revanşistlərin və onlara dəstək verənlərin xəyallarında mövcuddur. Ona görə də həmin bəyanatda o ifadənin yer almasını Azərbaycana qarşı təhqir hesab edirik. Bunun səhv olduğunu düşünməyə imkan verməyən başqa bir amil də var. Şəkli xatırlayırsınızsa, orada bayraq cırılmış vəziyyətdə idi. Ermənistanın bayrağı olduğunu düşünüblərsə, o zaman niyə cırılmış bayraq şəkli paylaşıblar? Güman ki, o şəkli qoyanların beynində cırılmış bayraq "Artsax" adlanan yerin yaralı olmasına işarə idi. Bu, Azərbaycana bir mesaj idi. Biz bunu çox ciddi qəbul etdik və düzünü desəm, bizim hərəkət etməyimiz üçün bir neçə variant mövcud idi. Əgər üzrxahlıq olmasaydı, yəqin ki, səfərin vaxtı dəyişdirilə bilərdi. Beləliklə, bununla, sadəcə olaraq, sizə daxili "mətbəximizi" açıqlayıram. Vəziyyəti aydınlaşdırmaq üçün Almaniya səfiri Xarici İşlər Nazirliyinə dəvət olundu. O dedi ki, səhv etmirəmsə, üzr istəməyəcəklər, belədir, Hikmət? Beləliklə, bu, digər bir sürpriz oldu. Sonra köməkçim Hikmət Hacıyev Prezident Ştaynmayerin Administrasiyasının rəhbəri ilə əlaqə saxladı.

**Hikmət Hacıyev:** İlkin olaraq xanım rəhbər dedi ki, bu, ciddi texniki səhvdir və xahiş etdi ki, üzrxahlığımızı qəbul edin və biz onu siləcəyik. Lakin bu, aramızda olan bir üzrxahlıq idi. Amma mən Sizin tərəfdən əlavə göstəriş aldım ki, Azərbaycan israrlıdır və biz almaniyalı həmkarlarımızdan açıq və rəsmi üzrxahlıq gözləyirik. Bundan sonra yazılı üzrxahlıq göndərildi.

**Prezident İlham Əliyev:** Bəli, təşəkkür edirəm. Beləliklə, məsələ həll olundu, amma təbii ki, bunu etməməli idilər. Xətrimizə dəymək üçün tamamilə faydasız və mənasız cəhd. Mən tamamilə əminəm ki, Prezident Ştaynmayerin bundan heç xəbəri olmayıb. O, özü bunu mənə dedi. Birincisi, mən ona tam inanıram, çünki ona çox hörmətlə yanaşıram. İkincisi, düzünü desəm, mən də şəkillərimə bir o qədər baxmıram. Səhv bir şey varsa, buna görə kimi günahlandıracağını bilirsən. Ancaq səhv bir şey olsaydı, şübhəsiz ki, müraciət olmadan belə biz üzr istəyəcəkdik.

Səfər özü çox uğurlu idi. Prezident Ştaynmayer və mən bir-birimizi çoxdan tanıyırıq, onun xarici işlər naziri olduğu illərdən bəri təmasdayıq, o, bir neçə dəfə buraya səfər edib. Keçən il biz Berlində görüşdük, onunla ünsiyyətdə olmaq çox xoş idi. O, çox bacarıqlı siyasətçi və böyük dövlət xadimidir. Alman xalqı onunla fəxr edə bilər. Səfərin məzmunu və formasına gəldikdə isə mətbuatda əks olunduğu kimi, hamı gördü, çox səmimi, mədəni proqramla müşayiət olunan yaxşı səfər idi. Bizim müxtəlif məsələləri müzakirə etmək üçün kifayət qədər vaxtımız oldu. Əlbəttə ki, işgüzar sahədə əməkdaşlığımızın mahiyyəti çox genişdir və biz bu səfəri, yeri gəlmişkən, Almaniya Prezidentinin Azərbaycana ilk səfərini münasibətlərimizdə mühüm mərhələ hesab edirik. Beləliklə, hər iki prezidentin Bakıdan verdiyi bütün mesajlar son dərəcə müsbət və zamanında verilən mesajlar idi. Ona görə də hesab edirəm ki, bu, həm də ölkələrimizin işgüzar dairələrinə ikitərəfli istiqamətdə daha fəal işləmək üçün yaxşı mesajdır. Həmçinin Almaniyadan, xüsusən də yeni hökumətdən Avropa İttifaqı ilə bağlı gözləntilərimiz odur ki, müstəqil siyasət yürütməkdə davam etsin. Çünki bilirsiniz, Avropa İttifaqında Azərbaycana qarşı çox pis əməllər törədən, heç bir əsası olmadan özünü lider kimi göstərən bir ölkə var. Avropanın aparıcı iqtisadiyyatı, aparıcı siyasi qüvvəsi Almaniyadır. Ona görə də ümid edirəm ki, Avropa İttifaqı oradakı ermənipərəst qrupların təsiri altına düşməyəcək.

**Hikmət Hacıyev:** Son sualımız Şimali Kiprdən Hüseyn İşıksaldan.

**Hüseyn İşıksal:** Hörmətli cənab Prezident. 2023-cü ilin oktyabrından Prezidentimi müşayiət etdiyim və bizi rəsmi səfər çərçivəsində qəbul etdiyiniz gündən sonra burada Sizi yenidən görmək çox xoşdur. Mən Şimali Kipr Türk Respublikası Prezidentinin xüsusi müşaviriyəm. Ona görə də, ilk növbədə, icazə verin, şəxsən Sizə Prezidentimin ən səmimi salamlarını çatdırım. Burada olmaq həmişə xoşdur, çünki biz qardaşıq və özümü evimdəki kimi hiss edirəm, özümü xarici ölkəyə gəlmiş kimi hiss etmirəm. Türk Dövlətləri Təşkilatı ilə bağlı sual vermək istəyirdim. Amma bu məsələni artıq səfir soruşdu. Ona görə də mən, sadəcə, ölkəmlə Azərbaycan arasında münasibətlərin daha da dərinləşdirilməsi barədə dəyərli fikirlərinizi və tövsiyələrinizi eşitmək istəyirəm. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Bilirsiniz ki, Prezident Ersin Tatar Azərbaycanda səfərdə olub və biz beynəlxalq tədbirlərdə həmişə görüşməyə vaxt tapırıq. Azərbaycanda Şimali Kiprin mədəniyyət günlərinin keçirilməsi böyük hadisə oldu. Bildiyiniz kimi, Azərbaycan Şimali Kipr Türk Respublikasının Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasında mühüm rol oynayıb. Bunun necə baş verdiyini bilirsiniz, çox təfərrüatlara varmaq istəmirəm, amma biz bunu fəal şəkildə müdafiə edənlərdən olduq. Prezident Tatar Şuşada təşkilatın qeyri-rəsmi Sammitinə mənim tərəfimdən dəvət olunmuşdu və o, Şimali Kipr bayrağı ilə bizimlə idi. Beləliklə, bizim əlaqələrimiz davam edir. Bilirsiniz ki, vətəndaş cəmiyyətinin, Azərbaycan hökumətinin, parlamentinin nümayəndələri Şimali Kipr Türk Respublikasına tez-tez səfərlər edir, Şimali Kiprdən Azərbaycana səfərlər həyata keçirilir. Yəni, biz hər zaman qardaşlarımızlayıq, siyasətimiz hər zaman çox aydındır. Şimali Kiprdə öz dövlətinə sahib olmağa layiq qardaşlarımıza necə kömək edə biləcəyimizdən başqa bir gündəmimiz yoxdur. Onlar tarix və əməlləri ilə buna layiqdirlər. Hamımız xatırlayırıq ki, Birləşmiş Millətlər Təşkilatının ovaxtkı Baş katibi Kofi Annanın təşəbbüsü ilə referendum keçirilib və Kipr türkləri birləşməyə, Kiprdəki yunanlar isə birləşmənin əleyhinə səs verdilər. Sonra nə oldu? Kipr dəvət edildi və Avropa İttifaqına üzv oldu. Bu, ədalətli idi? Əlbəttə ki, yox. Bu ikili standartlar idi? Əlbəttə, bəli. Amma təəssüf ki, siyasətçilərin çoxu bu haqda danışmaq istəmir. Onlar başağrısı olmamasına üstünlük verirlər. Çünki onların başağrısı yarada biləcəklərini hamı təsəvvür edə bilər və başağrısı heç də onların yarada biləcəyi ən böyük zərər deyil. Amma Azərbaycana gəldikdə, məncə, Şimali Kiprdəki qardaşlarımız arasında heç bir şübhə yoxdur ki, biz müstəqil ölkə qurulana qədər, sona qədər sizinlə olacağıq. Əlbəttə ki, beynəlxalq birlik tərəfindən tanınana qədər sizinləyik.

**Hikmət Hacıyev:** Tədqiqatçılar Sizə minnətdarlıqlarını və təşəkkürlərini bildirmək istəyirlər. Təqribən üç saatlıq müzakirəmiz oldu. Vaxt ayırdığınız üçün təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Təşəkkür edirəm.

***

Sonda xatirə şəkli çəkdirildi.

***AZƏRTAC***

# Azərbaycan Respublikasının Prezidenti Zati–aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Mübarək Ramazan bayramı münasibətilə Zati-alinizə səmimi təbriklərimi və xeyir-duamı çatdırmaqdan məmnunluğumu ifadə edirəm.

Hər şeyə qadir olan Uca Allahdan Sizə cansağlığı və səadət, müsəlman ümmətinə firavanlıq arzulayıram.

**Hörmətlə,**

**Şeyx Məhəmməd bin Zayed AL NƏHYAN,**
**Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti**

***

**Zati-aliləri cənab Prezident!**

Mübarək Ramazan bayramı münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunam.

Arzu edirəm ki, Ulu Tanrı Sizə cansağlığı və səadət, müsəlman ümmətinə xoşbəxtlik nəsib etsin.

Hörmətlə,

***Şeyx Mansur bin Zayed AL NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident işləri naziri***

***

**Hörmətli cənab Prezident!**

Müqəddəs Ramazan bayramı münasibətilə Zati-alinizi səmimi-qəlbdən təbrik edir və Sizə ən xoş arzularımı çatdırmaqdan məmnunluğumu bildirirəm.

Uca Yaradandan Sizə cansağlığı və xoşbəxtlik, müsəlman ümmətinə rifah diləyirəm.

**Hörmətlə,**

***Şeyx Məhəmməd bin Rəşid AL MƏKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın Əmiri***

***

**Cənab Prezident!**

Zati-alinizi, ailənizin dəyərli üzvlərini, dost və qardaş Azərbaycan xalqını mübarək Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu mübarək bayramın Türk dünyası və bütün İslam aləmi üçün sülh, rifah və ümid dolu bir gələcəyə vəsilə olmasını, qardaşlıq və həmrəylik əlaqələrimizin müştərək dəyərlərimiz əsasında daha da möhkəmləndirməsini arzu edirəm.

Fürsətdən istifadə edərək Zati-alinizə ən xoş arzularımı çatdırır, cansağlığı və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***Fuat OKTAY,***
***Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri***

***

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.**

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, Zati-alinizə cansağlığı, uzun ömür və uğurlar arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək Uca Allahdan Azərbaycan Respublikasına və dost xalqınıza davamlı inkişaf, tərəqqi, firavanlıq, İslam ümmətinə və bütün bəşəriyyətə xeyir-bərəkət diləyirəm.

**Hörmətlə,**

***Şeyx Sabah Xalid əl-Hamad əl-Mübarək ƏL-SABAH,***
***Küveyt Dövlətinin Vəliəhdi***

# Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 5 fevral tarixli 67 nömrəli Sərəncamı ilə yaradılmış Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının (bundan sonra – Dövlət Komissiyası) aşağıdakı yeni tərkibi təsdiq edilsin:

**Dövlət Komissiyasının sədri**

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR-ın) prezidenti

**Dövlət Komissiyasının üzvləri**

Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru

Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON-un) icraçı direktoru

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vitse-prezidenti

Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyəti sədrinin müavini

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti

PAŞA Holdinqin Baş icraçı direktoru

NEQSOL Holdinqin Baş icraçı direktoru

Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri.

2. Dövlət Komissiyasının cari fəaliyyətinin təşkili məqsədilə Dövlət Komissiyasının Katibliyi yaradılsın və Katibliyin funksiyasının həyata keçirilməsi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə həvalə edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Dövlət Komissiyasının yeni tərkibi barədə Yaponiya tərəfinə bildiriş göndərsin.

4. "Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 dekabr tarixli 1852 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1111 (Cild I) ləğv edilsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 aprel 2025-ci il**

# A.N.Eminovun Mingəçevir Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Nazim oğlu Eminov Mingəçevir Dövlət Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 aprel 2025-ci il**

# İran heyəti Bakı Beynəlxalq Dəniz Ticarət Limanında

**Aprelin 9-da Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan tərəfindən həmsədri Şahin Mustafayev və ölkəmizdə səfərdə olan İran İslam Respublikasının yol və şəhərsalma naziri, Komissiyanın İran tərəfindən həmsədri Fərzanə Sadiq iki ölkənin nümayəndə heyətlərinin müşayiətilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına birgə baxış keçiriblər.**





Həmsədrlərə Bakı Limanına dair təqdimat nümayiş etdirilib, limanın tarixi, infrastrukturu və imkanları, o cümlədən illik yükaşırma qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması məqsədilə ikinci faza çərçivəsində aparılan tikinti işləri barədə məlumat verilib.

Qeyd edilib ki, ikinci fazanın tamamlanmasından sonra Bakı limanının genişləndirilməsi Azərbaycanın Avropa və Asiyanı əlaqələndirən nəqliyyat və logistika qovşağı kimi strateji əhəmiyyətini daha da artıracaq.

Daha sonra limanın əsas yük terminalına, Ro-Ro və Bərə terminallarına, çeşidləmə məntəqəsinə baxış keçirilib.

*XQ*

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

**Zati-aliləri!**

Mübarək Ramazan bayramı münasibətilə Sizə səmimi təbriklərimi və xeyir-duamı çatdırmaqdan məmnunluğumu bildirirəm.

Hər şeyə qadir olan Uca Allah Sizə cansağlığı və səadət, müsəlman ümmətinə firavanlıq nəsib etsin.

**Hörmətlə,**

***Şeyxə Fatimə bint MÜBARƏK,***
***Birləşmiş Ərəb Əmirliklərinin Qadınlar Birliyinin sədri***

# Moldova diplomatı XİN-də



**Aprelin 9-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Moldovanın Xarici İşlər Nazirliyinin dövlət katibi Sergey Mihovla görüşüb.**

Görüş zamanı Azərbaycan–Moldova əməkdaşlığının siyasi, iqtisadi, ticarət, enerji, humanitar aspektləri, münasibətlərin inkişaf perspektivləri, habelə regional və beynəlxalq məsələlər müzakirə olunub. İkitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsinin vacibliyi qeyd edilib, xüsusilə enerji təhlükəsizliyi sahəsi üzrə tərəfdaşlığın inkişaf perspektivlərindən istifadənin əhəmiyyəti vurğulanıb.

İqtisadiyyat, ticarət, investisiyalar sahələri üzrə əməkdaşlıq imkanlarının müzakirəsi baxımından Azərbaycan ilə Moldova arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın rolunun vacibliyi diqqətə çatdırılıb.

Həmin gün Azərbaycan və Moldova xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Samir Şərifov, Moldova tərəfindən isə dövlət katibi Sergey Mihov rəhbərlik edib.

*XQ*

# Kəmaləddin Heydərov BƏƏ-də dünya sammitində



**Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun rəhbərlik etdiyi nazirliyin nümayəndə heyəti 8-9 aprel tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində keçirilən 8-ci "Böhranların və fövqəladə halların idarə edilməsi üzrə Dünya Sammiti"ndə iştirak edib.**

Tədbirdə çıxış edən Kəmaləddin Heydərov sammitin əhəmiyyətini qeyd edərək onun fövqəladə hallara qlobal hazırlıq səviyyəsinin yüksəldilməsi, o cümlədən fəlakətlərə çevik və səmərəli reaksiya verilməsi məqsədilə beynəlxalq əməkdaşlığın genişləndirilməsi, bu sahədə təcrübə mübadiləsinin aparılması və qabaqcıl innovasiyaların müəyyən edilməsi baxımından mühüm platforma olduğunu vurğulayıb.

Ölkəmizdə fövqəladə hallarla mübarizə üzrə görülən uğurlu işlər barədə məlumat verən nazir fəlakətlərin xüsusilə qlobal iqlim dəyişikliyi fonunda yaratdığı təhlükələrin vaxtında müəyyən edilməsi və aradan qaldırılması üçün koordinasiyalı fəaliyyətin əhəmiyyətini qeyd edib, bu istiqamətdə Azərbaycan FHN-in istər xarici ölkələrin uyğun qurumları ilə ikitərəfli səviyyədə, istərsə də müvafiq beynəlxalq təşkilatlar, o cümlədən Beynəlxalq Mülki Müdafiə Təşkilatı çərçivəsində fəal əməkdaşlıq etdiyini bildirib.

Qeyd edək ki, iki gün davam edən sammitdə ölkələrin fövqəladə hallarla mübarizə üzrə məsul qurumlarının rəhbərlərinin çıxışları dinlənilib, geniş müzakirələr aparılıb.

Tədbir çərçivəsində nazir Kəmaləddin Heydərov bir sıra ikitərəfli görüşlər keçirib, həmçinin fövqəladə hallarla mübarizə üzrə ən müasir texnika və avadanlıqların, müxtəlif vasitələrin nümayiş olunduğu sərgi ilə tanış olub.

*XQ*

# 54 ailə də doğma yurda qayıtdı

**"Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad olunmuş torpaqlara keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Növbəti köç karvanı ilə Ağdərə rayonunun Suqovuşan kəndinə çatan ailələrə mənzillərin açarları təqdim olunub.**

Bu mərhələdə Suqovuşan kəndinə 54 ailə – 179 nəfər köçürülüb. Suqovuşana köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.



Keçmiş məcburi köçkünlərə doğma ata-baba yurdlarında mənzillərin açarı təqdim edilib və ailələr yeni evlərində yerləşiblər. Bununla da Ağdərə rayonunun Suqovuşan kəndindəki yaşayış kompleksində ümumilikdə, 180 ailə məskunlaşıb. 2,3 hektar sahədə inşa edilən yaşayış kompleksi 5 mərtəbəli olmaqla 5 binadan ibarətdir. Bu binalarda ümumilikdə bir, iki, üç və dördotaqlı 190 mənzil var. Suqovuşan kəndi fasiləsiz elektrik enerjisi, qaz, içməli su və yüksəksürətli internet xətti ilə təmin edilib.

*XQ*

# Moskvada Azərbaycan–Rusiya siyasi məsləhətləşməsi

**Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfov aprelin 7–9-da Rusiyanın paytaxtı Moskvada işgüzar səfərdə olub.**

Bu barədə ölkəmizin Rusiyadakı səfirliyindən məlumat verilib.

Bildirilib ki, səfər çərçivəsində X.Xələfov Rusiyanın xarici işlər naziri Sergey Lavrov, bu ölkə Prezidentinin köməkçisi Yuri Uşakov, Federal Məclisin Federasiya Şurasının Beynəlxalq məsələlər komitəsinin sədri Qriqori Karasin, xarici işlər nazirinin müavinləri Mixail Qaluzin və Andrey Rudenko ilə görüşlər keçirib.

Görüşlərdə iki ölkə arasında müxtəlif səviyyələrdə konstruktiv dialoqun aparılması yüksək qiymətləndirilib, Azərbaycan-Rusiya əlaqələrinin inkişafı, ikitərəfli və çoxtərəfli müstəvidə, o cümlədən parlamentlərarası təmasların davam etdirilməsinin vacibliyi qeyd olunub.

Həmçinin 2022-ci il 22 fevral tarixli Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin ikitərəfli gündəliyin təməlini təşkil etdiyi və uzunmüddətli əməkdaşlıq üçün əsaslı zəmin yaratdığı məmnunluqla vurğulanıb. Bu kontekstdə ikitərəfli münasibətlərin cari vəziyyəti nəzərdən keçirilib, xüsusilə Azərbaycan tərəfinin narahatlığına səbəb olan məsələ ilə bağlı müvafiq tədbirlərin görülməsinə diqqət yetirilib.

Eyni zamanda, Cənubi Qafqaz və Xəzər regionunda davamlı sabitliyin və təhlükəsizlik mühitinin möhkəmləndirilməsi sahəsində birgə səylərin davam etdirilməsinin vacibliyi vurğulanıb.

*XQ*

# Azərbaycan yeni dünya nizamına önəmli töhfələr verir

## Prezident İlham Əliyevin növbəti mesajları ölkəmizin qlobal proseslərə həssas münasibətini ifadə edir

**Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumdakı çıxışında son illərdə əldə olunan uğurlardan və gələcək perspektivlərdən geniş söhbət açıb. Məsələn, dövlətimizin başçısı COP29 iqlim konfransının gerçəkləşdiyi günlərdə Azərbaycanın Qlobal Cənub ilə Qlobal Şimal arasında ünsiyyətin qurulmasına uğurla nail olduğunu qeyd edib.**




Ölkə rəhbəri bu beynəlxalq iqlim sessiyasında respublikamızın səyi ilə digər mühüm bir uğura – karbon bazarının funksional edilməsi ilə bağlı razılığa gəlinməsinə də imza atıldığını diqqətə çatdırıb. Azərbaycan lideri daha sonra deyib: "Biz, həmçinin Qlobal Cənub ilə Qlobal Şimal arasında ünsiyyətin qurulmasına nail olduq. Bu da qarşımıza qoyduğumuz vəzifənin icrası idi. COVID-i idarə etmək, COP-a evsahibliyi etmək, – yeri gəlmişkən, ilin sonuna qədər biz sədrlik edəcəyik, bütün bunlar onu göstərir ki, gündəliyimiz aydındır. Biz səylərimizə olan müsbət reaksiyanı bir çox Afrika dövlətlərindən də gördük. Afrika dövlətləri ilə sıx əlaqələrin qurulması siyasəti artıq müəyyənləşdirilib".

Yeri gəlmişkən, BMT-nin 29-cu iqlim sessiyasının bağlanış plenar iclasının gərgin keçməsi, lakin uzun müzakirələrin sonunda uğurlu razılaşmanın əldə edilməsi iqlim dəyişikliyi ilə mübarizə tarixinə qızıl hərflərlə yazıldı. Beynəlxalq liderlər, diplomatlar və iqlim mütəxəssislərinin saatlarla davam edən danışıqlarının yekununda iki qütb – inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında əməkdaşlığın yeni keyfiyyət mərhələsinin əsası qoyuldu. Yeni razılaşmaya əsasən, inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim tədbirləri – təbii fəlakətlərin zərərinin azaldılması, bərpaolunan enerji keçidinin dəstəklənməsi və yoxsulluğun azaldılması məqsədilə hər il 100 milyard dollar əvəzinə 2035-ci ilə qədər 300 milyard dollar vəsait ayırması öhdəliyi götürməsi qərara alındı.

Bağlanış mərasimində BMT Baş katibi Antonio Quterreş çıxışında həm hökumətləri, həm də qlobal ictimaiyyəti bundan sonra da iqlim dəyişikliyinə qarşı mübarizədə daha fəal olmağa, iddialı addımlar atmağa səslədi, eyni zamanda, bu məsələdə xüsusilə G20 ölkələrinin dəstəyinə daha çox ehtiyac duyulduğunu vurğuladı.

Antonio Quterreş Azərbaycana COP29 sammitinə uğurla evsahibliyi etdiyinə və konfransın təşkilini yüksək səviyyədə həyata keçirdiyinə görə minnətdarlığını bildirdi. Baş katib Azərbaycan Prezidenti İlham Əliyevə, COP29 prezidenti Muxtar Babayevə və iqlim konfransı komandalarına təşəkkürünü çatdıraraq dedi: "Bakı iqlim mübarizəsində beynəlxalq həmrəyliyin və əməkdaşlığın simvoluna çevrildi. Azərbaycan bu sammitlə qlobal problemlərin həllində nə qədər əhəmiyyətli rol oynadığını bir daha sübut etdi".

COP29-un son plenar iclasının gecə yarıya qədər davam etməsi və uğurla yekunlaşması isə çoxunun yuxusuna haram qatdı. Bu nüfuzlu konfransın Azərbaycanda keçiriləcəyi ilə bağlı yekdil qərar imzalandığı ilk günlərdən ta indiyədək Fransa, ABŞ, Niderland, Norveç, Almaniya və digər ölkələrin respublikamıza qarşı qarayaxma, təzyiq kampaniyaları səngimədi. Qarabağ savaşında olduğu kimi, ədalətsiz, haqsız çağırışları, şər-böhtanları heç bir nəticə vermədi, konfrans vurğuladığımız kimi, uğurlu sonluqla yekunlaşdı. Şübhəsiz ki, BMT kimi nüfuzlu bir təşkilatın Baş katibi belə bir taleyüklü sessiyanı yüksək səviyyədə yekunlaşdırdığına görə, Azərbaycan Prezidentinə təşəkkürünü bildirməsi də işğalçı Ermənistanın havadarlarını məyus etdi.

Prezident İlham Əliyev beynəlxalq forumda çıxışı zamanı Azərbaycanın beynəlxalq maliyyə təsisatlarından asılılığının tamamilə azaldığını da xatırladaraq deyib: "Biz Beynəlxalq Valyuta Fondu ilə münasibətləri mənim ilk prezidentliyim dövründə dayandırdıq. Digər maliyyə təsisatları ilə bağlı isə biz demək olar ki, əməkdaşlığımızı tam dayandırmışıq. Bizim xarici borcumuz cəmi 5 milyard ABŞ dolları həcmindədir. Bu, bizim ümumi daxili məhsulumuzun 7 faizindən aşağıdır. Bu onu göstərir ki, bizim xarici sərmayələrə, maliyyələşməyə ehtiyacımız yoxdur".

Qeyd edək ki, ölkəmizdə son illər xarici borcun qarşılanması üçün makroiqtisadi sabitliyin qorunması, qiymətlərin aşağı və sabit olması məqsədilə bir sıra tədbirlər həyata keçirilib. Bu sahədə idarəetmənin institusional çərçivəsi təkmilləşdirilib və maliyyə bazarlarının səmərəli fəaliyyəti təmin edilib. Belə bir şəraitdə isə iqtisadi proqnozlar özünü doğruldub, ən başlıcası isə əhalinin yığımları dəyərsizləşmədən xilas olunub və investisiya artımı reallaşıb.

Ölkədə xarici borcların qarşılanmasından bəhs edərkən, bir məsələni də xatırlatmaq istərdik. Belə ki, son illər respublikamızın xarici dövlət borcunun idarə edilməsi istiqamətində ölkə başçısının rəhbərliyi ilə davamlı tədbirlər həyata keçirilib. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"da qarşıya qoyulan vəzifələr uğurla reallaşdırılıb.

Bu sənədlərdə dövlət borcalmaları üzrə müəyyənləşdirilən strateji hədəflərə çatmaq üçün bir sıra prioritet layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin 4 avqust 2023-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda bir sıra dəyişikliklər edilməsi də məhz bu məqsəddən irəli gəlib. Həmin strategiyanın "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə" bəndi üzrə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faiz, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi qərara alınıb.

Yeni dəyişikliyə əsasən, 2025-ci ilin sonuna xarici dövlət borcunun 7,1 milyard ABŞ dolları məbləğində, yəni ÜDM-in 10,7 faizi həcmində olması gözlənilir. Bununla belə, mövcud xarici dövlət borcunun qaytarılması, eləcə də ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədilə prioritet sahələrdə investisiya layihələrinin maliyyələşdirilməsi səbəbindən bu göstəricilərin dəyişəcəyi də istisna edilmir.

Azərbaycanın xarici dövlət borcunun azalması bir sıra amillərlə bağlıdır. Bu, ilk növbədə, düşünülmüş uzunmüddətli strategiyanın uğurla həyata keçirilməsinin məntiqi nəticəsidir. Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncam – "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" da bunun bariz ifadəsidir.

Yenilənən strategiya çərçivəsində xarici dövlət borcunun ÜDM-də payının 2025-ci ilin sonuna 15 faizdən aşağı səviyyədə saxlanılması, növbəti dövrdə (2025–2030) isə 10 faizə çatdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Prezident İlham Əliyev beynəlxalq forumdakı çıxışında Azərbaycanın Türk dünyası dövlətləri arasında əməkdaşlığa hər zaman öz dəstəyini verdiyini də bildirib. "Bizi tarix, etnik köklər birləşdirir. Dillərimiz arasında oxşarlıqlar var, mədəniyyətlərimiz, adət-ənənələrimiz kifayət qədər oxşardır", – deyən dövlətimizin başçısı əlavə edib: "İstərdik ki, bu təşkilat, yəni Türk Dövlətləri Təşkilatı daha güclü olsun və nəticələrə köklənsin. Bu baxımdan Azərbaycan hər zaman əlindən gələni edib. O ki qaldı, üzv dövlətlər arasında qarşılıqlı əlaqələrə, bizim aramızda çox yaxşı mühit var".

Türk Dövlətləri Təşkilatının (TDT) 2009-cu ildə Naxçıvan şəhərində keçirilən Zirvə görüşündən indiyədək qurum səmərəli bir inkişaf yolu keçib, 160 milyona yaxın insanın yaşadığı böyük bir coğrafiyada və qlobal miqyasda güclü təşkilat kimi tanınıb. Prezident İlham Əliyevin TDT ölkələri ilə bütün sahələrdə əlaqələrin möhkəmləndirilməsini Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri elan edib.

Azərbaycanla TDT-yə üzv ölkələr arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün son illərdə bir sıra layihələr reallaşdırılıb. Məsələn, Milli Məclisin 4 aprel 2023-cü il tarixli iclasında "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" 2022-ci il noyabrın 11-də Səmərqənd şəhərində imzalanan saziş təsdiqlənib. Bununla da TDT hökumətlərinin gömrük orqanları arasında malların və nəqliyyat vasitələrinin hərəkəti ilə bağlı məlumat mübadiləsi asanlaşıb. Başqa sözlə, belə bir layihənin icrası nəticəsində təşkilata üzv hökumətlər arasında daşınan mallar və nəqliyyat vasitələri haqqında məlumatların elektron şəkildə mübadiləsi gerçəkləşib, nəticədə sürətli yük daşımaları, o cümlədən yük daşımaların həcmində nəzərəçarpacaq dərəcədə artıma nail olmaq reallaşıb.

"Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" sazişin təsdiqlənməsi isə Orta Dəhlizin praktiki əhəmiyyətinə müsbət təsir göstərməklə yanaşı, regionda baş verən yeni geosiyasi və geoiqtisadi reallıqlar çərçivəsində sözügedən marşrutla Çindən Avropaya quru yolla daşınan yüklərin Qazaxıstan və Azərbaycandan keçərək ötürülməsi reallaşıb.

Türk dünyasının iqtisadi əməkdaşlığının daha da dərinləşdirilməsi üçün qarşıda duran əsas çağırışlar arasında daxili bazarlarda rəqabət qabiliyyətinin artırılması və ticari əlaqələrin daha da şaxələndirilməsi önəmlidir. TDT ölkələrinin təbii sərvətləri böyük iqtisadi potensiala sahib olsa da, onların beynəlxalq bazarlarda daha təsirli və sabit mövqe tutması üçün daha irimiqyaslı infrastruktur investisiyaları, regional sərmayə təşviq siyasətləri və vahid iqtisadi siyasətlərin inkişaf etdirilməsi əsas çağırışlardır.

2024-cü ildə TDT dünya iqtisadiyyatında əsas geosiyasi və iqtisadi faktor rolunu daha da gücləndirmək üçün müxtəlif əməkdaşlıq modelləri və layihələri üzərində işləyir. Təşkilata üzv dövlətlərin təbii sərvətləri, xüsusilə enerji ehtiyatları bu ölkələrin qlobal enerji bazarlarında əhəmiyyətli oyunçulara çevrilməsinə zəmin yaradır. 2023-cü ildə təşkilata üzv ölkələrdəki təsdiqlənmiş təbii qaz ehtiyatları 18,6 trilyon kubmetr, neft ehtiyatları isə 5,3 milyard ton səviyyəsində qiymətləndirilir.

Prezident İlham Əliyev ADA Universitetində keçirilən beynəlxalq forumdakı çıxışında Azərbaycanın Afrikada yaşayan dostlarımıza lazım olduğu zaman dəstək verdiyini də bildirib: "COVID zamanı biz 80-dən artıq ölkəyə maliyyə və humanitar yardım çatdırdıq. O ölkələrin əksəriyyəti Afrika qitəsində yerləşən ölkələr idi. Biz müxtəlif vasitələrlə təhsil, tibbi proqramlara dəstək veririk".

Sonda onu da bildirək ki, Azərbaycan bu gün regionda "yaşıl" enerji lideri kimi, bir sıra dövlətlərlə sıx əməkdaşlıq edir. Onlardan biri də Çindir. Prezident İlham Əliyevin forumda respublikamızın bu ölkə şirkətləri ilə sözügedən istiqamətdə fəal əməkdaşlıq qurması barədə fikirləri də diqqət çəkir: "Biz hazırda Çin şirkətləri ilə fəal işləyirik və onları müxtəlif sahələrdə, xüsusilə "yaşıl" enerji sahəsində bizimlə strateji tərəfdaş olmağa dəvət edirik. Onların şirkətləri "yaşıl" ictimai nəqliyyat vasitələrinin istehsalında bizim tərəfdaşdırlar. Artıq bu il yeni avtobuslar istifadəyə veriləcəkdir və Günəş panelləri də Azərbaycanda quraşdırılır, onlar Çin istehsalıdır. Eyni zamanda, biz bəzi Çin şirkətləri ilə də danışıqlar aparırıq ki, bilavasitə "yaşıl" enerji sahəsinə yatırımlar qoyulsun".

Çin şirkətlərinin ölkəmizə olan böyük marağı təsadüfi deyil. Çünki son illər ərzində Azərbaycan resursdan asılı iqtisadiyyatdan innovasiya, sahibkarlıq və biliyə əsaslanan sənaye üzərində inkişaf edən iqtisadiyyata uğurla keçid edib. Tətbiq edilən vergi güzəştləri, güzəştli kreditlər, hökumət təşəbbüsləri ilə dəstəklənən əlverişli investisiya mühiti və dövlət–özəl sektor tərəfdaşlığının genişləndirilməsi diqqətdə saxlanılıb.

İşğaldan azad edilən ərazilərdə vergi güzəştləri, sosial sığorta müavinətləri, təkmil investisiya təşviqi mexanizmləri, kommunal xidmətlər üzrə güzəştlər, əmək miqrasiyası kvotasının müəyyənləşdirilməsi və sadələşdirilən iş prosedurları ilə bağlı əlverişli şərtlər Çin şirkətlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə marağını şərtləndirib.

Azərbaycan dost ölkə ilə nəqliyyat–logistikaya dair qlobal təşəbbüslər müstəvisində də sıx əməkdaşlıq qurub. Hər iki dövlət tərəfindən irəli sürülən "Bir kəmər, bir yol" layihəsinin mühüm hissəsi olan Orta Dəhlizin infrastrukturunun inkişafına əhəmiyyətli investisiyalar yatırılıb.

Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" kimi müəyyənləşdirilib. Bununla yanaşı, dövlətimizin başçısının tapşırığına əsasən, işğaldan azad olunan ərazilərdə "Yaşıl enerji zonası"nın yaradılması nəzərdə tutulub. Bu baxımdan alternativ və bərpaolunan enerji sahəsində 2 ölkə arasında böyük əməkdaşlıq potensialı mövcuddur və Azərbaycan bu sahəyə də çinli investorları dəvət edib.

***XQ-nin analitik qrupu***

# Azərbaycan – ABŞ: keçmişin dərsləri və nikbinlik üçün əsaslar

**(əvvəli 1-ci səhifədə)**



Əlbəttə, rasionallıqdan uzaq təxminlərin puça çıxacağı birmənalı idi. Axı cəfəng yanaşmalar özünü doğrulda bilməzdi və doğrultmadı. Eyni zamanda, deyək ki, erməni iqtidarı ABŞ-da başqa ssenarinin gerçəkləşəcəyinə ümid bəsləmişdi. Mövcud məqama Prezident İlham Əliyev də toxunub: "Onlar (Ermənistan – red.) ümid edirdilər ki, ABŞ-da seçkilərdən sonra demokratların hakimiyyəti davam edəcək. Ancaq Trampın prezident seçilməsi onları ciddi şəkildə məyus etdi".

Ermənistanda "baydençilərin" məğlubiyyətindən sonra ikinci dərin məyusluq hissi baş nazir Nikol Paşinyanın bu ilin əvvəlində dini tədbirdə iştirak adı altında ABŞ-a səfərinin nəticələrinə əsasən yaşandı. Ölkəsinin Bayden Amerikası ilə imzaladığı xartiya çərçivəsində Birləşmiş Ştatlarla işbirliyinin perspektivi ilə maraqlanmaq istəyən Paşinyan səfərdən əliboş qayıtdı. Amma bu, İrəvanı tutduğu destruktiv mövqedən daşındırmadı. Çünki Ermənistanı illüziya bataqlığına sürükləyən təkcə ABŞ deyil. Ona görə Prezident İlham Əliyev vurğulayır ki, ölkənin erməni siyasi isteblişmenti Azərbaycan mövzusunda olduqca səfərbər vəziyyətdədir. Yəni, Paşinyan iqtidarı bizə yanaşmada koordinal dəyişiklik aparmır, özünün anti-Azərbaycan köklənişində yalnız müəyyən termin və davranış korrektələri ilə kifayətlənir: "Mahiyyət dəyişmir və biz buna hazır olmalıyıq. Yəni, Ermənistanla sülh müqaviləsi imzalanmayana qədər normallaşma ilə bağlı hələ də yeni siyasi qarşıdurma təhlükəsi davam edəcək".

Bəli, hazırda ABŞ-ın Azərbaycana münasibətində Vaşinqtonun İrəvana yanaşması faktoru hansısa əhəmiyyət daşımır və bunu müsbət məqam kimi vurğulamaq mümkündür. Deməli, dövlətimizin başçısının "Bayden – Blinken administrasiyası dövründə böhrana uğramış əlaqələr" şəklindəki siyasi xarakteristikasının mənfi çalarlarının aradan qalxmasına ümidlər böyükdür. Ümidlər həm də o səbəbdən böyükdür ki, Prezident İlham Əliyev Birləşmiş Ştatlarla hər zaman yaxşı münasibətlərin tərəfdarı olduğumuzu açıqlayıb: "Çünki ABŞ dünyanın ən güclü dövlətidir".

Güc ondan düzgün və səmərəli istifadə edildiyi zaman çox ciddi faktordur. Bayden administrasiyasının fəaliyyəti göstərdi ki, ABŞ nəhəng potensialından yararlanma baxımından son dərəcə səriştəsiz mövqe tutur. Belə durumlarda isə güc əhəmiyyətini itirir. Nəzərə alaq ki, bu amildən səmərəli istifadə özündə təkcə hərbi trayektoriyanı birləşdirmir. Başlıca məqam düzgün təsir rıçaqlarına malik olmaqdır. O rıçaqlara ki, onlardan yararlanma gücü zorbalıq kimi göstərməsin. Peşəkar siyasi düşüncə də budur. Siyasət meydanında güc ona sahib dövləti digər ölkələrin nəzərində böyük kimi göstərmirsə, deməli nüfuzdan salacaq. Baydenin prezidentliyi dönəmi də bununla yadda qaldı.

Təsəvvür edin, həmin dövrdə ABŞ Dövlət Departamenti ermənipərəst konqresmenlər vasitəsilə Azərbaycanı 1976-cı ildən bəri tətbiq edilməyən qanunla hədələmişdi. Söhbət senatorlar Ed Marki və Bill Kessedinin Xarici Yardım Aktının 502B(c)-ci bəndinə əsasən, Azərbaycanda insan hüquqlarının vəziyyəti ilə bağlı hesabat tələb edən qətnamə layihəsindən gedir.

Layihə Birləşmiş Ştatlara istənilən ölkədən insan hüquqlarının vəziyyətinə dair məlumat tələb etmək, həmin ölkəyə təhlükəsizlik sahəsində yardımı azaltmaq və ya tamamilə dayandırmaq imkanı verir. Deməli, alınan məlumatlar əsasında hesabatı aparılan ölkəyə ABŞ-ın təhlükəsizlik yardımı dayanacaqsa, bu, sanki İlahinin həmin məmləkəti tərk etməsi mahiyyəti daşıyacaq. Başqa sözlə desək, Vaşinqton hansısa dövlətə təhlükəsizlik dəstəyini dayandırırsa, həmin dövlət havada qalır və ona hərbi hücum leqal qiymətləndirilir.

Bu mənfur qətnamə layihəsində, həmçinin Birləşmiş Ştatların Azərbaycandan həm ölkə daxilində, həm də "Qarabağa hücum zamanı erməni əhalinin etnik təmizləməsinə səbəb olan insan hüquqlarının pozulması barədə" məlumat tələb olunması əksini tapırdı. Onu da bildirək ki, ABŞ-ın sabiq rəhbərliyinin dövründə Azərbaycanın Birləşmiş Ştatlardakı maliyyə aktivlərinin müsadirəsi və onların Qarabağın erməni əhalisinə yardım adı altında separatizmin dəstəklənməsinə yönəldilməsi kimi sərsəm təşəbbüs və digər xoşagəlməzliklər qeydə alınıb.

Prezident İlham Əliyev "Yeni dünya nizamına doğru" beynəlxalq forumundakı çıxışı zamanı isə Bayden administrasiyasının anti-Azərbaycan və ermənipərəst mövqeyini xarakterizə edən daha bir riyakarlıq göstəricisinin üzərində dayanıb. Söhbət Azadlığa Dəstək Aktının 907-ci düzəlişinin tətbiqindən gedir. Məlumdur ki, 1992-ci ildə qəbul edilmiş bu düzəliş tam ədalətsiz mahiyyət daşımışdı. Həmin il işğala məruz qalan Azərbaycan təcavüzkar qismində göstərilmiş, buna görə ölkəmizə ABŞ-ın dövlət yardımı qadağan olunmuşdu.

O da məlumdur ki, 2000-ci ildə Birləşmiş Ştatlar Konqresi ölkə Prezidentinə "907"nin tətbiqini dayandırmaq səlahiyyəti vermiş və bəzi dövlət başçıları bundan istifadə etmişdilər. Prezident İlham Əliyev isə durumu əsaslandırarkən bildirib ki, Azərbaycan Ağ evə lazım olanda sözügedən düzəlişin tətbiqi dayandırılırdı: "Lakin onlar (ABŞ qoşunları – red.) Əfqanıstandan qaçdıqdan sonra bunu bizə qarşı yenidən tətbiq etməyə başladılar".

Bəli, ölkəmizin liderinin haqqında söz açdığı mənzərə böyüklərin özünü kiçik və cılız aparmalarına dair nümunədir. Bayden administrasiyası tarixdə belə mənfi nümunələrlə, haqsız davranışlarla yadda qaldı. Prezident İlham Əliyevin bildirdiyi kimi: "Belə bir ədalətsiz mövqe bildirmək bu administrasiyanın özü üçün çox böyük zərbə idi. Çünki bundan sonra onlara kim inanardı? Beləliklə, bizim Bayden – Blinken komandasına olan inamımız sıfra gəlib çıxdı və münasibətlərimiz çox ağır böhrana düşdü".

Vurğuladığımız məqamları nəzərə alaraq deyə bilərik ki, Bakının Vaşinqtondan yeganə gözləntisi böyüklükdür. Böyüklük özündə ədalətli yanaşmanı ehtiva edir. Elə bir yanaşmanı ki, onda fayda olsun. Nəzərə alaq ki, dövlətimizin başçısı özünün erudik təfəkkürü, rasionallığı və praqmatizmi ilə faydanın miqyasını hər zaman geniş götürüb. Ona görə də ABŞ-ın milli maraqlara əsaslanacaq siyasətinin Vaşinqtonla güclü münasibətlərimizin qurulmasına imkan yaratdığını vurğulayır.

Prezident İlham Əliyev ölkəmizin ABŞ-la əlaqələrinin intensiv xarakterinin vacibliyindən söz açmaqla regional fayda genişliyinə söykənir. Başqa sözlə desək, Azərbaycan ABŞ-la münasibətlərinin dinamizmini bütövlükdə regiona mənfəət kontekstində görür.

Sonda onu da bildirək ki, dünyada ilk baxışdan sadə görünən reallıqlar var. Nəyəsə nail olmaq istəyirsənsə, nəyisə təklif etməyi bacarmalısan. Azərbaycan öz siyasətini real işi ilə qurur. Yəni, dünyaya təklif edə biləcəyi çox şey var. Nəzərə alaq ki, dövlətimizin başçısı Azərbaycanın Cənubi Qafqazın aparıcı ölkəsi, Qlobal Cənubun bir hissəsi olduğunu təsadüfən xatırlatmır. Prezident İlham Əliyev, həmçinin qeyd edir ki, ölkəmiz Qoşulmama Hərəkatında ciddi mövqeyə, Mərkəzi Asiya ilə yaxşı əlaqələrə, iqtisadi gücə, enerji resurslarına, potensialını döyüş meydanında sübuta yetirmiş orduya malikdir.

Deməli, ölkəmizin lideri "Buna görə biz Birləşmiş Ştatlar üçün çox mühüm tərəfdaş ola bilərik" fikrini yalnız arzu və istək baxımından səsləndirmir, sırf reallığa söykənir. Reallıq isə budur ki, Bakı Vaşinqtonla tərəfdaşlıq üçün özünü doğrultmuş durumda, müvafiq potensialdadır. Azərbaycanın ABŞ-la münasibətlərinin perspektivi baxımından nikbinlik yaradan ən böyük amil də elə budur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# "Ayırıcı xətlər"i çəkənlərin sonrakı peşmançılığı

**Cənubi Qafqaz respublikalarına vətəndaş cəmiyyətləri vasitəsilə, daha dəqiqi, "yumşaq güc"lə təsir rıçaqları tükənmiş "kollektiv Qərb" artıq bu ideoloji-siyasi taktikanın məğlubiyyətə uğradığını qəbul etməyə məcburdur. Bölgədə korporativ maraqlarını yeritməyə çalışan qüvvələr "yardımçı amil" kimi Ermənistan və Gürcüstana əlahiddə "status" verməklə Azərbaycan ayırmaq, onları Avropa İttifaqı adında bir tələyə salmaq variantını da sınaqdan çıxardılar. Gürcüstan bu tələyə düşmədi, amma Ermənistan hələ də xam xəyallarla Avropanın kandarına doğru sürünməkdədir. Onu qarşıda nələrin gözlədiyi ilə bağlı erməni cəmiyyətinin özündə də ciddi şübhələr yaranmaqdadır.**



Sadəcə olaraq, indi işğalçı Ermənistanı tərəfdaş Ermənistana çevirməyi bacarmayan, revanşist arzularından əl çəkməyən İrəvan son 30 ildə əkdiyi "məhsulu" yemək məcburiyyətindədir. Hələ 4 il 5 ay bundan əvvəl müharibədə qalib tərəfin – Azərbaycanın əməkdaşlıq, beynəlxalq layihələrdə birgə iştirakla bağlı təklif və çağırışlarına məhəl qoymayan Paşinyan hakimiyyəti indi buraxdığı bu şansın altını çəkməkdədir.

Azərbaycan isə bu müddətdə bir çox ölkələrlə həm regional, həm də transmilli strateji tərəfdaşlıq sazişləri imzaladı. Dünyanı narahat edən qlobal problemlərin müzakirə tribunasını əvəz edən Azərbaycan bu gün nəinki bölgədə, eləcə də beynəlxalq miqyasda söz, nüfuz və güc sahibinə çevrilib. Bütün bunlar Bakıya coğrafi, siyasi, iqtisadi və nəqliyyat sahələrində Mərkəzi Asiya regionu ilə Avropa arasında ümumi yanaşmaları formalaşdırmağa imkan yaradıb.

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda çıxışı zamanı deyib ki, regionda uzunmüddətli əməkdaşlığa gəldikdə, əgər xəritəyə baxsanız, görə bilərsiniz ki, Azərbaycan burada əsas yer tutur. Bəziləri Azərbaycanın nəinki bu prosesdən, o cümlədən, ümumiyyətlə, prosesdən ayırmaq və Cənubi Qafqazda ayırıcı xətləri çəkmək cəhdi göstərir. Lakin birmənalı şəkildə, bu, uğursuz olacaq".

Forum iştirakçılarından birinin sualını cavablandıran dövlətimizin başçısı bölgədə əməkdaşlıq mühitinin tam formalaşmasını ləngidən proseslərə də toxunaraq qonaqların diqqətinə çatdırdı ki, Ermənistanın bu istiqamətdə destruktiv hərəkətləri Cənubi Qafqaz regionunun daha da inkişaf etmək imkanlarını məhdudlaşdırıb.

"Ermənistan Azərbaycanın enerji resursları və nəqliyyat marşrutları üçün tranzit ölkəyə çevrilə bilərdi. Azərbaycandan neft, qaz və yaxud digər yüklərin daşınması Gürcüstan ərazisi ilə gedir və Ermənistan bu prosesin bir hissəsi ola bilərdi. Bu, onların səhvidir. Onlar öz gələcək inkişaflarını səhv hesabladılar və beləliklə, özlərini iqtisadi gələcəklərindən məhrum etdilər. Bununla əlaqədar onların real müstəqilliyi əngəlləndi. Onlar "böyük bir Ermənistan" xülyası ilə yaşayırdılar".

Mövcud durumu zərgər dəqiqliyi, praqmatik diplomat səriştəsi ilə xarakterizə edən Prezident İlham Əliyev İrəvana daha böyük uğurlar qazanmaq yolunda "bizim bütün şanslarımız var idi" mesajını verdi. Azərbaycan lideri bu mesajı, ilk növbədə, Ermənistan hakimiyyətinə ünvanlayır və anladır ki, o, "kollektiv Qərb"in bölgə ilə bağlı avantürist ssenarilərinə "maşa" olmaqla özünü nələrdən məhrum edib. Əslində, indi bunu İrəvan isteblişmentində bilməyən yoxdur.

Dövlətimizin başçısı deyib: "Bütün dağıntılara, Azərbaycan xalqının əzab-əziyyətlərinə baxmayaraq, belə bir inkişaf baş tutmadı. Cənubi Qafqaz regionu həm iqtisadi, həm də nəqliyyat marşrutları baxımından bu imkanları itirdi. Əgər biz Azərbaycan–Gürcüstan münasibətlərinə baxsaq, görə bilərik ki, enerji təhlükəsizliyi, nəqliyyat, sərmayə, siyasi dialoq – bütün bunlar üstünlük gətirir. Əslində, Ermənistan özünü bunlardan məhrum etdi, işğal və təcavüz nəticəsində o, tranzit ölkəyə çevrilə bilmədi".

Sual-cavab formatında davam edən ADA Siyasi Forumunda İlham Əliyev Azərbaycanın Ermənistandan ərazi bütövlüyümüz və onların konstitusiyası ilə bağlı nəyi gözlədiyini də bir daha dünyaya bəyan etdi: "Əgər bunlar edilərsə, sülh sazişi imzalana bilər və beləliklə, Cənubi Qafqazda artıq inteqrasiya edilmiş bölgə üçün heç bir maneə qalmayacaq".

Dövlət başçımızın bu fikri isə Qərblə Şərq arasında seçim etmək məcburiyyətində qalmış Paşinyan komandası üçün xəbərdarlıq sayılmalıdır: "Amma realist danışsaq, bu o demək deyil ki, Ermənistanla dərhal dost olacağıq. Burada müəyyən iqtisadi inteqrasiya haqqında danışmaq tezdir. Lakin kiçik addımlarla başlayaraq etimadı qura bilərik".

Yəni, hətta İrəvanın sülhdənqaçma təşəbbüslərinin, Bakının sazişə əlavə şərtlərini yerinə yetirməkdən boyun qaçırmalarının müşahidə edildiyi indiki kritik məqamda belə Azərbaycan lideri Ermənistana şans verdiyini açıqlayır. Bu yaxınlarda təşəbbüslər irəli sürüldüyünü və Ermənistanın mövqeyini gözlədiyini bildirən İlham Əliyev ölkəmizin bu məsələdə mövqeyinin sabit və dəyişməz qaldığını həm ermənilərə, həm də onların arxasında duranlara bir daha xatırlatdı.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**



– Nikol Paşinyan Ermənistanda hakimiyyətə gələndən sonra ayırıcı xətlər daha çox hiss olunmağa başladı. Həmin haypərəst "kollektiv Qərb" Gürcüstanla Ermənistanı qərbyönlü edərək onları Azərbaycana qarşı qoymağa çalışırdı. Ancaq Gürcüstanda sonradan cərəyan edən hadisələr o qüvvələrin bütün istək və planlarının üstündən xətt çəkdi. Baxmayaraq ki, Ermənistan Rusiyanın müttəfiqi olaraq qalır, bu ölkənin hərbi bazalarını hələ də öz ərazisində saxlamaqda davam edir, sərhədlərinin böyük qismi məhz rusiyalı sərhədçilər tərəfindən qorunur, xarici ticarət dövriyyəsinin, demək olar ki, 80 faizi Avrasiya İqtisadi İttifaqının, yəni Rusiyanın payına düşür, bu da yüksələn xətlə gedir, amma Avropa İttifaqı ilə ticarəti azalmaqdadır. Bütün bunlar öz yerində, üstəlik, Ermənistan KTMT-dən çıxmayıb, Aİİ-nin tamhüquqlu üzvüdür, ayırıcı xətləri çəkənlər Hayastanı Qərbə meyilli nümunəvi ölkə kimi təqdim etməyə cəhdlər göstərirlər.

Məsələyə Qərbin ayrı-ayrı dövlətlərinin, institutlarının Gürcüstana təzyiqləri artırması müstəvisindən yanaşsaq, görərik ki, həmin qüvvələr bunu Azərbaycana qarşı təşkil etmək iqtidarında deyillər. Bu səbəbdən "üzlərini turşudub", ölkəmizə qarşı müxtəlif təbliğat kampaniyaları aparır, dezinformasiya yaymaqla məşğul olurlar. Onların bu təxribatçı fəaliyyətləri uğursuzluğa məhkumdur. Eləcə də Cənubi Qafqaz bölgəsində hansısa ayırıcı xətləri çəkməyə gücləri çatmayacaq. Prezident İlham Əliyev ADA-dakı Siyasi Forumda bunu birmənalı şəkildə bəyan etdi. Bu mesaj lazımi ünvanların qulağına çatmalıdır.

## Ekspert rəyi

**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**



– Cənubi Qafqazda sülh çoxdan yarana bilərdi. Əgər bölgəyə kənar müdaxilələr olmasaydı. Müəyyən xarici qüvvələr maneçilik etməsəydilər, problemlər törətməsəydilər. Görürük ki, onların bu bölgədə vəziyyəti açıq şəkildə qarışdırmaq niyyətləri var. Eyni zamanda, Gürcüstanı və Ermənistanı Avropaya yaxınlaşdırmaqla, Azərbaycana qarşı addımlar atırlar. Elə davranırlar ki, sanki, otuz il ərzində torpaqlarımızı işğalda saxlayan Ermənistan olmayıb, Azərbaycan qonşusunun ərazisini zəbt edib. Əlbəttə ki, bu, gülünc olduğu qədər də təhlükəli mövqe və yanaşmadır. Belə ikili standarta söykənən haypərəst yanaşmanı sərgiləyən əsas dövlət Fransadır. Bu da təsadüfi deyil. Bildiyimiz kimi, bu ölkədəki erməni lobbisi daim Yelisey sarayına təzyiqlər etməkdədir.

Qərbin Cənubi Qafqazda bu xarakterli addımlara rəvac verməsi heç vaxt davamlı sülhə gətirib çıxara bilməz. Bu bölgədə sülhü Azərbaycan bərpa edib. Rəsmi Bakı bundan sonra da bölgədə sülhün və əmin-amanlığın bərpası istiqamətində mütəmadi şəkildə lazımi addımları atacaq. Çünki Azərbaycan heç kəsdən asılı deyil və bizim xarici siyasətimiz dövlət və milli maraqlarımıza tam cavab verən siyasətdir.

# "Sərhəddə oldular, ya restoranlarda vaxt keçirtdilər"

**(əvvəli 1-ci səhifədə)**



Bəli, Aİ-nin Ermənistandakı missiyası Fransanın Cənubi Qafqazda pozucuculuq siyasətinin, qlobal maraqlar gerçəkləşdirmək niyyətinin cılız alətidir. Təsisatın formalaşmasının ilhamvericisi də rəsmi Paris, daha dəqiq desək, prezident Emmanuel Makrondur. Əminliklə vurğulamaq olar ki, Makronun nəzərində müşahidəçilər Qərbin anti-Rusiya cəbhəsinin əsgərləridir.

Müşahidəçilər Qərbin regionda hərbi plasdarm, özək yaratmaq niyyətinin təmsilçiləri obrazındadırlar. Onlar hələlik silahsızdırlar, ancaq silaha sarılmaları mümkündür. Hər halda, Aİ-nin mülki müşahidə missiyasının gələcəkdə NATO-nun strukturuna çevriləcəyinə dair fikirlərin dolaşması təsadüfi sayıla bilməz. Həm də ona görə ki, əvvəl məhdud saylı missiyanın tərkibi hazırda xeyli genişləndirilib.

Konkret fəaliyyətə gəlincə, bu barədə yazımızın başlanğıcında az-maz söz açdıq. Bir qədər ətraflı məlumat verərək deyək ki, tərkibi peşəkar hərbçilərdən ibarət müşahidəçilərin real işi şərti sərhədin bir başından, o biri başına "pikap" avtomobillərlə yol getməkdir. Missiya öz hesabatında da üzvlərinin neçə kilometr məsafə qət etdiyini açıqlayır, bunu fövqəladə hadisə kimi qiymətləndirir. Üstəlik, təsisatın rəhbəliyi guya, yerlərdə insanlarla görüşlər keçirdiklərini, onların gərginliyini aradan qaldırdıqlarını vurğulayır, hələ bir qədər də irəli gedib sərhədyanı zonalarda dinc, birgəyaşamı təbliğ etdiklərinə dair yalan da tirajlayır.

Gerçəklik budur ki, missiya üzvləri kəşfiyyat işləri reallaşdırırlar. Ermənistan ordusunu Azərbaycan Silahlı Qüvvələrinin yerləşmə mövqeləri ilə bağlı məlumatlandırırlar. Sərhəd xətti boyunca o yan-bu yana getmək, binoklla müşahidələr aparmaq yalnız buna xidmət edir. Əlbəttə, Aİ-nin sözügedən təsisatının Ermənistanı dünyaya qorunmağa ehtiyac duyan məmləkət qiyafəsində göstərmək məramı da "aktualdır". İrəvana xaricdən gəlmiş diplomatların, ictimai xadimlərin və digər şəxslərin, eləcə də qatı ermənipərəstlərin müşahidəçilərin qərargahına üz tutub orada şəkil çəkdirmələri buna xidmətdir.

***

Görünür, Aİ missiyasını tənqid edən politoloq A.Xaçikyan onun vurğuladığımız istiqamətdəki "faydalı" iş barədə məlumatlı olmadığından, təsisatın heç nəyə yaramadığını vurğulayıb. Hərçənd, tam mümkündür ki, "monitorinqçilərin" tənqidi diqqəti onların fəaliyyətlərinin əsl mahiyyətindən yayındırmaq məqsədi güdür.

Beləliklə, A.Xaçikyan bildirib ki, Aİ-nin mülki müşahidə missiyası üzvlərinin sərhəd xəttində görünmələri ilə restoranlarda vaxt keçirmələri arasında heç bir fərq yoxdur. Onun sözlərinə görə, Avropaya inteqrasiyanın erməni tərəfdarları mütəmadi bəyan ediblər ki, Avropa missiyası sərhəddə sabitliyin möhkəmlənməsinə töhfə verir: "Lakin Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan ərazilərini atəşə tutmaqda davam etdiyi bir şəraitdə müşahidəçilər gecəgörmə cihazlarının olmadığını əsas gətirərək susurlar".

Hesab edirik ki, gecəgörmə cihazlarının yoxluğu məsələsinin gündəmə gəlməsi adi qarşılana bilməz. Deməli, Aİ missiyasının təchizatının möhkəmləndirilməsinə ehtiyacın duyulduğuna dair rəy formalaşdırılır. Ola bilər, Xaçikyan mövcud məqama həssas yanaşmadığından, müşahidəçilərin binokllarının işləmədiyini bildirib həqarət yağdırır və deyir ki, EUMA nəinki eskalasiyanın qarşısını almaq iqtidarında deyil, həm də "Azərbaycan tərəfindən atəşkəs rejiminin pozulması faktlarını qeydə almır".

Göründüyü kimi, A.Xaçikyan da hadisə və proseslərə münasibətdə tipik erməni baxış bucağını ortaya qoyur. Onun Aİ missiyasını tənqidə məruz qoyma tərzinə belə yanaşma hakim kəsilib. Yada salaq ki, əvvəllər də erməni siyasi dairələrində Ermənistanın Qarabağı itirməsinə, bölgənin ermənisizləşməsinə görə müşahidəçiləri günahlandıranlar tapılırdı. Ümumən, missiya məntiqinin Ermənistan üçün zərərli olduğunu açıqlayanlar da həmçinin. A.Xaçikyan isə bildirir ki, Aİ-nin Ermənistana missiya göndərməkdə əsas məqsədi regionda təhlükəsizliyi təmin etmək deyil. Başlıca məram Avropanın Ermənistana dəstəyi illüziyasını yaratmaq olub.

Politoloq onu da vurğulayıb ki, Aİ-nin real məqsədi Ermənistanı Rusiyadan uzaqlaşdırmaq, başqa heç bir real yardım göstərmədən, loru dildə desək, ölkəni Türkiyənin qucağına atmaqdır. Yəni, Ankaranın təsiri altına salmaq. "Başqa sözlə, söhbət Artsax ssenarisini təkrarlamaq cəhdindən gedir", - deyən Xaçikyan fikrini yekunlaşdırıb.

Əlbəttə, A.Xaçikyanın "Artsax ssenarisinin təkrarlanması" ifadəsi də tipik erməni qara-qışqırığının təzahürüdür. Görünür, Stenford Universitetində dərs deməklə deyilmiş. Bu politoloq üçün də digər erməni siyasiləri kimi, beynəlxalq hüquq anlayışı yoxdur. Onda özünü çox ağır formada göstərən patoloji xəstəlik var. Elə bir xəstəlik ki, Artsax avantürasını diri saxlamaqla, Qarabağın Azərbaycana məxsusluğunu qəbul etmir.

Əslində, Aİ müşahidəçilərinin fəaliyyətlərinin hansı məqsəd daşımasından və nəyə xidmət etməsindən asılı olmayaraq, sərsəm düşüncə sahiblərinin sözügedən missiyanı pisləmələri təəccüblü sayılmamalıdır. Çünki belələri dünyada hamını erməni varlığına borclu sayır, elə zənn edirlər ki, beynəlxalq aləm hay maraqları naminə çalışmalı, Azərbaycana qarşı sərt tədbirlər görməlidir və sair.

Hər bir halda, A.Xaçikyanın Aİ-nin müşahidə missiyası barədə bildirdiyi mənfi fikirlər erməni cəmiyyəti üçün də siqnal olmalıdır. Əlbəttə, o cəmiyyət Azərbaycanla sülh istəyirsə. Çünki Bakı – İrəvan barış sazişi mətninin Ermənistan rəhbərliyinin çətin razılaşdığı müddəalarından biri də regionda kənar qüvvələrin olmaması ilə bağlıdır. Ermənistan bu müddəanı qəbul edib. Mövcud xüsusda sonda vurğulayacağımızı bildirdiyimiz məqama keçid alaq.

Baş nazir Nikol Paşinyan və komandasının üzvləri bildiriblər ki, Aİ missiyası işini yalnız sülh müqaviləsi imzalandıqdan sonra yekunlaşdıracaq. Nəzərə alsaq ki, erməni iqtidarı barış sazişinin imzalanması üçün Azərbaycanın irəli sürdüyü iki şərti yerinə yetirmək istəmir, deməli, sözügedən missiya da uzaq perspektivə hesablanıb. O perspektivdə Ermənistanı hansı fəlakətlərin gözlədiyini təxmin etmək isə hər ötən gün daha da asanlaşır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Müasir Azərbaycan ərazisinin siyasi-coğrafi obrazı və milli ideya



II MƏQALƏ

## İdeya çevrilişi

Mövzu ilə bağlı I məqalədəki qısa təhlildən aydın olur ki, coğrafi olaraq ərazinin bütövlüyü anlayışından onun siyasi, ideoloji, mənəvi və psixoloji artefakt anlamına transformasiyası mürəkkəb idraki prosesdir. Bu məqamda Heydər Əliyevin müasir mərhələdə azərbaycanlı şüurunda ölkə ərazisinin bütövlüyü məsələsini tarixi, siyasi, mədəniyyət və ideoloji aspektlərin vəhdətində milli ideya kontekstinə uğurla ehtiva etməsi, sözün əsl mənasında, ideya inqilabı kimi qəbul edilməlidir. Problemin elmi cəhətdən incə tərəfi də məhz bu tarixi transformasiyaya konseptual və praktiki səviyyələrdə Ulu öndərin nail olması ilə bağlıdır. Ərazi bütövlüyü ilə müstəqilliyin təmini, xalq–hakimiyyət həmrəyliyi və ayrıca, cəmiyyətin bütövlüyü kimi siyasi xarakterli anlamlara keçidin məntiqi və semantik dinamikası aktual elmi məsələdir. Bunun üzərində dayanmaq gərəkdir.

## Ərazi bütövlüyünün siyasi obrazı

Heydər Əliyev ölkənin tarixi və dövlətçilik ənənəsinin özəllikləri, mədəni özünəməxsusluğun vurğulanması əsasında ərazi bütövlüyünün bərpasını cəmiyyətin siyasi şüurunun "gündəminə" gətirə bildi. Bunu "milli ideya" anlayışı vasitəsilə praktiki reallaşma müstəvisinə proyeksiya etdi. Deməli, Azərbaycan liderinin məntiqi tutarlı arqumentlərlə cəmiyyətdə Azərbaycan ərazisinin bütöv coğrafi obrazını yaratmaq əsasında onu təmin etmənin siyasi və ideoloji motivəedici və nəticəverici mexanizmini dəqiqləşdirdi. Bu bağlılıqda məsələnin müstəqil dövlətin milli ideyası kontekstində həll edilməsinin irəli sürülməsi isə dahiyanə siyasi gediş idi.

Onun iki əsas təməl faktorunu dərk etməyimiz lazımdır. Onlardan birincisi, tarixin müxtəlif dönəmlərində Azərbaycanın ölkə və coğrafi-mədəni məkan olaraq ərazi bütövlüyü anlamının dəyişməsi ilə əlaqəlidir. Digəri isə müasir tarixi mərhələnin müstəqil dövlətçilik qarşısında qoyduğu vəzifələr prizmasında "ərazi bütövlüyü"-nün adekvat siyasi-ideoloji və coğrafi obrazının yaradılmasıdır. Yəni coğrafi anlamda "ərazi bütövlü"yünün semantik sahəsi ilə siyasi-ideoloji anlamının məna sahəsi arasında daxili məntiqi bağlılıq mütləq yaradılmalı idi. Bu anlamlar arasında daxili məntiqi və məna bağlılığı olmayanda, praktiki nəticədə alınmır. Vurğulanan xüsusiyyətlər üzərində geniş dayanaq.

## "İşğal edilmiş", "verilmiş", "itirilmiş" ərazilər obrazı

Müasir dünyada elə bir dövlət yoxdur ki, bu anlayışlar onun üçün aktual olmasın. Tarixən elə bir ölkə də mövcud deyildir ki, ərazisi coğrafi cəhətdən sabit olsun. Buna görə də ölkənin coğrafi ərazisi də dinamik ölçülərə malikdir – zaman-zaman müəyyən fərqliliklər meydana çıxır. Məhz həm də bu səbəbdən indi müstəqil dövlətlərdə ölkənin ərazi bütövlüyü məsələsi siyasi və elmi olaraq "işğal edilmiş", "verilmiş", "itirilmiş" ərazilər və sair kimi anlayışların nəzəri, fəlsəfi, semantik, coğrafi və politoloji obazlaının formalaşdırılması fonunda araşdırılır. Bu əsasda hər bir ölkənin özü üçün ərazi bütövlüyü (yəni müxtəlif aspektləri özündə ehtiva edən) obrazı yaradılır.

Bu məsələ Azərbaycan üçün də son dərəcə aktualdır, çünki tarixən ərazi məsələsinin həm coğrafi-fiziki mövcudluğu, həm də onun azərbaycanlı şüurunda obrazı fərqli dinamikaya malik olmuşdur. Burada ənənə (o cümlədən, azərbaycanlı şüurunda "ailə, "yurd-yuva", "el", "oba", "vətən" obrazlarının yeniləşmə dinamikası) ilə müasir müstəqil dövlətçiliyin bəşəri prinsiplərinin nisbəti ciddi yer tutur. Bu tezisin semantikasından (müxtəli aspektlərin ortaq məna yükündən) qeyd edilən anlayışlara baxsaq, hansı özəllikləri görə bilərik?

Vurğuladığımız kimi, indi müxtəlif səviyyələrdə "verilmiş", "itirilmiş" "işğal edilmiş" kimi təyinedici və mənalandırıcı terminlərdən, onların fərqinə varmadan hətta elmi tədqiqatlarda da istifadə edilir. Bu, təəssüf doğurur, çünki siyasi-hüquqi və nəzəri baxımdan onlar arasında fərqlər vardır. Xüsusilə fərdin şüurunda həmin anlayışların ifadə etdikləri coğrafi ərazinin təhrif olunmuş obrazı yaranırsa, tarixi səhvə yol verilir. Təcrübə göstərir ki, ərazinin milli maraqlara uyğun olmayan obrazı yarananda, cəmiyyət və dövlət "ilğım sahəsi"nə düşür və orada dövlətçilik baxımından özünün düzgün inkişaf etmək yolunu müəyyən edə bilmir.

Çünki bu zaman təməl istiqamətverici ideya rolunu oynayan faktorlardan biri ərazinin siyasi-coğrafi obrazı anlayışı təhrif olunmuş artefakt kimi özünü göstərir. Təhrif ounmuş, lakin mədəni və sosial memə (koda) çevrilmiş artefakt isə milli maraqlara uyğun olan ideya yarada bilmir. Bu cür artefaktın ideyaya çevrilməsi etnosu (cəmiyyəti) tədricən qeyri-dövlət müstəvisinə sürükləyir. Yəni formal dövlət olur, lakin o, milli maraqlara cavab verə bilmir. Və yaxud toplum sanki yad dövlətin diktəsi ilə yaşamağı milli duyğuları, ləyaqəti və şüuruna "çəkilmiş mehribançılıq sığalı" kimi qəbul edir. Bu isə sözün əsl mənasında, toplumsal faciədir, faktiki olaraq kimliyi (hər anlamda) itirməkdir. Son fikrin (kimlik məsələsini nəzərdə tuturuq) məna sahəsində "itirilmiş", "verilmiş", "işğal edilmiş" torpaqlar anlayışlarının Azərbaycan təcrübəsinə baxaq.

## İtirilmiş torpaq

Siyasi anlamda "itirilmiş torpaq" nə zamansa ölkə ərazisində olan, lakin müxtəlif səbəblərdən hazırda ona daxil olmayan ərazinin obrazıdır. Burada zaman baxımından "itirilmiş" ya əbədi, ya da müvəqqəti əldən verilmiş ərazini ifadə edə bilər. Lakin torpağın hansı səbəblərdən və ya hansı üsulla (işğal, məcburi addım və ya verilmə) əldən verildiyi bir qədər qaranlıq qalır. Məsələn, Nadir şahın zamanında dövlətin ərazisi milyon kvadratkilometrlərlə ölçülürdü. Ancaq onun bir qismi (məsələn, Mərkəzi Asiya və Hindistan istiqamətində) itirilmiş ərazidir. Həmin ərazilərə iddia etmək müasir Azərbaycan Respublikası dövlətinin heç bir halda məqsədləri sırasına daxil deyildir. Bu mənada "itirilmiş ərazi" ifadəsinin mütləq mənada obrazı yaranır, yəni bir daha qaytarılması mümkün olmayan torpaqlar nəzərdə tutulur.

Bu anlamın başqa incəliklərinə varmağı lazım bilmirik. Onu vurğulayaq ki, "itirilmiş torpaq" müasir dövrdə ərazi bütövlüyü obrazına daxil olmayan ərazi obrazında ola bilər (bununla bərabər, başqa alternativ anlamları qətiyyən istisna etmirik).

## Verilmiş torpaq

Ərazinin bu obrazını, adətən, Azərbaycanın daxilindən kimlərinsə əsassız və haqsız olaraq başqalarına torpaq güzəşti etməsi ilə əlaqələndirirlər. Hətta elmi tədqiqatlarda bu anlayışdan kimlərisə günahkar çıxartmaq üçün istifadə olunur. Burada əsas vardır. Azərbaycan tarixində müxtəlif səbəblərdən tarixi torpaqları yadlara güzəştə gediblər. Bu, xoşagələn və tam qəbul edilən hal deyildir. Eyni zamanda, azərbaycanlı şüurunda "verilmiş torpaq" obrazı onların qaytarıla bilinməsi inamı kontekstində yaradılmalıdır. Bu, ümumiyyətlə, dövlətin və xalqın ərazi bütövlüyünə üstünlük vermək niyyətini, iradəsini və düşüncəsini ideyaya çevirmək üçün gərəkdir. Yəni "verilmiş torpaq" termini bir tərəfdən şəxslərin mənfi keyfiyyətlərinə işarədirsə, digər tərəfdən edilən səhvin dövlətin ərazi bütövlüyü naminə düzəldilməsi zərurətinə inamın formalaşmasına xidmət etməlidir.

## İşğal edilmiş ərazi

Bu, müasir Azərbaycan dövlətçiliyi baxımından tez-tez işlədilən ifadədir. Qarabağ işğal edilmiş ərazi idi. Qərbi Azərbaycan daha geniş anlamda işğal edilmiş ərazi olaraq qalır. Zəngəzur işğal edilmiş ərazidir. Təbriz işğal edilmiş ərazi deyildir, bölünmüş torpaqdır və s.

Ərazinin işğaldan azad edilməsi coğrafi, fiziki, siyasi və dövləti baxımdan ərazi bütövlüyünü bərpa etmək prosesinin bir mərhələsi kimi obrazlaşmalıdır. Qarabağın erməni işğalından azad edilməsi bu anlamda Avrasiya məkanında ərazi bütövlüyünün bərpasının bənzərsiz nümunəsidir. Onun təhlili aktualdır. İrəlidə ona toxunacağıq.

Burada qeyd edək ki, Qarabağın işğaldan azad edilməsi özlüyündə Qərbi Azərbaycana qayıdış məsələsini psixoloji və sosial-mədəni artefaktdan ideyaya yüksəltdi. "Qayıdış" anlamına yeni fəlsəfi məna verdi. Belə ki, indi azərbaycanlı üçün "qayıdış" həm fiziki mövcudluq, həm də bütövlüyə doğru hərəkat rəmzidir.

Vurğulanan qısa izahlardan sonra məsələnin milli ideya kontesktinə nəzər sala bilərik.

## Milli ideya konteksti

Bu, araşdırılan məsələnin əsas qayəsini təşkil edir. Çünki Heydər Əliyev müasir azərbaycanlı şüurunda ərazi bütövlüyünü milli ideya səviyyəsində yaddaşa çevrilməsinin və onun daim aktuallaşdırılmasının yaradıcısıdır. Sözün həqiqi mənasında. Siyasi tezis kimi, əlbəttə, ərazi bütövlüyünün bərpasının millətin ideyası kontekstinə daxil edilməsi ciddi əhəmiyyəti olan prosesdir. Çünki real olaraq ərazi bütövlüyünün bərpası siyasi tezis (kəlam, müddəa, hökm, formul) kimi dövlətin məqsədi ola bilər və onu mühüm strateji dövləti məsələ kimi həyata keçirmək imkanı yaranar.

Burada ərazi bütövlüyünün psixoloji-sosial-mədəni arterfaktlıqdan intellektual fakta və oradan da ayrıca, siyasi ideyaya çevrilməsi kimi mürəkkəb bir prosesi unutmaq olmaz. Xüsusilə, keçən əsrin 90-cı illəri kimi Azərbaycan üçün çox qarışıq olan bir dönəmdə həmin vəzifənin öhdəsindən gəlmək yüksək zəka tələb edirdi. Burada ən azı siyasi liderlik məharəti ilə kütləni inandırmaq və onlarda məsuliyyətli münasibət formalaşdırmaq etikasının sintezi gərəkdir.

Məsələnin bu cür qoyuluşunun mahiyyəti onunla bağlıdır ki, milli ideya həmişə konseptual yanaşma tələb edir. Konseptual yanaşmadan kənarda milli ideya formalaşa bilməz. Onun artefakt kimi intellektual faktlıqdan ideyaya yüksəlməsini epistemik (fikrin sübutluluğunun müəyyən rasionallıq çərçivəsində təmin edilməsi, yəni, anlayışların məntiqi sisteminin yaradılması) çərçivədə gerçəkləşdirmək zəruridir. Buradan mövzuya bir sıra tədqiqaçıların da müraciət etdiyi Yaşar Qarayevin bir fikrindən baxmaq istərdik.

Yaşar Qarayev yazırdı: "Milli ideya dövlətçilik hüdudunda milli məfkurəyə o zaman çevrilir ki, bu ideyaya sahiblikdə, üstəlik, dövlət ərləri və öndərləri ilə ziyalı elita və bütöv əhali arasında monolit həmrəylik hökm-fərma olur".

Sonra bu ümumi tezisdən konkret Azərbaycan üçün maraqlı fikir irəli sürür: "Əzəli, əbəbi Azərbaycanı bir yumruqda birləşdirən mənəvi cazibə məkanı da indi yalnız bu bütövlüyün məhvərində yarana bilər".

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Böyük manipulyator"

***Mark ENDEVELD***

***(əvvəli ötən saylarımızda)***

### DGSE (xarici kəşfiyyat) Afrikada

Açıq şəkildə reaksiya verməyə cəsarət etməsələr də, Fransa prezidentinin özünü belə aparması, eləcə də onlara qarşı münasibəti Afrika dövlət başçılarının xoşlarına gəlmir. "Afrika liderləri Makronun sinik məntiqinə alışmayıblar. Bu onlarda belə bir hiss yaradır ki, sanki Afrika ölkələri Fransanın filiallarıdır", – deyə Afrikada yaşayan bir fransız iş adamı bizə etiraf etdi. Prezident aparatına yaxın olan başqa bir diplomat əlavə etdi: "Onlar Makronu başa düşə bilmirlər. Bu 80 yaşlı Afrika liderləri ilə Makronun arasında qırx il yaş fərqi var. Belə bir münasibət onların, əlbəttə ki, xoşlarına gəlmir".




Yelisey sarayının Afrika üzrə məsləhətçiləri Orelian Leşevalliye və Frank Paris Makronun prezidentlik mandatının ilk ilindən tez-tez bu qitəyə səfər edirlər. Onların məqsədi Fransa ilə Afrikanın müxtəlif dövlət başçıları arasında əlaqə yaratmaq və onların etibarını qazanmaqdır. Çünki ötən illər ərzində Afrikadakı fransız diplomatlarının yerini yavaşyavaş DGSE-nin (Fransanın Xarici Kəşfiyyat İdarəsi) casusları tutub.

Fransa prezidenti də öz növbəsində Afrika dövlət başçıları ilə şəxsi əlaqələr saxlamağa can atır. Burkina-Fasonun prezidenti Pol Kabore ilə yanaşı, Makron Seneqalın prezidenti Maski Sall ilə də yaxın münasibətdədir. Amma digər Afrika liderlərinin Fransanın bu gənc prezidentini görməyə gözləri yoxdur. Məsələn, Qvineyanın prezidenti Fransua Hollandın fanatıdır və ancaq ona sadiqdir. Fil Dişi Sahilinin lideri Alassan Uatt ara Nikol Sarkozi ilə çox yaxındır. Mövcud prezidentin əleyhdarlarından biri olan Loran Qbaqonun kürəkəni Stefan Kipre seçki kampaniyası zamanı Makrona maliyyə baxımından yardım etmişdi. 2018-ci ildə yeni nəsillər ittifaqının (UNG) prezidenti Kipre Parisdə prezident aparatının mətbuat katibi Benjama Qrivo ilə görüşür ki, Makron onunla bağlı xoş xatirələrini unutmasın.

### Media stressdədir

"Telerama" jurnalının yazdığına görə, 2017-ci ilin dekabr ayının əvvəlində dövlət başçısı LREM partiyasının (Respublika Hərəkətdə partiyası) deputatlarının və Mədəniyyət Məsələləri Komitəsi üzvlərinin qarşısında bəyan etdi ki, o, televiziya sahəsində inqilab etmək arzusundadır: "İctimai televiziya bizim ayıb yerimizdir, bizim həmvətənlərimizin ayıb yeridir; ictimai televiziya idarəçilik baxımından çox pis gündədir; keçən bir neçə həftə ərzində fikir verdim ki, ictimai televiziyanın rəhbərləri işlərinin öhdəsindən lazımınca gələ bilmirlər...".

Bu kəskin tənqiddə prezidentin əsl hədəfi Fransa Televiziyasının prezidenti Delfin Ernottdur. Bu qadın bir neçə həftə əvvəl 2018-ci ilin büdcəsi üçün 4 əsas telekanalın (TF1, France 2, France 3, Canal +) tələb etdiyi 50 milyon avronu 30 milyona endirmişdi. İctimai televiziyanın direktorunun bu ideyasını LREM partiyasının bəzi deputatları da dəstəkləmişdi. Bundan başqa, o, Baş nazirin kabinetindən, eləcə də Mədəniyyət Nazirliyi tərəfindən də dəstək almışdı. Delfin Ernottun bu layihəsinə, hətta Yelisey sarayından İsmael Emelien da razılıq vermişdi. Bundan başqa Mark Şvartz, eləcə də mədəniyyət nazirinin ovaxtkı kabinet direktoru Fransuaz Nissen də bu məsələyə yaşıl işıq vermişdilər. Ancaq Makron bundan xəbər tutanda bərk qəzəblənir, çünki qorxur ki, Milli Assambleyada bu ideyaya qarşı üsyankar bir fenomen peyda olsun. Prezident onu da yaxşı bilir ki, Milli Assambleyada onun partiyasından 232 deputatın əksəriyyəti mərkəz solçulara meyl edir... bu da təbii ki, onun xoşuna gəlmir, çünki Makron belə hesab edir ki, onun tətbiq etdiyi iqtisadi siyasət daha liberaldır... Ona görə də Makron təcili olaraq Delfin Ernottun bu layihəsinə, eləcə də öz doğma deputatlarına qarşı əks hücuma başlayır. Makron belə hesab edir ki, bu layihə qəbul olunsa, nəticəsi çox uğursuz olacaq...

Makronun bu çıxışından sonra Fransa Televiziyasında panika yaranır. Rəhbərlik elə bilirdi ki, onların təklifi Makronun partiyası tərəfindən qəbul ediləcək, çünki deputatların çoxu bu təklifin qəbul olunacağına zəmanət vermişdilər. Büdcə məsələsi tezliklə telekanalların xəbərlər proqramında bütün ölkəyə çatdırılır. Mətbuatda bu məsələ ilə bağlı polemikalar yaranır. Əlavə istintaq və xüsusi nümayəndə verilişlərinin yaradıcı heyətləri şoka düşür. Televiziya jurnalist Elis Lücetin adı mediada hallanır. Delfin Ernott mətbuatda güclü tənqid atəşinə tutulur. Makron televiziya jurnalistlərini tənqid atəşinə tutur. Nəhayət, prezidenti sakitləşdirmək və bu skandalı yatırtmaq üçün Fransa Televiziyasının informasiya direktoru Yannik Letranşan elan edir ki, "Telejurnalist Loran Deloss saat 19-da başlayan xəbərlər proqramını təkmilləşdirməyə səy göstərəcək...". Məsələ burasındadır ki, bu məşhur telejurnalist dövlət başçısını yaxşı tanıyır. Onlar ikisi də Amien şəhərindəndirlər və hər ikisi də eyni məktəbdə təhsil alıb. Yannik Letranşanın bu elanından cəmisi bir neçə gün sonra Delfin Ernotta acıq vermək üçün prezident Makron Loran Delossa uzun müsahibə verir... özü də indiyə qədər görünməmiş xüsusi bir formatda: qırx dəqiqə ərzində dövlət başçısı Yelisey sarayının dəhlizlərində gəzə-gəzə jurnalistin suallarını cavablandırır. Prezidentlə bu şəkildə müsahibə ertəsi günü bəzi qəzetlərin səhifələrində lağa qoyulur.

Amma bununla belə Fransa Televiziyası günlərini sayır. Yelisey sarayında da, Baş nazirin kabinetində də texnokratlar qollarını çırmalayıb işə başlayırlar. Onların hədəfində Fransa Televiziyasının 3 milyard 233 avroluq sərmayəsidir. Baş nazir Eduard Filip Fəaliyyət Komitəsinin direktoru, vaxtilə Fransa Televiziyasının prezidenti olmuş Mark Tessiyeyə tapşırıq verir ki, 2022-ci ilə qədər dövlətin İctimai Televiziyaya çəkdiyi xərclərə 60 milyard avro qənaət etsin. Büdcəni azaltmaq üçün hətta bəzi telekanalları birləşdirmək ideyası da irəli sürülür. Hətta a digər "mütəxəssislər" teleyayımda vahid prezidentlik ideyasını da ortaya atırlar. Bir sözlə, televiziya və onun proqramlarından başqa ağıllarına gələn hər şeydən danışırlar. Bu azmış kimi Yelisey sarayının kabinet direktoru Aleksi Kohler Fransa Televiziyasına xalqa mənəvi sərvət gətirən ictimai bir müəssisə kimi yox, əbəs yerə milyonlarla pul səpələnən uçurum kimi baxır. Bu hələ harasıdır, Yelisey sarayının kabinet direktoru olan bu yüksək vəzifəli dövlət məmuru belə hesab edir ki, ictimai televiziya onun əmri ilə idarə olunmalıdır.

### Yazılı mətbuat da kənarda qalmır

Makron media dünyasını yaxşı tanıyır və çox gözəl bilir ki, bu dünyada kiçik bir qığılcım böyük miqyaslı yanğına səbəb ola bilər. Rotşild bankında olanda, o, mətbuata aid olan bir neçə məsələnin üzərində işləmişdi, xüsusilə də 2010-cu ildə Le Monde qəzetinin satışının təşkilində. Elə həmin il o, Le Parisien qəzetini almağa cəhd edən bankir Qrequar Şertoka da kömək əli uzatmışdı. Ancaq nəticədə, bu satış qəzetin sahibi Mari-Odil Amori tərəfindən ləğv edildi. Makron həmçinin Lagardère qrupunun bəzi beynəlxalq qəzet və jurnallarının satışında da fəal iştirak etmişdi.

2018-ci il fransız mətbuatı üçün çətin bir il oldu. Yanvarın əvvəlində həftəlik jurnal L'Obs üz qabığında miqrantların vəziyyəti ilə bağlı hamını şoka salan bir foto çap etdi. Montaj olunmuş bir fotoda tikanlı məftillərin arxasında dayanmış, əynində ağ-qara rəngdə paltar olan Emmanuel Makron təsvir olunur. Fotonun altında isə iri hərflərə yığılmış belə bir başlıq verilir: "Miqrantlar, insan hüquqları ölkəsinə xoş gəlmisiniz...".

Bir neçə həftə sonra jurnalın direktoru səhmdarlar tərəfindən işindən qovulur. Bəziləri burda Makronun əli olduğundan da şübhələnirlər. Digərləri isə iddia edirlər ki, onsuz da, direktor jurnalın zəif satışına görə vəzifəsindən getməli idi. Ola bilsin ki, bu fərziyyə doğrudur, amma prezidentin onun işdən qovulmasında rolu olduğu haqqında da söhbətlər dayanmır. Bunda da günah onun özündədir. Çünki Makron ölkədə elə bir mühit yaradıb ki, hansısa qalmaqallı bir işdə prezidentin əli olduğunu görməmək mümkün deyil.

Fransa Televiziyası ilə bağlı mübahisələr soyumamış, Makron başlayır yazılı mətbuata ilişməyə. Jurnalistlərə hörmətlə yanaşdığını qeyd etməklə bərabər, o, çıxışında "fake news" yayan qəzet və jurnallara qarşı mübarizə aparmağın vacibliyindən danışır, hətta utanmaz-utanmaz jurnalistlərə bir sıra "ağıllı" məsləhətlər də verir.

Payızda Nouveau Magazine litt éraire (yeni ədəbiyyat jurnalı) jurnalının səhmdarları, prezidentə olan sevgisini heç vaxt gizlətməyən Klod Perdriel də başda olmaqla, altıca ay qabaq özlərinin direktor təyin elədikləri Rafael Qlüksmanın işindən qovulmasına qərar verirlər. Le Monde qəzeti də yazır: "Nouveau Magazine litt éraire (yeni ədəbiyyat jurnalı) jurnalının direktoru Rafael Qlüksman, prezident Makronu tənqid etdiyinə görə işdən qovulur". Məsələ burasındadır ki, gündəlik Le Monde qəzeti ilə Yelisey sarayı arasındakı əlaqələr çox gərgindir. Özü də bu təzə söhbət deyil, əksinə Makronun seçki kampaniyasından miras qalan bir düşmənçilikdir. O vaxt gələcək prezidentin komandasının bir dəstə üzvü Le Monde qəzetinin redaksiyasına hücum çəkib rəhbərliklə və siyasi şöbə ilə görüş tələb etmişdilər... nədir-nədir niyə gündəlik qəzet birinci səhifəsində onların lideri (Makron) haqqında tənqidi məqalə verib?!

**(ardı var)**

# Azərbaycan Avropa İnvestisiya Bankının maliyyə tərəfdaşıdır



(əvvəli 1-ci səhifədə)

Bununla yanaşı, EIB Azərbaycanın yaşıl keçidinə dəstəklə yanaşı, ötən il ölkədə mikro, kiçik və orta müəssisələrə kömək məqsədilə “Bank Respublika” ilə 10 milyon avro məbləğində kredit sazişi imzalayıb. Avropa İnvestisiya Bankının bununla bağlı açıqlamasında bildirilib ki, artıq tam həcmdə istifadə edilmiş bu kredit kiçik biznesə, həm də milli valyutada güzəştli maliyyələşdirmə təqdim edərək maliyyə inklüzivliyinə töhfə verir, investisiyaları, iqtisadi artımı və iş yerlərinin yaradılmasını stimullaşdırır. “Biz müvafiq maraqlı tərəflərlə fəal dialoqdayıq və ölkədə Avropa İttifaqı siyasətinə uyğun olaraq əməkdaşlığın genişləndirilməsi imkanlarını araşdırırıq”, – deyə məlumatda qeyd olunub.

Avropa İttifaqının İqtisadi və İnvestisiya Planı çərçivəsində Azərbaycanın dayanıqlı inkişafına yardım etməyi hədəfləyən EİB buna uyğun olaraq ölkəmizin “yaşıl iqtisadiyyat”a keçidini dəstəkləməyə hazır olduğunu bəyan edib. Bankın bununla bağlı prioritetlərinə “təmiz enerji”yə, dayanıqlı nəqliyyata, rəqəmsallaşmaya, eləcə də kiçik və orta müəssisələr üçün maliyyələşdirməyə çıxışın genişləndirilməsinə investisiyaların yatırılması daxildir. Avropa İnvestisiya Bankından bildirilib ki, Azərbaycanda qarşılıqlı fəaliyyətin əsas istiqamətləri enerjinin şaxələndirilməsi, nəqliyyat infrastrukturunun modernləşdirilməsi və daha dayanıqlı iqtisadi modellərə keçid sahəsindəki layihələr olaraq qalır.

Bir məqamı da qeyd edək ki, Avropa İttifaqının maliyyələşdirdiyi və EIB-in JASPERS məsləhət proqramının idarə etdiyi EPIC təşəbbüsü nəqliyyat əlaqələrinin təkmilləşdirilməsi istiqamətində “Şərq Tərəfdaşlığı” ölkələrinə ödənişsiz texniki yardım təklif edir. Bu proqram Avropa Yenidənqurma və İnkişaf Bankı və Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir. Bu sahədə dəstək dəmir yolu, avtomobil, dəniz, hava və multimodal kimi bütün nəqliyyat növlərini əhatə edir. Diqqət mərkəzində dar boğazların aradan qaldırılması, daşınma vaxtı və xərclərinin azaldılması, infrastrukturun iqlim dəyişikliklərinə uyğunlaşdırılması, ekoloji və sosial-iqtisadi nəticələrə nail olmaqdır.

Bu arada, Avropa İnvestisiya Bankı ölkəmizdə dəmir yolu infrastrukturunun səmərəliliyini və təhlükəsizliyini artırmaq üçün konsultativ layihəni başa çatdırıb. Bu istiqamətdə işlər “Şərq Tərəfdaşlığı” ölkələrində nəqliyyat əlaqəliliyinə investisiya üzrə Aİ Təşəbbüsü çərçivəsində aparılıb. Layihənin nəticələrinə əsasən, EIB “Azərbaycan Dəmir Yolları” QSC-yə istismar təhlükəsizliyinin artırılması, səyahət vaxtının, əməliyyat xərclərinin və istixana qazı emissiyalarının azaldılması kimi bir sıra mühüm tövsiyələr təqdim edib.

Bankdan verilən məlumata əsasən, layihənin icrası zamanı əsas diqqət Bakı – Böyük Kəsik marşrutu üzrə dəmir yolu keçidlərində təhlükəsizlik səviyyəsinin artırılmasına yönəldilib. 503 kilometrlik marşrut Bakı şəhərini və Ələt qəsəbəsi yaxınlığında yerləşən Dəniz Ticarət Limanını Gürcüstanın dəmir yolu şəbəkəsi ilə birləşdirərək Qara dənizə çıxışı təmin edir. Bu marşrut Azərbaycanda TEN-T (Trans-Avropa Nəqliyyat Şəbəkələri) şəbəkəsinin bir hissəsidir və Orta Dəhliz boyunca yük daşımaları üçün mühüm əhəmiyyət kəsb edir.

Xatırladaq ki, Avropa İnvestisiya Bankı 1958-ci ildə Roma Anlaşması ilə Avropa İttifaqının hədəflərinin həyata keçirilməsinə dəstək göstərərək investisiyanı maliyyələşdirmək məqsədilə yaradılıb. Avropa İttifaqının üzv dövlətlərinə məxsus olan və uzunmüddətli kreditlər verən bankın əsas məqsədlərinə – infrastrukturun inkişafı, innovasiyalar, ətraf mühitin qorunması, kiçik və orta biznesin dəstəklənməsinə yönəlmiş investisiya layihələrinin həyata keçirilməsi üçün uzunmüddətli kreditlər təqdim edilməsi daxildir.

Bankın ixtisaslaşmış bölməsi olan “EIB Global” isə beynəlxalq tərəfdaşlıq və dayanıqlı inkişafın maliyyələşdirilməsi ilə məşğul olan ixtisaslaşmış qurumdur. Onun prioritetlərinə “Avropa Yaşıl Kursu”nun, “Global Gateway” təşəbbüsünün həyata keçirilməsi, eləcə də inklüziv iqtisadi artımın və iş yerlərinin yaradılmasının dəstəklənməsi daxildir. “EIB Global” ölkəmizdə enerji mənbələrinin şaxələndirilməsinə və dəmir yolu dəhlizləri kimi strateji əhəmiyyətli infrastrukturların modernləşdirilməsinə xüsusi diqqət göstərir, eləcə də dayanıqlı və inklüziv iqtisadi inkişafı dəstəkləyir. Qurumun ixtisaslaşmış bölməsi əməkdaşlığın perspektiv istiqamətlərini müəyyən etmək üçün ölkəmizlə müntəzəm məsləhətləşmələr aparır.

# BP milli idmanımıza himayəsini davam etdirir

**BP şirkəti Azərbaycanın Milli Olimpiya və Milli Paralimpiya komitələri ilə 13 illik rəsmi tərəfdaşlığını 2028-ci ilin sonuna qədər uzadıb. Dünən Bakıda tərəfdaşlıq sazişinin müddətinin uzadılması ilə bağlı imzalanma mərasimi keçirilib.**



Mərasimdə çıxış edən BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli təmsil etdiyi qurumun ölkənin dayanıqlı gələcəyinə və icmaların inkişafına dəstək vermək öhdəliyinin davamlı olduğunu bildirib. Onun sözlərinə görə, BP 30 ildən artıqdır ki, milli komandaların və idmançıların inkişafı və ölkənin iri beynəlxalq tədbirlərdə uğurlu iştirakı üçün daha çox imkanlar yaratmaq məqsədilə Azərbaycanda milli idmana dəstək verən digər tərəflərlə səylərini birləşdirir. B.Aslanbəyli uğurlu tərəfdaşlıq fəaliyyəti ilə yanaşı, BP-nin Azərbaycanın çoxsaylı iri beynəlxalq idman tədbirlərində, turnirlərdə və çempionatlarda iştirakına qürurla dəstək verdiyini diqqətə çatdırıb. Qeyd olunub ki, şirkət bundan sonra da ölkənin dayanıqlı gələcəyinin qurulmasına dəstək öhdəliyinə uyğun olaraq icmaları gücləndirməyə və Azərbaycanda milli idmanın inkişafına töhfələrini davam etdirəcək.

Qeyd edək ki, ilkin tərəfdaşlıq sazişi London Oyunlarından əvvəl 2012-ci ilin yanvarında imzalanıb. O vaxtdan bəri bu sazişin müddəti 2013, 2016 və 2022-ci illərdə olmaqla artıq dördüncü dəfədir ki, uzadılır. 10 ildən çoxdur ki, bu tərəfdaşlıq Azərbaycanda milli idmanın inkişafına dəstək məqsədilə BP-nin hər iki komitə ilə sıx əməkdaşlığı üçün əla imkan yaradıb. İndiyədək bu tərəfdaşlıq çərçivəsində BP Azərbaycanın çoxsaylı iri beynəlxalq idman tədbirlərində, o cümlədən 2012-ci il London Oyunlarında, Bakı 2015 Avropa Oyunlarında, Rio 2016 Oyunlarında, Bakı 2017 İslam Həmrəyliyi Oyunlarında, Tokio 2020 Oyunlarında və Paris 2024 Oyunlarında iştirakını dəstəkləyib.

Tərəfdaşlığın bir hissəsi olaraq BP Azərbaycanın 10 aparıcı olimpiya və paralimpiya idmançısının hazırlığına və 2011–2020-ci illərdə beynəlxalq tədbirlərdə iştirakına dəstək verərək onlar üçün fərdi inkişaf imkanları yaradıb.

Yeri gəlmişkən, Azərbaycanda 33 ildir ki, neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin əməliyyatçısı olan BP şirkəti indiyədək öz tərəfdaşları ilə birlikdə ölkədə icraçısı olduğu layihələrə, təxminən, 85 milyard dollar sərmayə qoyub. Bununla yanaşı, Azərbaycanda ən çox töhfə verə biləcəyinə inandığı sahələrə investisiya yönəlməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək vermək öhdəliyi götürən şirkət əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkədəki sosial sərmayə layihələrinə, ümumilikdə, 111 milyon dollardan çox vəsait xərcləyib.

# Ağsu Aqroparkının bolluğa töhfəsi



**2018-ci ildə yaradılmış Ağsu Aqroparkının əsas fəaliyyət istiqamətlərinə kənd təsərrüfatının heyvandarlıq və bitkiçilik kimi mühüm sahələri daxildir. Ümumi ərazisi 1843 hektar olan aqroparkın layihə dəyəri 18 milyon manatdan çoxdur. Bu il parkın 1843 hektar sahəsində əkin işləri həyata keçirilib. Bunun da 600 hektarını buğda, 600 hektarını arpa, 400 hektarını qarğıdalı, 200 hektarını isə yonca sahələri təşkil edib.**

Ağsu Aqropakında Niderland, ABŞ və İsrail kimi qabaqcıl ölkələrin kənd təsərrüfatı sahəsində olan təcrübəsindən geniş istifadə edilir. Bu da öz növbəsində yüksək keyfiyyətli məhsul əldə etməyə imkan verir. Bununla yanaşı, aqroparkın təsərrüfat sahələrinin suvarılmasında müasir sistemlər tətbiq edilir. Artıq parkın 1500 hektarından çox hissəsində pivotaltı suvarma sistemi quraşdırılıb.

Eyni zamanda, heyvandarlıq təsərrüfatının inkişafına xüsusi önəm verən Ağsu Aqroparkında hazırda 2200-dən çox iribuynuzlu südlük və ətlik heyvan saxlanılır. Aqroparkın heyvandarlıq təsərrüfatında əsasən Avstriya və Almaniyadan olan “Simmental” cinsli heyvanlar bəslənilir. Bu heyvanlar da südvermə qabiliyyətinə görə digər heyvanlardan fərqlənir. Belə ki, bir inək orta hesabla 26 litr süd vermək gücündədir. Yeri gəlmişkən, 2024-cü ildə müəssisədə 4 milyon ton litr süd və 360 ton ət istehsalına nail olunub. Ümumilikdə isə, ötən müddətdə aqroparkda, təqribən, 15 milyon litrdən çox süd istehsal edilib.

Ağsu Aqroparkı əhalinin məşğulluq səviyyəsinin də yüksəldilməsinə mühüm töhfə verən təsərrüfat sahələrindədir. Hazırda burada 200-ə yaxın daimi işçi çalışır. Mövsümdən asılı olaraq isə parkda 240-250 nəfər işlə təmin edilir.

**Maliyyə Nazirliyindən aldığımız məlumata əsasən, cari ilin I rübündə ölkəmizin xəzinədarlıq sistemində 320 mindən çox ödəniş tapşırığı yerinə yetirilib və dövlət büdcəsinin gəlirləri artıqlaması ilə icra edilib. Bu dövrdə dövlət büdcəsinin gəlirləri 9 milyard 733,4 milyon manat (rüblük proqnozdan 171,4 milyon manat və ya 1,8 faiz çox) olub.**

# Büdcə gəlirləri proqnozu üstələyib



Gəlirlərdə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 4 milyard 381 milyon manat, Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 1 milyard 431 milyon manat, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 10,4 milyon manat, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 137 milyon manat və sair daxilolmalar 155 milyon manat təşkil edib. Dövlət Neft Fondundan transfert isə 3 milyard 620 milyon manata çatıb.

2025-ci ilin I rübü üzrə dövlət büdcəsinin xərcləri 8 milyard 280 milyon manat proqnoza qarşı 8 milyard 115 milyon manat, yəni 98 faiz icra edilib. Cari ilin yanvar-fevral aylarında dövlət büdcəsi xərclərinin artıqlaması ilə icra edilməsinə baxmayaraq, mart ayında iş günlərinin sayının az olması səbəbindən (13 iş günü) xərclər I rübün proqnozuna qarşı 2 faiz, yəni 165 milyon manat az yerinə yetirilib.

# Xarici investisiyalar 6 faiz çoxalıb

**Media Təhlil Mərkəzinin (MTM) Mərkəzi Bankın açıqladığı rəsmi rəqəmlər əsasında apardığı təhlil göstərir ki, son 5 ildə Azərbaycan iqtisadiyyatına yatırılan birbaşa xarici investisiyaların həcmi sürətlə çoxalıb. MTM-in bununla bağlı məlumatına əsasən, ümumilikdə, bu dövrdə ölkə iqtisadiyyatına 29 milyard 303 milyon dollar birbaşa xarici investisiya cəlb olunub.**




Rəsmi rəqəmlərə əsasən, son 5 ilin ən yüksək göstəricisi ötən il qeydə alınıb. Belə ki, həmin dövrdə ölkə iqtisadiyyatına cəlb edilən birbaşa xarici investisiyanın həcmi 7 milyard 46 milyon dollar (əvvəlki ilə nisbətən 5,8 faiz və ya 388 milyon 149 min dollar çox) olub.

Son 5 ilin hər birində respublikamıza ən çox birbaşa investisiya yönəldən ölkə Birləşmiş Krallıq olub. Belə ki, 2020-2024-cü illərdə Birləşmiş Krallıqdan ölkə iqtisadiyyatına 8 milyard 633 milyon dollar birbaşa xarici investisiya cəlb olunub. İkinci sırada 5 milyard 26 milyon dollar ilə Türkiyə qərarlaşıb. Üçüncü sırada isə digər türk dövləti – Kipr yer alıb. Son 5 ildə Kiprdən ölkəmizə 2 milyard 909 milyon dollar həcmində birbaşa xarici investisiya cəlb olunub.

Ümumilikdə, sözügedən dövrdə Azərbaycan iqtisadiyyatına 29 milyard 303 milyon dollar birbaşa xarici investisiya cəlb olunub ki, bu məbləğin 88,3 faizi 10 ölkənin payına düşüb.

Ötən ilin göstəricilərinə gəldikdə isə, 2024-cü ildə Birləşmiş Krallıq ölkəmizə 1 milyard 748 milyon dollar investisiya yatırıb ki, bu da həmin ildə cəlb olunan bütün birbaşa xarici investisiyaların 24,8 faizini təşkil edib.

Ötən il 1 milyard 219 milyon dollar həcmində birbaşa investisiya ilə qardaş ölkə Türkiyə ikinci sırada yer alıb. 2024-cü ildə Türkiyənin Azərbaycan iqtisadiyyatına yönləndirdiyi birbaşa investisiyanın həcmi ümumi birbaşa xarici investisiya həcminin 17,3 faizini təşkil edib.

Macarıstan 2024-cü ildə Azərbaycan iqtisadiyyatına 1 milyard 18 milyon dollar birbaşa investisiya yönəltməklə üçüncü olub. Bu ölkədən respublikamıza yönləndirilən ən böyük birbaşa investisiya 2023-cü ildə 197,5 milyon dollar həcmində olub.

Keçən il Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyaların əsas hissəsi – 90,2 faizi son 5 ilin göstəricilərində qeydə alınan 10 ölkənin payına düşüb. Bu ölkələrin Azərbaycana yönləndirdiyi birbaşa investisiyanın həcmi 6,36 milyard dollar təşkil edib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Əziz Əliyevin heykəli hardadır?

## Günün sualı

**Çoxdan ürəyimdə dolaşan bu mövzu barədə düşünəndə böyük şairimiz Rəsul Rzanın 1960-cı illərdə yazdığı "Adi sual " şeiri yadıma düşür:**

**Qorki küçəsində**
**Kitab satılır.**
**Yaxşı!**
**Rustavelidə**
**bol-bol qumaş, ipək.**
**Çox yaxşı!**
**Nizami küçəsindən**
**bir şey almaq istəsək**
**hara gedək,**
**yoldaş şəhərbaşı?**

Bu küçələr imperiyanın paytaxtında idi…

Bir də Rixard Zorgeni xatırlayıram. Əziz Əliyev və Rixard Zorge? Mütənasib müqayisə deyil? Bu barədə bir az sonra. Öncə Zorge barədə: Bakıda doğulmuşdu. Kəşfiyyatçı idi. İkinci Dünya müharibəsində İosif Stalinə iki vacib məlumat ötürmüşdü.

Birincisi – Adolf Hitler iyun ayının 21-də gecə (1941-ci il) SSRİ-yə hücum edəcək. İyunun 20-də bir alman zabiti də SSRİ tərəfə keçib xəbər vermişdi ki, bu gecə hücum olacaq. Həmin axşam Siyasi Büroda bu məlumat müzakirə edilən-də Stalin demişdi ki, bir vacib adam da bu məlumatı təsdiq edir, "vacib adam" deyəndə Rixard Zorgeni nəzərdə tuturmuş... Siyasi Büro qərar verir. Hərbi hissələr qərb sərhədlərində diqqətli olsunlar, bu provakasiya xarakterli ola bilər. Siyasi Büronun iclası bununla bitir, hərə gedir öz evinə. Ancaq Georgi Jukova – Baş Qərargaha gecə saat 12-dən sonra zəng zəng dalınca daxil olur. Jukov gecə saat 3-də İosif Stalinə fasiləsiz zəng çalır, dəstəyi qaldıran olmur, axır ki, növbətçi generalın yuxulu səsi eşidilir. Jukov xahiş edir ki, Stalini telefona çağırsınlar. Üç-dörd dəqiqə sonra Stalinin səsi eşidilir. Jukov aldığı məlumatlar barədə məruzə edir, lakin Stalin susur, telefon dəstəyində yalnız nəfəsi eşidilir. Jukov naəlac qalıb soruşur: "Yoldaş Stalin, Siz məni başa düşdünüz?" – Stalin handan-hana dillənir: "Poskryobışevə (Stalinin köməkçisi) de: Siyasi Büronun üzvlərini çağırsın, sən də öz Xalq Komissarınla gəl Kremlə".

Bir saat sonra Siyasi Büro Kremlə toplaşır. Stalin deyir ki, Almaniya səfirliyinə zəng vurmaq lazımdır. Bu vaxt Poskryobışev otağa daxil olub söyləyir: "Almaniya səfiri gəlib, yoldaş Stalinlə görüşmək istəyir". Stalin Molotova tapşırır ki, onu başqa otaqda qəbul etsin. Molotov çıxır, 5–6 dəqiqə sonra qayıdır və bildirir: "Almaniya bizə müharibə elan edib..."

Stalin halsızlaşır, sarsılır. Onunla sıx işləyənlər deyirlər: "Dörd il ağır, dəhşətli müharibə getdi, o hal Stalində birinci və .... sonuncu idi!" Deməli Zorgenin bu məlumatı kara gəlmədi, heç nə dəyişmədi və müharibə başladı! İlk günlər sovet qoşunlarının faşistlərə müqavimət imkanları, demək olar, sıfıra bərabər idi.

Ancaq Zorgenin 2-ci məlumatı kara gəlir: Moskvanı zəbt etmək istiqamətində kəskin vuruşlar başlayanda məlumat verir: "Əgər Moskva zəbt olunmasa, Yaponiya SSRİ-yə hücum etməyəcək, çünki başı Mancuriyada qarışıb. Stalinə də elə bu dəyərli məlumat çox lazım idi: Vaxtdan istifadə edib Uzaq Şərqdəki hərbi qüvvələrin çoxunu Qərbə, Moskva altına çəkə bilər. (O da yaddan çıxmamalıdır ki, faşistlər Moskvaya yaxınlaşanda Kremldə Stalinin xidmətindən başqa rəhbər işçilər artıq Kuybışevə köçürülmüşdü.Yəni Stalin ona da hazır idi).

1984-cü ildə yazdığım "Marşal Jukov" şeirimdən misralar düşür yada:

**...Stalin zəng çalar gecəyarısı:**
**– Açıq de, Georgi Konstantinoviç,**
**Söylə, Moskvanı saxlaya billik?**
**Qəlbimin başında – ürək ağrısı ...**
**Açıq de, sən əsl kommunist kimi!**
**– Bəli!- Cavab verər Baş Komandana,**
**Göydə şahanə bir ildırım dinər.**
**Hərbdə yalnız inam gərək insana,**
**Onda da qələbə yaxın görünər!**

Əlbəttə, Zorgenin başqa məlumatları da olub, amma dediyim 2-ci məlumat xüsusilə əvəzsiz idi. Zəif cəhətlərsiz deyildi, xüsusilə qadınlara intim münasibətdə. Yaponiya xüsusi xidmət orqanları onu həbs edəndə bu cəhətindən məharətlə yararlandı!

...Zorge güllələnəndən sonra Sovet İttifaqı Qəhrəmanı oldu. İmperiyanın hər yerində tanındı. Bakımızın mərkəzində, gəzməli-görməli gözəl guşələrindən birində adına bağ salındı, möhtəşəm abidəsi ucaldıldı.

Bəri başdan deyim ki, Bakımızda Zorgenin adına bağ salınmasına, heykəlinin ucaldılmasına qəti etirazım yoxdur. O, Bakıda doğulmuşdu, böyümüşdü, milliyyətcə yəhudi idi. Sözümün bu yerində iki məqamı mütləq qeyd etməliyəm: Xalqımız tarixən torpağımızda yaşayan milli və dini azlıqlara səmimi tolerant münasibət bəsləmiş, onların mənəvi özgürlüklərinin, dillərinin, inanclarının, ümumiyyətlə, mənəvi sərvətlərinin qorunub saxlanılması, mədəniyyətlərinin inkişafı üçün gərəkli olan bütün tədbirləri ardıcıl olaraq həyata keçirmişdir. Yəhudilər isə... 2500 il bundan öncə indiki İraqın ərazisindən Azərbaycana (Güney Azərbaycandan Dərbəndədək) qaçqın kimi pənah gətirən bu xalqın övladları ölkəmizin tam hüquqlu vətəndaşları olduqlarını həmişə dəyərləndirmişlər. Ən yeni tariximizdə – 80-ci illərin sonlarından başlanan erməni vandalizminin həyasız təcavüzləri, bir az sonra İrəvanın "ssenarisi" və ödənişi hesabına peyda olan "milli hərəkatlar", ölkəmizi 7 yerə bölmək çağırışları səslənəndə yalnız Azərbaycanda yaşayan yəhudilər deyil, dünyanın hər guşəsində ömür sürən bu xalqın nümayəndələri qətiyyətlə bildirdilər: "Azərbaycan keçmiş SSRİ-də yeganə ölkədir ki, orda heç vaxt antisemitizm, milli və dini azlıqların sıxışdırılması halları baş verməmişdir. Bu təkzibolunmaz həqiqətdir!"

Mən belə çıxışları Qərbdə də, Şərqdə də yüksək kürsülərdən çox dinləmişəm və hədsiz qürur hissləri yaşamışam. Xalqımız ölkəmizin Rixard Zorge, Nobel Mükafatı laureatı Lev Landau (Bakıda onun adını daşıyan küçə var!), Azərbaycanın Milli Qəhrəmanı (halal xoşu olsun – Bakıda ona da möhtəşəm abidə ucaldılıb) Albert Aqarunov kimi oğullarıyla həmişə fəxr edir.

Bəs, Əziz Məmmədkərim oğlu Əliyev? Mən hələ 90-cı illərdə bu dahi şəxsiyyətdən bir neçə esse yazmışam: "Qurucu Əziz", "Əziz Əliyev Dağıstanda", "Odlar Yurdunun və Dağlar diyarının iftixarı"...rus dilində də nəşr olunub. Amma indi görürəm ki, hələ sözüm bitməyib, bəlkə bu sətirlər də bu mövzuda son yazım olmayacaq: İnsan tarixi hadisələrdən, proseslərdən zaman etibarı ilə uzaqlaşdıqca keçmişlərə daha obyektiv nəzərlərlə baxa bilir. Havaxtsa olmuşları, baş vermişləri daha düzgün qiymətləndirir. Bu yerdə bəzi tarixi faktları xatırlamaq yerinə düşər:

– 1942-ci ilin sentyabrında Azərbaycan KP MK-nın katibi Əziz Əliyev Kremlə çağırılır, İosif Stalinlə görüşür, rəhbərin imzaladığı qərarla sentyabrın 16-da ÜİK(b)P Dağıstan Vilayət Komitəsinin 1-ci katibi təyin olunur. Bolşeviklər Partiyası Mərkəzi Komitəsində rəhbər şəxslərlə, xüsusilə İosif Stalinlə görüşdə nə söhbətlər getdiyindən məlumatımız yoxdur, təkcə bir həqiqət gün kimi aydındır. –Əziz Məmmədkərim oğlu vəzifəyə deyil, ölüm-dirim müharibəsinə göndərilirdi və şəksiz, nə Qafqazda onun layiqli alternativi vardı, nə Moskvada (bolşeviklərə layiq olduqları qiyməti vermək lazımdır, onlar kimin nəyə qadir olduqlarını öyrənməmiş heç adi idarə müdiri də təyin etmirdilər. Ağır fəlakətin və amansız, işğal təhlükəsinin qarşısını almaq üçün Əziz Məmmədkərimoğlu müdrikliyi, vətənpərvərliyi, təcrübəsi, savadı, qətiyyəti, xalqa ünsiyyəti, bağlılığı, comərdliliyi gərəkdir! "Demokratik mərkəziyyət prinsipinə əsaslanmış cəmiyyətdə, doğrudan da, hər şeyi əsl kadrlar həll edirdi!

Məsələnin əsl mənası, ağırlığı bir də ondaydı ki, bu cəbhə adi döyüş-vuruş meydanı deyildi, yəni udmaq və ya uduzmaq meyarına sığmırdı, nəhəng imperiya üçün "Ölüm, ya qalım" dilemmasıydı və... alternativsiz bu iki variantdan birincisinin (ölümün) nəticəyə çevrilməsi faşizmin qələbəsini əsaslı surətdə təmin edirdi. (Bakı nefti ələ keçirilirdi və başəriyyət tarixində ən çox ağır texnika işlədilmiş müharibədə sovet əsgərləri tayyarələrin, tankların... qabağına avtomatla, tüfənglə çıxmalı olurdular). Üstəlik, Hitler Bakı neftini qamarlamaq (sağ-salamat zəbt etmək niyyətindəydi. Georgi Jukov Böyük Vətən müharibəsində qələbəmizi təmin edən əsas üç faktoru dönə-dönə vurğulayır: "Sovet əsgərlərinin rəşadəti, Bakı neftçilərinin qəhrəmanlığı və layiqli Ali Baş Komandan!". İosif Stalin öz doğma oğlunun da əsirlikdən xilas olması – sağ qalması üçün heç bir tədbir görmədi. "Feldmarşalı əsgərə dəyişmərəm!"– dedi. Dağıstan zəbt olunsaydı, Bakı Stalinqrada çevriləcəkdi – Azərbaycanı alov bürüyəcəkdi. Ona qədər isə...

Çeçenlərin, inquşların, Ahıska türklərinin, guracayların, Krım tatarlarının... ağlasığmaz deportasiyanı yada salaq. O dəhşət bütün Dağıstan xalqlarının qapısı ağzındaydı – bəlkə Sibirdə çadır qurmağa yer də ayrılmışdı... (Dağıstanın keçmiş ali rəhbərlərindən biri mənə dedi ki, Kremlin Dağıstan xalqlarının sürgün olunması barədə məxfi qərarı da hazır imiş) Belə ağır günlərdə 13 dövlət dilli Dağıstana rəhbərlik etməyin nə demək olmasının əlavə şərhə ehtiyacı yoxdur. Göydə Allah idi, Moskvada Stalin, Dağıstanda – Əziz Məmmədkərimoğlu.

Bəs, işğal astanasına qədər Dağıstan nə gündə idi? Moskva illər boyu bu dağlar diyarının mərd yerli xalqarına inamsız münasibət bəsləmiş, yeni Şeyx Şamil hərəkatının başlayacağından vəlvələyə düşərək muxtar respublikada addımbaşı kobud səhvlərə yol vermiş, əsas vəzifələrə rusları və ermənilərı təyin etmişdi. Dağıstan xalqları isə yerli əhalinin özünəməxsus xüsusiyyətlərindən, mentalitetindən xəbərsiz olan bu gəlmə rəhbərlərə etimad göstərmirdilər. İş o yerə gəlib çatmışdı ki, muxtar respublikanın başçısı N. Linkin qorxusundan nəinki aullara getmir, hətta... heç kabinetindən çıxa bilmirdi. Dağıstanda kütləvi fərarilik problemi Siyasi Büroda tez-tez hallanırdı. Mərkəzin yüksək mənsəb sahibləri, o sıradan Lavrenti Beriya Mahaçqalaya gəlib guya ağır problemin mahiyyətindən xəbərsiz kimi, "maddım-maddım" soruşurdu: "Bu (N.Linkin) niyə aullara gedib camaatla görüşə bilmir?" Elə Beriyanın özü də Vilayət Partiya Komitəsinin binasından kənara bir addım da atmaqdan qorxur, gəldiyi miniyə minib, güclü təhlükəsizlik muhafizəsinin nəzarəti altında geri qayıdırdı...

Fəlakətin bir addımlığında olduğunu muxtar respublikanın əhalisi də açıq-aydın görürdü. Dağıstanın şimalında cəbhəyə yaxın aullar boşalmışdı. Oralarda rəhbər işçilərdən başqa kimsə qalmamışdı. Əziz Əliyev öncə ağsaqqallarla görüşdü. Dözülməz, son dərəcədə təhlükəli vəziyyəti geniş müzakirə etdi. Dağlıların hörmətli adamlarını inandırdı ki, düşmən Dağıstanın bir qarış torpağını da tapdalaya bilməyəcək. Belə ekstremal məqamlarda xalq diplomatiyasının təsiri güclü olur. Bu baxımdan 27–28 noyabr 1942-ci ildə keçirilən tanınmış ağsaqqaların və Qırmızı Partizanların Respublika müşavirəsi Dağıstanın müdafiəsinin təşkilində xalqın inamının özünə qaytarılmasında, mərkəzin günahından yaranmış etimadsızlığın aradan qaldırılmasında mühüm tarixi rol oynadı. Bu geniş, dəyərli müşavirədən sonra ağsaqqallar Əziz Məmmədkərimoğlu ilə, məsul vəzifəli işçilərlə birlikdə bölgələrə yollandılar, camaatla görüşdülər. Aulların, qəsəbələrin, şəhərlərin əvvəlki ahəngi bərpa olundu. Kənd təsərrüfatından sonra sənaye müəssələrində iş başlandı. Ritmik istehsalat prosesləri təmin edildi. Dağıstanda ağsaqqalların fəaliyyəti bütün Qafqaza yayıldı. Onların gücündən bütün regionda vəziyyəti sabitləşdirmək, mərkəzlə bölgə arasında inamsızlığı aradan qaldırmaq üçün geniş istifadə edildi. Məsələn, sonralar müxtəlif dağlı xalqları təmsil edən ağsaqqallar camaatla iş aparmaq üçün Kabardin-Balkarın düşmən tapdağından azad edilmiş yaşayış məntəqələrinə göndərildilər.

Əziz Əliyev müdafiənin və çoxsaylı digər problemlərin həllilə məşğul olmaqla yanaşı, Mahaçqala Müdafiə Komitəsinin sədri, 47-ci, sonra 58-ci Ordunun Hərbi Şurasının, həm də Bakı Dairəsi Hava Hücumundan Müdafiə Qüvvələri Hərbi Şurasının üzvü kimi səmərəli, qətiyyətli fəaliyyət göstərirdi. Mahaçqala Müdafiə Şurasının sədri kimi Dağıstanın müdafiəsini möhkəmləndirmək, bu diyarı və bütün Cənubi Qafqaz respublikalarını düşmən işğalından xilas etmək, onların xalqını, milyonlarla insanı, əsrlər boyunca yaranmış milli mədəniyyət abidələrini qoruyub yaşatmaq demək idi. Həyatını təhlükə altına qoyaraq Moskva üçün ən təhlükəli, Dağıstan üçün ən müqəddəs sayılan Şeyx Şamil hərəkatına müdrikcəsinə yanaşdı, bu böyük qafqazlıya müsbət münasibətini gizlətmədi. İgidlik və mərdanəlik tələb edən bu münasibət onun üçün çox kədərli və hətta faciəli sonluqla bitə bilərdi. Az sonra, 1951-ci ildə böyük Azərbaycan mütəfəkkiri Heydər Hüseynovun Şeyx Şamilə həsr etdiyi monoqrafiyaya görə respublikanın o zamankı "xozeyni" M. Bağırov tərəfindən təhdid olunması böyük filosof-alimin ölümü ilə nəticələndi. Xatirələrdə oxuyuruq: "...Rəsul Məmmədov o vaxtlar Şamil haqqında əsər yazmışdı. Bu o vaxt ki, əsər ictimaiyyət tərəfindən çox pis qarşılandı. Əziz Əliyev bu əsəri oxuyandan sonra hay-küyə son qoydu. Əsəri və müəllifi müdafiə etdi. Rəsul Məmmədovu hərbidən, əsgərlikdən çağırtdırıb, maarif naziri təyin etdi. Bu sonsuz cəsarətin və qəhrəmanlığın nə ilə qurtaracağı heç kəsə məlum deyildi. Lakin hərtərəfli savadına, təfəkkürünə, eyni zamanda, cəsarətinə və qəhrəmanlığına görə Əziz Əliyev hər cür yüksək mükafat, fəxri ad, vəzifədən ucada dayanırdı.

Əziz Əliyev Dağıstanda işlədiyi 6 ildə ağır ekstremal problemləri böyük səylə və bacarıqla həll etməklə yanaşı, o vaxtacan pəşəkar rəhbərlərə, mütəxəssislərə ciddi ehtiyacı olan dağlar diyarında bacarıqlı, yüksək təşkilatçılıq qabiliyyətinə malik kadrlar yetişdirdi və bu sahədə güclü məktəb yaratdı. Əziz Məmmədkərimoğlu sonra Dağıstana uzun müddət rəhbərlik etmiş Məhəmmədsalam Umaxanovdan başlamış, Məhəmmədəli Məhəmmədova, Muxu Əliyevəcən rəhbər işçilərin öz uğurlu fəaliyyətlərinə görə, ilk növbədə, böyük şəxsiyyətin ruhuna minnətdardırlar.

Qonşu diyarın da böyük oğlu sayılan Əziz Əliyevin doğum gününün 100 illiyi Mahaçqalada qeyd edildi. Dağıstanın Xalq Məclisinin sədri və sonrakı Prezidenti Muxu Əliyevin dedikləri heç yadımdan çıxmır. Muxu Qımbətoğlu kommunist rejimi dönəmində Dağıstanda Vilayət Partiya Komitəsinin rəhbərliyinə gələndə ona qədər Dağıstana başçılıq etmiş şəxslərin fəaliyyətini öyrənməkdən başlayır. Əsas məsələ kimin Dağıstan üçün nə iş gördüyü marağıydı. Əziz Əliyevin qeyri-adi fəaliyyəti, dağlar diyarı üçün gördüyü qlobal işlər indiyə qədər də onu heyrətləndirir. Deyirdi ki, müharibə vaxtı rəhbərdən yalnız cəbhəyə kömək etmək, iqtisadiyyatı yaşatmaq və əhalinin minimum ehtiyaclarını ödəmək tələb olunur. Əziz Məmmədkərimoğlu bütün bu vəzifələri ləyaqətlə yerinə yetirməklə yanaşı, milli kadrların hazırlanmasından başlamış, elmin, mədəniyyətin, təhsilin dirçəlişi, insanların sosial rifahının yaxşılaşdırılması və bütün sahələrlə geniş məşğul olmağa imkan tapıb. Çox da böyük olmayan zaman kəsiyində Dağıstanın həm o dövrü, həm də gələcəyi ilə bağlı tarixi problemləri həll edib.

Bu yerdə Georgi Rukovun İosif Stalin haqqında, Stalinin dünya müharibəsindəki fəaliyyəti ilə bağlı dediyi sözlər yada düşür: "Layiqli Ali Baş Komandan idi. Bacarığı və tələbkarlığı ilə, demək olar ki, mümkün olmayan işləri həyata keçirirdi". Dağıstanlılar da Əziz Məmmədkərimoğlunun diyardakı xilaskarlıq missiyasını unutmurlar. O vaxtdan nəsillər dəyişsə də, bugünəcən xoş təəssüratlar minnətdarlıqla xatırlanır.

Mənim məhəbbətlə 90-cı illərin əvvəllərindən başlayaraq dağlar diyarına ardıcıl tutduğum vəzifələrin xidməti işləriylə bağlı səfərlərim olub, bəzən ayda iki dəfə ora getməli olurdum. Çox yüksək tədbirlərdə, toplantılarda iştirak etmişəm, dinləmişəm, öz çıxışlarım da olub. Ancaq Şeyx Şamilin 200 illik və Əziz Əliyevin 100 illik yubileylərindəki ümumxalq sevgisini, coşqusunu başqa heç bir tədbirdə görməmişəm.

Yubiley günlərində Əziz Əliyevin Dağıstana rəhbərlik etdiyi illərdə yaşadığı evin divarında xatirə lövhəsinin açılışı, eləcə də Kaspiysk şəhərindəki Tibb Texnikumuna onun adının verilməsi və büstünün açılışındakı çıxışlar unudulmazdır. Axşam isə Mahaçqalada – şəhərin ən böyük və nüfuzlu salonlarından biri olan Rusiya Dövlət Dram Teatrının binasında keçirilən zirvə tədbiri, bütün Dağıstan xalqlarının milli bayramını xatırladırdı. Bir məqam var ki, heç vaxt gözümün önündən getmir: bu tədbirlər zamanı, eləcə də şəhərdə sadəcə addımlayarkən, insanlar nümayəndə heyətimizdə olan akademik Cəmil Əliyevi göstərərək bir-birlərinə pıçıldayırdılar: "Əziz Məmmədkərimoğlunun oğludur…"Bu da xalq sevgisinin ən gözəl ifadəsi idi.

Bakıya "Qəhrəman şəhər" adı verilməməsinin də həlledici amili SSRİ rəhbərliyində müəyyən dairələrin qısqanclığı olsa da, paytaxtımızın və bütövlükdə, Azərbaycanın 9 May qələbəsində əvəzsiz xidmətləri olduğunu bütün dünya biləcək. Söhbət yalnız gecəli-gündüzlü istehsal edilən sənaye və kənd təsərrüfatı məhsullarından getmir. O sınaq illərində Azərbaycan 300 mindən çox oğul və qızını itirmişdir və bu, əhalisinin say etibarilə nisbətdə götürülsə, ərazisi bütövlükdə işğal olunmuş Belarusun itkiləri qədərdir. Dağıstan da çox şey itirdi. Amma bizi işğal edə bilmədilər. Xalqlarımız Sibirlərə göndərilmədi. Milliliyimiz, mənliyimiz, özgürlüyümüz, tariximiz yaşadı. Təkcə buna görə məzarları Qafqazdan Budapeştə, Praqaya, Berlinə qədər səpələnmiş eloğullarımızın xatirəsi önündə ehtiramla baş əyərək hamımız – azərbaycanlılar də, dağıstanlılar da – Əziz Məmmədkərim oğlunun ruhuna hədsiz minnətdar olmalıyıq.

O vaxtlar Sovetlər Birliyi yalnız Jukov, Vasilevski, Rokossovski ilə deyil, eyni zamanda bütün respublikaların Əziz Məmmədkərimoğlu kimi qəhrəman övladları ilə qüdrətli idi. Məhz bu övladların mənəvi birliyi və əzmi müharibənin gedişində Hitler üçün ən gözlənilməz zərbə oldu. Və onu biabırcasına məğlubiyyətə məhkum elədi. Təkcə faşistlər deyil, bütün dünya başa düşdü, etiraf etdi. İosif Stalin Qələbə paradında üzünü hərbçilərə tutaraq əbəs yerə deməmişdi: "Bütün dünya sizə baxır!!!" Nikita Xruşşovun səbatsızlığı və volyuntarizmi bir çox vacib mənaların üzərindən xətt çəkdiyi kimi, xalqların yaxınlığı və birliyi prosesində də əngələ çevrildi. Əks istiqamətlər və parçalanmalar yarandı. Bu kimi hallarda cəmiyyətdə çatlar yaranır, ziddiyyətlər formalaşır və bütün bunlar ilk növbədə təmiz, günahsız insanların həyatına təsir edir, ömürlərini zədələyir.

Əziz Əliyev Dağıstan Muxtar Respublikasına rəhbərlik etdiyi illərdə, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün dağlıların həyatında yeni bir mərhələnin əsasını qoydu. Eyni zamanda, Dağıstandakı fəaliyyəti ilə o, böyük daxili mənini üzə çıxara bildi. Dahi şəxsiyyət, müdrik və uzaqgörən rəhbər, qüdrətli təşkilatçı və əvəzsiz dövlət xadimi olduğunu sübut etdi. Bəs öncəki çağlar? Bəs Dağıstan həyatına qədər? İrəvanda keçən uşaqlıq illəri, Sankt-Peterburqda ali tibb təhsili aldığı gənclik çağları, daha sonra yaşadığı qaçqınlıq taleyi və nəhayət, Bakıda və Təbrizdə göstərdiyi əvəzsiz xidmətlərinin hər biri ayrıca mövzudur. Bakıda çalışdığı məsul vəzifələrdə əvəzsiz fəaliyyətinə görə hamı onu "təcili yardım", "cəmiyyətin loğmanı", "qurucu Əziz", "Qeyri-adi insan", ya da sadəcə "Əziz müəllim" kimi tanıdı və sevdi.

Əziz Məmmədkərim oğlu Əliyev dəfələrlə SSRİ-nin, Azərbaycan SSR-in, Dağıstan MSSR-in ali sovetlərinin deputatı olmuş, yüksək partiya orqanlarının tərkibinə seçilmiş, iki dəfə Lenin ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni, bir çox başqa dövlət mükafatları ilə təltif edilmişdir. Lakin ən yüksək deputat mandatları və nişanları, ordenlər və fəxri adlar (ən ucası olsa da) böyük simaların həyatını, fəaliyyətini bütünlüklə əks etdirə bilmir. Əziz Məmmədkərimoğlunun ən böyük mükafatı, qiyməti iki qardaş ölkə xalqlarının ona sonsuz məhəbbəti, ən fəxri adı isə – Azərbaycanda və Dağıstanda qurub yaratdıqlarıdır. Ümummilli liderimiz Heydər Əliyevin sözləri ilə desək, Əziz Əliyev Azərbaycan və Dağıstan xalqlarının əbədi dostluğunun simvoludur.

Yenə Rəsul Rzanın "Adi sual"ı yada düşür. Ancaq böyük şairimizin sualının cavabı çoxdan tapıldı. Ulu öndərimizin səyləri ilə Moskvada dahi Nizaminin adına küçə verildi. Moskvada illah böyük bir küçənin mərkəzində, Azərbaycan Səfirliyinin binası önündəki mənzərəli bağda heykəli ucaldıldı.

Bəs görəsən, Bakıda Əziz Əliyevin heykəli haradadır, cənab şəhər icra hakimiyyətinin başçısı!

Bəlkə... barı Böyük Qələbəmizin 80 illiyi günü çoxdan ürəklərdə əbədiləşmiş bu alternativsiz heykəlin, heç olmasa, təməlini qoyaq?!

7 aprel 2025-ci il



**Hidayət,**
**Əməkdar incəsənət xadimi**

# Leyla və Arzu Əliyevalar gənc arıçılarla görüşüblər





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva aprelin 8-də Qəbələdə "Gənc arıçı" layihəsinin iki iştirakçısının evini ziyarət ediblər.

IDEA İctimai Birliyindən verilən məlumata görə, Leyla Əliyeva görüşdə gənc arıçı ailələri ilə səmimi söhbət edib, fəaliyyətləri ilə maraqlanıb, arıçılıq sahəsindəki ilk təcrübə və məhsuldarlıqla bağlı təəssüratlarını dinləyib.

Öz növbəsində, layihə iştirakçıları Zəlikə Məmmədova və Rəfiqə Maxsudova, eləcə də onların ailə üzvləri göstərdiyi diqqət və dəstəyə görə Leyla Əliyevaya minnətdarlığını bildirib, süzdükləri təbii balı layihənin xüsusi qablaşdırmasında hədiyyə ediblər.

Qeyd edək ki, 2021-ci ildən başlayaraq IDEA İctimai Birliyinin təşəbbüsü və Azərbaycan Respublikasının Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və ABAD publik hüquqi şəxsin tərəfdaşlığı ilə həyata keçirilən "Gənc arıçı" layihəsi çərçivəsində ölkənin müxtəlif bölgələrindən olan 60-dan çox gənc ailəyə arıçılıq təsərrüfatının yaradılmasında dəstək göstərilib.

Məqsədi biomüxtəlifliyin qorunmasına töhfə vermək, arıçılıq təsərrüfatının ekosahibkarlıq növü kimi yayılmasını








təşviq etmək, təbii bal istehsalını dəstəkləmək və gənc ailələrin maddi rifahını yaxşılaşdırmaq olan layihə çərçivəsində seçilən gənclərə peşəkar mütəxəssislərin iştirakı ilə bir aylıq təlim keçirilib. Təlimləri başa vuran gənclər arıçılıq təsərrüfatı üçün lazımi arı ailəsi və pətəkləri, arıçı geyimi, balsüzən aparat və digər ləvazimatlarla tam təchiz olunublar və onlara səmərəli fəaliyyətləri istiqamətində lazımi şərait yaradılıb.

Gənc arıçılar, həmçinin məhsulların sertifikatlaşdırılması, brendləşdirilməsi, dizaynı və satışının təşkili dəstəyi ilə təmin ediləcəklər. Bu addımlar bazar iqtisadiyyatı şəraitində rəqabətədavamlı bal istehsalı mərhələsinə çatması üçün gənc arıçıların öz məhsullarını geniş müştəri bazarına çıxarmalarına və satışın səmərəli təşkilinə xidmət edəcək.

Beynəlxalq həyat



# ABŞ Şərqi Avropadan geri çəkilirmi?

(əvvəli 1-ci səhifədə)

Bu arada ABŞ Prezidenti Donald Tramp ölkəsinin Şərqi Avropada hərbi iştirakını azaltmağa qərar verib. Qərb mediası yazır ki, Pentaqon hazırda Şərqi Avropadan 10 min nəfərədək hərbçinin çıxarılması imkanını nəzərdən keçirir. Xəbəri BBC yayıb.

Qeyd edək ki, 2022-ci ildə Co Bayden administrasiyası Rusiyanın Ukraynaya hücumundan bir müddət sonra Ukrayna ilə həmsərhəd ölkələrə 20 min nəfərlik hərbi kontingent göndərmişdi. İndi həmin hərbçilərin, təxminən, yarısı geri qaytarılacaq.

Polşanın müdafiə naziri Vladislav Kosinyak-Kamış "Polsat" telekanalına müsahibəsində bildirib ki, bu ölkənin Jeşuv şəhərindəki ABŞ hərbi kontingentinin istifadə etdiyi hərbi texnikanın bir hissəsi elə orada qalacaq. "Abrams" tanklarına xidmət göstərilməsi üçün istifadə olunan avadanlıq artıq lazım deyil, çünki Kiyevə hərbi yardım göndərən dövlətlər Ukraynada texnikaya özləri xidmət göstərir", - deyə o əlavə edib.

Nazir dəqiqləşdirib ki, Jeşuvda bir neçə yüz amerikalı hərbçi yerləşdirilmişdi, indi onlar Polşada başqa hərbi bazalara köçürüləcəklər. Siyasətçi həmçinin Polşa hakimiyyətinin ABŞ kontingentinin Jeşuvdan çıxarılması barədə əvvəlcədən məlumat verməməsinə aydınlıq gətirib: "Biz bunu edə bilməzdik, amerikalılar bunu çox ciddi şəkildə xahiş etmişdilər".

Varşava özünün təhlükəsizliyi ilə bağlı konkret addımlar atmağa başlayıb. İlk növbədə, ölkədə əsgər sayını artırmaq məsələsi gündəmə gətirilib. Baş nazir Donald Tusk jurnalistlərə açıqlamasında bildirib ki, rəsmi Varşava mümkün təhdidləri nəzərə alaraq, Polşada məcburi hərbi mükəlləfiyyəti bərpa etmək planı üzərində işləyir.

Polşanın Silahlı Qüvvələri artıq 3 ildən çoxdur ki, qonşusu Ukrayna ilə müharibə aparan Rusiya ilə müqayisədə xeyli azdır. Son məlumatlara görə, hazırda Rusiyanın 1,3 milyon, Ukraynanın isə 800 min hərbçisi olduğu halda, Polşanın yalnız 200 min civarında əsgər və zabiti var. Varşava ölkədə silahlı qüvvələrin sayını azı 500 minə çatdırmaq istəyir.

Təhlilçilər qeyd edirlər ki, 2022-ci il fevralın 24-də Rusiyanın Ukraynaya hərbi müdaxiləsindən sonra bir çox Avropa ölkələrinin hərbi çağırışa baxışı dəyişib. Xüsusilə də coğrafi baxımdan Rusiyaya daha yaxın olan dövlətlər silahlı qüvvələrini gücləndirmək istəyirlər.

Qeyd edək ki, Latviya da hərbi kontingentini artırmağı planlaşdırır. 2006-cı ildə məcburi hərbi xidməti ləğv etmiş bu Baltikyanı ölkə 2023-cü ildən etibarən, kişilər üçün 11 aylıq məcburi əsgərlik başladıb. Latviyalı qadınlar könüllü olaraq hərbi xidmətə gedə bilərlər.

Latviyanın Baş naziri Edgars Rinkevics bir müddət əvvəl mediaya açıqlamasında bildirib ki, yaxın gələcəkdə digər bir neçə Avropa ölkəsi də eyni addımı atmalı olacaq. Belə ki, Qərbi Avropada bir çox dövlətlər İkinci Dünya və "soyuq" müharibələrdən sonra hərbi xidmətə məcburi çağırışı ləğv ediblər.

Lakin qitədə bu modeldən əl çəkməyən ölkələr də var. Məsələn, son illər ərzində Ukrayna, Litva, İsveç və Latviya da məcburi əsgərliyi bərpa edib. Məlum olduğu kimi, ABŞ administrasiyası "köhnə qitə"dəki "müttəfiqlərinin" öz milli təhlükəsizliklərinin qayğısına özlərinin qalmalı olduğunu bildirib.

Yeri gəlmişkən, Ağ evin bu tələbi NATO-nun gələcək taleyini sual altında qoyur. Düzdür, bu günlərdə ABŞ-ın dövlət katibi Marko Rubio vurğulayıb ki, Vaşinqton alyansın tarix səhnəsindən yox olmasını istəmir, əksinə alyansın güclənməsində maraqlıdır. Amma vəd ayrı, əməl ayrıdır. Reallıq budur ki, NATO Avropada əsgər sayını, deməli əvvəlki qüdrətini itirir.

İki gün əvvəl Ağ evin yeni administrasiyası təxminən 1 trilyon dollar məbləğində müdafiə büdcəsini təsdiqləyib. Prezident Donald Tramp bildirib: "Biz pula qənaət edirik, lakin ordu qurmağa ehtiyacımız var və güclü olmalıyıq. Çünki indi ətrafda çox pis qüvvələr var!" D.Tramp belə bir faktı da əlavə edib ki, bu, ABŞ-ın ordu üçün indiyədək qəbul etdiyi ən böyük büdcə olacaq.

Rusiya–Ukrayna müharibəsində isə vəziyyət günbəgün pisləşir. Ukrayna Silahlı Qüvvələrinin baş komandanı Aleksandr Sırski "LB.ua"ya müsahibəsində bildirib ki, Rusiya Ordusu Sumı və Xarkov vilayətlərinə genişmiqyaslı yeni hücuma başlayıb. Moskva isə bildirib ki, dünən Rusiyanın 11 regionu üzərində 158 PUA zərəsizləşdirilib. Hər iki tərəfdən ciddi dağıntılar və canlı itkilərin olduğu bildirilir.

***Məsaim ABDULLAYEV***
***XQ***

Zəfər yolçuları

# O, indi təkcə mənim qardaşım deyil

## *Araz kimi coşqun, nisgilli Araz qardaşımın əziz xatirəsinə*




**O gün baharın nəfəsi tutuldu, göy üzü qara bağladı, buludlar qan ağladı ki, ürəyi boşalsın...**

O gün göz yaşları göləndi, selləndi, axıb-axıb Araza qarışdı. Araz bulandı, aldığı qara xəbərdən qaraldı, yatağına sığmaz oldu! Bu dəfə ömrünün iyirmicə yaşında şəhadətə qovuşmuş adaşı üçün coşdu Araz, daşdı – qəzəbini günahsız sahillərinin üstünə tökdü...

Uca yaradan o gün – aprelin 10-da bir ananın ürəyinin dağlanmasına, bir atanın qəddinin əyilməsinə, bir bacının üzünə əl atıb al-qana bələməsinə, üç qardaşın heyinin-hayının kəsilməsinə necə qıydı, 2000-ci ilin evimizə qara gəlmiş baharı niyə qara qışa çevrildi?!

O gün illər öncə gördüyüm yuxunun gerçək olacağı gün imiş. Mən balaca, dünya hələ gözəl olanda görmüşdüm ki, əlimin 5 barmağından biri – şəhadət barmağım qopub aralaşır, nə qədər çalışıram yerinə qaytara bilmirəm. Uşaq fəhmimlə bunun yaxşı yuxu olmadığını anlamışdım.

Bəlkə, inanmayacaqsınız, ancaq yenə elə onda uşaq fəhmimlə 3 qardaşımın, 1 bacımın qayğısı dolmuşdu ürəyimə. Yaşına görə şəhadət barmağım Arazı şəhadət verirdi...

O gün bir yalanla aldadıb Gəncəyə, Hacıkənddə sığındığımız "evimizə", doğmaların yanına aparmışdılar bizi. Nənəmiz xəstələnibmiş, guya. Ağsunun dolaylarında qarşımızı duman kəsmişdi. Gündüzümüzü zülmət, yolları görünməz eləmişdi. Elə bil, sonunda eşidəcəyimiz xəbərə, tökəcəyimiz göz yaşlarına görə yazığı gəldiyi üçün sonsuza çevirmək istəmişdi yolumuzu. Kaş ki, elə belə olaydı...

O gün nur üzlü, gözəl üzlü, gözəl qəlbli Arazımızı öz yanına apardığı üçün qeyri-iradi Allaha üz tutub nalə çəkmişdim. Bəlkə harayıma hay verər ümidiylə "qardaşşş!", – deyə səsim tutulana qədər hayqırmaq istəmişdim...

Mənə "Arazın məzar daşına bir bənd şeir yaz" deyənlər heç düşünmədinizmi ki, qardaşının toy dəvətnaməsi yerinə qəbri üstünə şeir yazmaq necə dəhşətlidir?!

Söz-söz tükənirdim, misra-misra ağlayırdım, bənd-bənd çarəsizləşirdim, vərəq-vərəq əzilib atılırdım. Və qəfildən əvvəlki kimi əlini kürəyimdə, ətirli nəfəsini üzümdə hiss elədim. Qulağıma pıçıldadı nə yazmalı olduğumu:

***Bir qərib şəhidəm, yaralı ruham***
***Soldu bəxt çiçəyim ilk bahar çağı...***
***Dostlar, məzarıma söyləyin barı***
***Azad edən kimi siz Qarabağı!***

Gəncənin Şəhidlər xiyabanı böyüyüb, qardaş! Yəqin, elə ilk müjdəni də torpaq uğrunda can verib, qonşuluğunda torpağa əmanət edilən müqəddəslər vermişdilər sənə. Çox şükür, Vətənimiz azad, ruhun şaddır illər sonra! Kosalara –Xocalı rayonunda doğulub-böyüdüyümüz kəndimizə getmişdim bu yaxınlarda. Tanınmayacaq qədər dəyişib. İtirdiyimiz uşaqlığımızı, o qayğısız günlərimizi və səni axtardım hər yerdə. Çox axtardım, çox aradım və bir anda mənə elə gəldi ki, yenə səssizcə gəlib əlini kürəyimə söykədin, "daha mənə görə ağlamayın, hüzura qovuşmuşam, – dedin.

Yenə hayıma, harayıma çatdın, yenə təsəlli verdin. İnandım ki, məqamın uca, yerin cənnətdir, daha qərib deyilsən, aramızdan Araza kimi axıb gedən Arazım! Şəhadət günün mübarək, qardaş! Səni unutmamışıq, unutmayacağıq!..

Sən əvvəl biz 2 qardaş, 1 bacının qardaşı idin. 25 ildir ki, ölkəmizdə milyonlarla nəsildaşının, bütün qardaş-bacıların qardaşısan.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

Azərbaycan Milli Mətbuatı – 150

**Böyük maarifçi-demokrat, təbiətşünas Həsən bəy Zərdabinin naşirliyi və redaktorluğu ilə 1875-ci ildə nəşrə başlamış "Əkinçi" qəzeti Azərbaycan cəmiyyətinin qaranlıqlarına işıq salaraq milli oyanış və tərəqqi ideyalarının yayılmasında canlanma yaradıb. XIX əsrin sonları və XX əsrin əvvəllərində ölkəmizdə müxtəlif baxışları əks etdirən bir sıra mətbu nəşrlər meydana gəlib. Sovet dövründə mətbuat dövlətin nəzarətində olsa da, "Əkinçi"dən su içən yazılı mediamız milli mədəniyyətin və dilin qorunmasında, sosial məsələlərin işıqlandırılmasında önəmli rol oynayıb. Demokratik jurnalistikamızın ənənələri üzərində bu gün Azərbaycan mediası inkişaf edir, rəqəmsal platformalar vasitəsilə geniş auditoriyaya xidmət edir. Milli mətbuatın 150 illik yubileyi ərəfəsində Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının professoru Həmid Vəliyevlə həmsöhbət olduq.**

# Jurnalistikamız vətəndaşlıq ənənəsinə sadiqdir

***– Həmid müəllim, "Əkinçi"dən başlayan milli mətbuatımızın əsr yarımlıq yubileyi ərəfəsində bu şanlı tarixə nəzər salsaq, ilk növbədə, nələri qeyd etmək olar?***

– Həsən bəy Zərdabinin redaktorluğu ilə "Əkinçi"nin nəşrə başlaması və Azərbaycan jurnalistikasının əsasının qoyulması yerli və beynəlxalq səviyyədə, həqiqətən də, böyük hadisə idi. Çünki qəzetin əks-sədası dünyanın müxtəlif ölkələrindən eşidilirdi. "Əkinçi"nin səhifələrində hadisələr, xüsusilə də beynəlxalq məsələlər yüksək dəqiqlik və həssaslıqla işıqlandırılıb. Bu qəzet həm də fərdi jurnalistikanın əsasını qoyub.



***– "Əkinçi" qəzetindən 65 il sonra dünyaya gəlmiş və hazırda 85 yaşı olan professor-jurnalist Həmid Vəliyev özündən əvvəlki və sonrakı mətbuatımızın uğurlarını nədə görür? Sizcə, mətbuat tariximiz yetərincə tədqiq olunubmu?***

– Bu gün jurnalistikamızın müəyyən tədqiqat problemi var. Xüsusən də, mətbuat tariximizlə bağlı araşdırılmayan xeyli məsələ qalıb. Keçən onilliklər ərzində mətbuat tariximizi daha yüksək səviyyədə tədqiq edə bilərdik. Mükəmməl mətbuat tarixi dərsliyinə və tədris vəsaitlərinə tələbat da bu sahədə boşluğu göstərir. Müxtəlif illərdə mətbuat tariximizin müəyyən səhifələrini işıqlandıran vəsaitlər yazılıb. Fakültəmizin keçmiş dekanı, mərhum dosent Nəriman Zeynalovun 2 kitabçası, "Şərq" qəzetinin redaktoru Akif Aşırlının 2 cildliyi indi kifayət eləmir.

Bölgələrimizdə də qəzetlər, almanaxlar buraxılıb. Bəziləri barədə məlumat yoxdur, olanlar isə bir-iki cümlə ilə tamamlanır. Qərbi Azərbaycanda çıxmış mətbuat orqanları da öyrənilməlidir. Onları vaxtında işləmək, tədqiqata cəlb etmək lazım idi. 1832-ci ildən Azərbaycan dilində çıxan "Tiflis əxbarı" qəzetini də indiyədək axtarıb tapmaq olardı.



Bizim fakültədə əhatəli mətbuat tarixi dərsliyinin yazılması ilə bağlı təşəbbüslər olub. Məsələn, mərhum professor Şirməmməd Hüseynov Azərbaycan mətbuat tarixi dərsliyinin yazılması ilə bağlı plan hazırlamış, hər birimizə mövzular vermişdi. Bu iş axıra çatdırılmadı. Üzdə olmuş mətbuat orqanları barəsində daha çox yazmışıq, digərlərini unutmuşuq.

"Əkinçi" qəzetinin 150 illiyi mətbuata bağlı olan hər bir insan üçün hesabatdır. Deyə bilərəm ki, mən də bu sahədə müəyyən işlər görmüşəm. Çalışmışam ki, tədris etdiyim fənnin dərsliyi, dərs vəsaiti olsun. Jurnalistika fakültəsində ixtisas fənləri arasında ən çətini xarici ölkələrin jurnalistikası tarixidir.

Bu dərsliyi yazarkən qarşıma 3 məqsəd qoymuşdum. Birincisi xarici ölkələrin mətbuat tarixində İslam aləminə, ikincisi Türk dünyasına olan münasibət, üçüncüsü isə azərbaycançılıq mövzusunun dünya jurnalistikasında necə işıqlandırılması önəmli idi.

Fransız yazıçısı Onere de Balzakın əvəzsiz jurnalistika fəaliyyəti olub. O, Fransa və Böyük Britaniya jurnalistikasını araşdıraraq bu nəticəyə gəlib ki, fransız jurnalisti əvvəl jurnalistdir, sonra fransız. Bu o deməkdir ki, jurnalist qarşısına çıxan hər məsələni tərəfsiz və obyektiv işıqlandırmağa borcludur. Onun üçün informasiyanın ölkəsinin ziyanına olması önəmli deyil. Lakin ingilis jurnalisti birinci vətəndaşdır, sonra jurnalist. Əlindəki informasiyanı ölçüb-biçir, vətəndaş mövqeyini önə çəkir və ölkəsi üçün ziyanlıdırsa, yazmır.

Mən də bu qənaətdəyəm və tələbələrimə deyirəm ki, Azərbaycan jurnalisti öncə azərbaycanlıdır, sonra jurnalist. Çünki ətrafımız düşmənlərlə doludur. Biz jurnalistlər onlara ziyanımıza olan informasiyaları ötürməməliyik.

Bizim məzunların hazırladığı xəbərlər, müsahibələr, reportajlar jurnalist sənətkarlığı prinsiplərinə əsaslanır. Jurnalistlərimiz ölkəmizin çətin anlarında peşə etikası ilə yanaşı, yüksək vətəndaşlıq nümayiş etdirərək ölkəmizin maraqlarını qoruyublar. Bu məhz "Əkinçi"dən, mətbuat tariximizdən gələn ənənədir.

***– Çağdaş medianın dəyişən tələbləri fonunda jurnalist təhsili necə qurulub?***

– Yeniləşmə var, amma qaneedici deyil. Jurnalistika fakültəsinə qəbul üçün keçirilən qabiliyyət sınağı yetərli deyil. Qabiliyyət imtahanı keçirilərsə, komissiya yaradılmalı və yanaşma ciddi olmalıdır. Əvvəllər hər istəyən jurnalist təhsili ala bilməzdi. Xaricdə jurnalistika təhsili fərqlidir. Məsələn, Fransada 500 nəfər jurnalistika fakültəsinə qəbul edilirsə, onlardan az bir qismi məzun olur. Hamıya meydan verilir, amma hər kəs meydanda qala bilmir.

***– Həmid müəllim, bu gün media sahəsinə jurnalist təhsili olmayanların axını davam edir. Siz bu prosesə necə baxırsınız?***

– Bilirsiniz, xarici ölkələrdə də jurnalistika təhsili olmayanlar bu sahədə işləyirlər. Amma onlar işlədikləri müddətdə bu sahənin incəliklərinə elə yiyələnirlər ki, ixtisaslı jurnalistlərdən fərqlənmirlər. Bizdə isə elə deyil. Təhsilin oldu-olmadı öz üzərində çalışmaq, peşə ustalığını mənimsəmək vacibdir.

***– Bu gün jurnalistikada janr anlayışı da dəyişib. Sizcə ənənəvi janrlardan hansılar daha aktualdır?***

– Jurnalistikada əsas 3 janr daha önəmlidir: xəbər, reportaj və müsahibə. Bu 3 janrın hədəfi yenicə aktual məlumatları çatdırmaq, xəbərləməkdir. Xəbər o zaman önəm daşıyır ki, ictimai yükü olsun. Hər hadisəni xəbər kimi yaymaq mətbuata marağı azaldır. Məşhur deyim var: itin insanı dişləməsi xəbər deyil, amma insanın iti dişləməsi xəbərdir. Oçerk, felyeton, resenziya kimi janrlar bu gün, nədənsə, aktual deyil.

***– Bügünkü jurnalistlərə tövsiyəniz nədir?***

– Jurnalistlərimiz yazdıqları hər bir informasiyada əvvəlcə azərbaycanlı, sonra jurnalist olsunlar. Jurnalistin səhvi düşmən üçün fürsət olmasın. Jurnalistlərimiz vətənpərvər olmalı, necə deyərlər, bilərəkdən və ya bilməyərəkdən düşmən dəyirmanına su tökməməlidirlər. Beynəlxalq jurnalistikadan, təcrübəli jurnalistlərdən də daim öyrənsinlər.

*Söhbəti apardılar:*
***Əli NƏCƏFXANLI,***
***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Milli-mənəvi qaynaqlarımız

# "Aləmi-cənnət imiş darı-diyarı Qarabağ"

## *Vətəndən uzaq düşmüş Mir Həmzə Nigarinin Qarabağ sevgisi*

**"Mir Həmzə Nigari", "Mir Seyid Həmzə Nigari", "Seyid Nigari", "Nigari" təxəllüsləri ilə mükəmməl poeziya nümunələri yaratmış Seyid Həmzə Nigari XIX əsr Azərbaycan ədəbiyyatında təriqət şairi kimi tanınır. Soydaşımızın ibadət örnəyi olmuş həyatı və islami məfkurə ilə aşılanmış zəngin irsi ümumtürk ədəbiyyatının da ortaq dəyəri kimi sevilir və öyrənilir.**



Azərbaycanda və Türkiyədə yaşamış, "Nigari" təxəllüsü ilə şeirlər yazmış Mir Həmzə XIX əsrin məşhur sufi mütəfəkkiri olmaqla bərabər, divan ədəbiyyatının da parlaq nümunələrini yaratmışdır. Şəcərə məlumatlardan aydın olur ki, Nigarinin ulu babaları Mir Heydər və Seyid Şəmsəddin Ağabalı Məhəmməd Peyğəmbər nəslinin davamçılarından sayılmışlar. Mədinədən Türkiyəyə köçmüş, oradan da Azərbaycana gəlmişlər. Şair öz soy-kökünü belə nişan vermişdir:

*Nəsli İsmayılsan, əsli ərəbsən,*
*Ali Məhəmmədsən, ali məzhəbsən,*
*Müntehibsən silsileyi zəhəbsən,*
*Ey Seyyid Nigari, ey Qarabaği.*

Adının Mir Həmzə olduğunu "Bəndeyi Ali Abayam, Mir Həmzə adımdır" misralarında ifadə etmiş Nigari 1797-ci, bəzi mənbələrə görə isə isə1805-ci ildə Qarabağın (indiki Qubadlının) Cicimli kəndində anadan olmuş, 1886-cı ildə Türkiyədə vəfat etmişdir.

Rusiya imperiyasının işğalına qarşı Qafqazda baş qaldıran müridizm hərəkatının rəhbərlərindən biri kimi Nigari də təqiblərə məruz qalmış, Türkiyənin Amasya şəhərinə köçməyə məcbur olmuşdur. O, Harput şəhərində vəfat etmiş, müridləri onu Amasyanın Bayazid Paşa məhəlləsində dəfn etmişlər. Sonralar Azərbaycandan da gələn yardımlarla Nigarinin əmisi oğlu Mir Həsən məzar üzərində türbə və yanında məscid tikdirmişdir.

"Şirvanlı cami", "Azərilər camisi" adlanan bu məqbərədə Nigarinin oğlu Siracəddin İsmayıl, onun davamçıları və Mir Həsən əfəndi də dəfn edilmişdir. Şeyxin türbəsini yerli əhali və Azərbaycandan Amasyaya köçən əhali həmişə müqəddəs məkan kimi ziyarət etmişlər. Nigari nəslinin davamçıları da Amasyada yaşayırlar.

Şeirləri geniş xalq kütlələri tərəfindən sevilən və əzbərlənən Nigari məhsuldar yaradıcılıq yolu keçmişdir. Onun türkcə və farsca divanları, "Çaynamə", "Nigarnamə" və "Həşt Behiştnamə" əsərləri məlumdur. Onun poetik irsi Türkiyədə, Tiflisdə, Azərbaycanda dəfələrlə nəşr olunmuşdur. Azərbaycanda Mir Həmzə Nigarinin haqqında ilk elmi-ədəbi məlumatı Firudin bəy Köçərli vermişdir. Ədəbiyyatşünas "Azərbaycan ədəbiyyatı" toplusunun II cildində Nigarini belə təqdim etmişdir: "Şeirlərinin tamamı açıq türk dilində, bir azacıq osmanlı şivəsilə inşa olunub".

Həmzə Nigarinin türkcə divanı 1884-cü ildə İstanbulda, 1908-ci ildə Tiflisdə "Qeyrət" mətbəəsində nəşr edilmişdir. 1911-ci ildə isə onun farsca divanı İstanbulda nəşr olunmuşdur. Azərbaycanda sovet dönəmi illərində Seyid Nigarinin əsərlərinin nəşri qadağan edilmişdir. Müstəqillik illərində isə 2010-cu ildə onun divanını AMEA Əlyazmalar İnstitutunun əməkdaşı Nəzakət Məmmədli tərtib və nəşr etdirmişdir .

Mir Həmzə Nigarinin az bilinən əsərlərindən biri "Nigarnamə"dir. Əsərin adı ilə bağlı belə bir fikir mövcuddur ki, Seyid Həmzə hələ kiçik yaşlarında yuxuda Şahnigar adlı bir qıza aşiq olmuş və sonralar şeirlərini onun şərəfinə "Nigari" təxəllüsü ilə yazmışdır:

*Leylinindir Məcnun, Şirinin Fərhad,*
*Mən də Şahnigarın mübtəlasıyam.*

Alleqorik və simvolik bir əsər olan "Nigarnamə"də könül səyahətə çıxarılmış, insanın Allaha yetişmə yolları axtarılmışdır. "Nigarnamə" məsnəvisini 2024-cü ildə Ankarada çap etdirən Amasya Anadolu liseyinin ədəbiyyat müəllimi Kurtuluş Altunbaş "Ön söz"də əsərin təsəvvüfi eşqi dilə gətirən 4 min 545 beytlik bir mənəvi xəzinə olduğunu bildirib. O, Nigari yaradıcılığına olan sevgi ilə 2004-cü ildə Seyid Həmzənin türkcə yazdığı əsərləri 2 cilddə Samsunda nəşr etdirmişdir.

Nigari şeirlərinə yazdığı şərhlərlə 638 səhifəlik I cild və 661 səhifəlik II cilddən ibarət olan Nigari divanından əlavə, Kurtuluş bəy sonrakı illərdə onun aşağıdakı əsərlərini də nəşr etdirmişdir:



1. Divani Seyyid Nigari. Cild I və cild II, Samsun, 2004.
2. Çaynamə Nigari. Amasya, 2023.
3. Mənaqibi Seyyid Nigari. Amasya, 2023.
4. Mir Seyyid Həmzə Nigaridən Berceste Misralar. Amasya, 2023.

Türkiyə türkcəsi ilə yazdığı əsərlərində belə Azərbaycan şivəsi açıq görünən Nigari poeziyasında Allaha, Peyğəmbərə olan ilahi sevgi nəzmə çəkildiyi kimi, şairin doğulub boya-başa çatdığı Qarabağ, onun hər güşəsi də poetikləşir. Bu tərənnüm onun bütün əsərlərində, o cümlədən "Çaynamə" əsərində rast gəldiyimiz sevgi nəğməsidir. Bu şeirin şərhi belədir: "Qarabağ dünyadakı cənnətdir. Qarabağın qərbində Göyçə, şərqində Şirvan vardır. Güney sərhədi Araz olan Qarabağın quzey sərhədinin ucu-bucağı yoxdur. Bağları cənnət bağı kimidir. Atları cinsdir, oylaqları gözəl, havası xoşdur. Türlü çiçəklər yetişir. Hər tərəfi yaşıllıqdır. Gəliri çoxdur. Bu mövzuda Misirlə belə müqayisə edilməz. Aşiqləri Fərhad, sevgililəri Şirin kimidir. Qarabağın tərifi sərhədlərə sığmaz".

Şeirlərinin bir çoxunu "Qarabaği" ləqəbi ilə yazan Həmzə Nigari bu gözəl diyara "abad olsun" deyə xeyir-dua verir:

***Abad olsun Qarabağ içrə ol yer çünki cananın,***
***Habubane qara qaşına qurban olduğum yerdir.***

Qarabağı vəsf etməkdən yorulmayan Mir Həmzə Nigari buranın suyunu süd və qaymağa bənzədərək yazır:

***Bir yer diyəm ismidir Qarabağ,***
***Cənnət yeri vü abi şirü qaymaq.***

Nigariyə görə bu gözəl cənnət diyarına ona görə Qarabağ deyirlər ki, torpağı gözəl ətirlidir, otlarının, güllərinin ətri qısqanclıq yaradır, hər tərəfi yaşıllıq, hər tərəfi bağlarla doludur. Ona görə də adı Qarabağdır:

***Hər canibi səbz, hər bağ,***
***Onun üçün ismidir Qarabağ.***

Bu diyarda bülbüllərin və quşların səsləri də mələklərin nəğmələri kimidir deyən Nigari Qarabağın hər qarış torpağını, böyüklü-kiçikli bütün kənd və şəhərini mədh etməkdən yorulmur:

***Firdevs-i dil-aradır gərçi Qarabağ amma,***
***Xoşdur Qarabağ içrə kuy-i Qaradaş evla***

Xalq şeirinin və klassik divan şeirlərinin əsas çalarlarında poeziya nümunələri yaradan Nigarinin şeirləri Anadolu, Qarabağ, Qazax, Borçalıda yaşayan geniş xalq kütlələri tərəfindən əzbərlənmiş və sevilmişdir. Mir Həmzə Nigari poeziyasının ana xəttini ilahi eşqi tərənnüm edən şeirlər təşkil etsə də, onun canlı xalq dilindən, şifahi ədəbiyyat nümunələrindən geniş bəhrələndiyi aydın duyulur. Əsərlərində Azərbaycan və Türkiyə türkcəsi ifadələrinin bolluğu onun xalq müdrikliyinə dərin bağlılığını göstərir.

Seyid Həmzə Nigari yaradıcılığına çağdaş müraciət onu deməyə haqq verir ki, XIX əsr Azərbaycan və Türk ədəbi irsində böyük iz qoyub getmiş Mirhəmzə Nigarini öyrənməyə, onun daha ətraflı tədqiq və təbliğinə ehtiyac vardır.

Sonda Nigari adının unutdurulduğu sovet dönəmində şairin Qarabağda xanəndələrin dilindən düşməyən "Qarabağ" rədifli qəzəlini oxuculara təqdim edirik:

***Nə əcəb devlət imiş seyri-şikari Qarabağ,***
***Nə gözəl nemət imiş söhbəti-yari Qarabağ.***
***Rəşki müşki-ənbər imiş buyi-qubari Qarabağ,***
***Abi-heyvan imiş ənhari-pünari-Qarabağ.***
***Kövşərü-Tuba imiş çayu-çinarı Qarabağ,***
***Aləmi-cənnət imiş darı-diyarı Qarabağ.***
***İndi bildim nə imiş vəsfi həzarı-Qarabağ,***
***Yeridir kim çəkərəm ah u zarı-Qarabağ.***
***Dağlayıbdır məni bir lalə-izharı Qarabağ,***
***Yandırıbdır məni bir narı-Nigarı Qarabağ.***

***Maarifə HACIYEVA,***
***filologiya elmləri doktoru,***
***professor***

# Bakıda Qətər Mədəniyyəti Günləri




**Bu gün Bakıda Qətər Mədəniyyəti Günləri başlanır. Mədəniyyət Nazirliyindən aldığımız xəbərə görə, saat 15:00-dan etibarən Dənizkənarı Milli Parkda, müxtəlif təyinatlı pavilyonlarda Qətərin milli geyimləri, mətbəxi, musiqi, toxuculuq və kalliqrafiya sənəti nümunələri təqdim olunacaq. Gün ərzində həmin ərazidə Qətərdən gəlmiş musiqi qrupları konsertlər verəcək.**

Heydər Əliyev Mərkəzində isə Qətər Mədəniyyəti Günlərinin rəsmi açılış mərasimi keçiriləcək. Gecədə Qətərin incəsənət ustaları və bədii kollektivlərinin iştirakı ilə geniş konsert proqramı təqdim olunacaq.

Qeyd edək ki, 2024-cü ilin fevral ayında Qətərin paytaxtı Dohada təşkil olunan Azərbaycan Mədəniyyəti Günləri dost ölkədə mədəniyyətimizin təntənəli təqdimatı ilə yadda qalıb. Ondan bir neçə il əvvəl isə ölkəmizdə ilk dəfə Qətər Mədəniyyəti Günləri keçirilib.

Bakıda Qətər Mədəniyyəti Günləri aprelin 13-dək davam edəcək.

***XQ***

Turan elləri

# Əmir Teymurun ucaltdığı qənirsiz şəhərdə bir gün

**Başdan-başa memarlıq mərkəzi və mənəvi zirvələr ünvanı olan bu şəhəri gördüyümə görə, ilk növbədə “Xalq qəzeti”nin Türküstan üzrə müxbiri Qulu Kəngərliyə minnətdaram. O, mənim ancaq Daşkənddə olacağımı biləndə dedi ki, Özbəkistana gəlib Səmərqəndi görməmək nəinki jurnalistə, heç sadə turistə də yaraşmaz. Ona görə də mən elə o günlərdə martın 7-də “Əfrasiyab” adlı Daşkənd – Səmərqənd sürət qatarına bilet aldım.**



Əvvəlcə qatarın adı barədə. Əfrasiyab Səmərqəndin əvvəlki adlarından biridir. Afro – şəhər, siyah – qara, ab isə su deməkdir. Yəni qarasu şəhəri. Yeri gəlmişkən, mən Səmərqənddə Siyab (özbəklər Siyob deyirlər) küçəsini, o adda ticarət və iaşə obyektlərini də gördüm.

Qeyd edilir ki, Əfrasiyab şəhəri bizim eradan əvvəl 500-cü ildən eramızın 1220-ci illərinə qədər indiki Səmərqəndin şimalında mövcud olmuş qədim yaşayış məntəqəsidir. İndi Əmir Teymurun xanımının adı verilmiş Bibixanım məscidi Əfrasiyab şəhərinin qalıqları yaxınlığındadır. Müdafiə məqsədi üçün yüksək bir yerdə inşa olunmuş həmin şəhər 1220-ci ilin mart ayında Çingiz xanın ordusu tərəfindən tamamilə dağıdılmışdır.

***

Daşkənd – Səmərqənd yolunun uzunluğu, təqribən, 280 kilometrdir. Bu qədər məsafədə cəmi bir yerdə dayanan qatarın hərəkətinə kiminsə və ya nəyinsə mane olmadığı mənə maraqlı idi. Qatar düz gedirdi. Bu məqamda istiqlal şairimiz Xəlil Rzanın 1953-cü ildə yazdığı poemadan yadımda qalan misraları zamanın hökmü ilə bir az fərqli şəkildə dilə gətirdim. Şair yazmışdı ki, “Ağcaqum çölündə qatar düz gedir, Piter fəhləsindən xəbərsiz gedir”. Mən isə ürəyimdə oxuyurdum: “Səmərqənd yolunda qatar düz gedir, ləngimir, təntimir, xətərsiz gedir”. Üstəlik, türkün bu gününə şükür eləməyi də unutmurdum.

***

Səmərqəndə yaxınlaşanda yoldan bir az aralıdakı təpələrin yamacında otlayan, həmişə gördüyümüz həmcinslərindən boy-buxununa, şah qamətinə görə kifayət qədər fərqlənən atlar diqqətimi çəkdi. İstər-istəməz “Əmir Teymurun atları” rəvayəti yadıma düşdü.

Danışırlar ki, bir gün əmirin 13 yaşlı nəvəsi itir. Saray əhli bir-birinə dəyir. Uşaq tapılmır. Hamı vahimə içərisindədir. Axşamdan xeyli keçəndən sonra uşaq özü gəlir. Əmir soruşur:

***– Oğlum, harada idin?***

***– Saraydan kənardakı uca ağacın başında.***

***– Orada neyləyirdin?***

***– Ulduzlara baxırdım. Bilmək istəyirdim ki, görəsən, oralarda da insanlar yaşayırmı?***

***– Oğlum, əvvəla, sarayda hamı inanmalıdır ki, sən hər şeyi bilirsən. İkinci, əgər ulduzların üstündə həyat olsaydı, Əmirin atları çoxdan oralarda toz qoparardı.***

...Həmin uşaq sonralar İslam dünyasının çox görkəmli alimi, astronomu olmuş Mirzə Uluq bəy idi. Elə mənim Səmərqənddə ilk ziyarət etdiyim ünvan da məhz Uluq bəyin rəsədxanasının yerində yaradılmış muzey oldu.

***

...Artıq on dəqiqə idi ki, yağış vaqonun pəncərələrini döyürdü. Qatarın dayanması ilə bizim çıxış qapısında növbə tutmağımız bəlkə də saniyələr çəkdi. Ancaq yağış altındakı taksi sürücüləri və bələdçilərin qapının ağzını kəsdirməsi də an məsələsi oldu. Hamı öz şansını gözləyirdi. Mənim şansımı isə sanki Allah yazmışdı. Orta yaşlı bir nəfər əkə, abi, “dyadya” deyərək mənə yaxınlaşdı və təkcə taksi sürücüsü yox, həm də bələdçi olduğunu söylədi. Razılaşdığımız məbləğ müqabilində o məni Səmərqənddəki altı məşhur ünvana aparmalı və sonda dəmir yolu vağzalına qaytarmalı idi. Çünki elə həmin axşam Daşkəndə qayıtmalı idim.

Onu da xatırladım ki, Qulu Kəngərlinin dediyinə görə Səmərqənddə iki mindən artıq tarixi abidə, görməli yer var. Onun dediyi “Bu bir gündə neçəsini görə bilsən, qazancdır” – fikri isə məni daha çox tələsdirirdi.

***

Sərvər adlı bu özbək qardaşımızla tanış olduğumu ona görə şans adlandırıram ki, o, türk tarixinə, mədəniyyətinə və ədəbiyyatına yaxşı bələd idi. Söhbət əsnasında öyrəndim ki, dörd qız atası olan 40 yaşlı Sərvər Aqrar Universitetinin məzunudur. “Hansı ünvandan başlayaq? – deyə soruşdum. – Ən yaxındakı Mirzə Uluqbəy rəsədxanasının yerində tikilmiş muzeydir. Orada qədim bir daş görəcəksiniz, onu diqqətlə izləyin – dedi və əlavə etdi ki, Uluqbəyin rəsədxanası darmadağın ediləndən sonra ələ keçən ancaq həmin daş sütunlardır.

Mən o muzeydə üç nəfər özbək (bələdçilər idi) iki çinli və xeyli sayda avropalı gördüm. Dilini bilmədiyim avropalılar Sərvərin dediyi daşın fotosunu çəkməyə mənə imkan vermirdilər. Xatırladım ki, Mirzə Uluqbəy bir təpənin üstündə (mən həmin təpəyə leysan yağış altında, Sərvərin maşında gəzdiyi çətirlə qalxdım) tikdirdiyi rəsədxanada primitiv ölçü alətlərindən istifadə edərək



1437-ci ildə 1018 ulduzun təsviri ilə ulduzlu səmanın ilk kataloqunu tərtib edibmiş. XVI əsrin ortalarında Uluqbəy öldürüldükdən sonra rəsədxana sökülüb və bu unikal kompleksi qoruyub saxlamaq mümkün olmayıb. İndi muzeydə qədim rəsədxananın maketi, astronomik cədvəllərin fraqmentləri, sekstant və Uluqbəyin özünün həyat yolunu əks etdirən qədim freskalar var.

***

Muzeydən çıxandan sonra Sərvərdən eşitdiklərim məni mat qoydu: “İttifaq əkə, indi siz müstəqil Özbəkistanın ilk Prezidenti İslam Kərimovun məqbərəsi də olan bir ünvana aparıram. Səmərqənddə doğulub böyümüş İslam Kərimovun prezidentliyi dövründə Özbəkistan MDB-də yeganə ölkə idi ki, Ermənistanla heç bir iqtisadi, siyasi, mədəni münasibət qurmamışdır. Hətta Daşkəndlə Yerevan arasında heç bir rəsmi səfər olmamışdır. Siz onun məqbərəsini ziyarət edin, mən isə namaz qılım”.

Mən İslam Kərimovun məzar- kompleksini məmnuniyyətlə və rəhmət oxuyaraq ziyarət etdim.

***

Sərvərin namazdan sonrakı sualı: – Əkə, indi Gur Amirə (Gur Amir əmirin məzarı deməkdir) gedək, yoxsa Şaxi Zinda kompleksinə?

Dedim, Əmir Teymurun məzarını görməyi illərlə gözləmişəm. Ancaq Şaxi Zinda Kompleksində İslam Peyğəmbəri Məhəmməd səlavatullahın səhabələrindən birinin də dəfn olunduğunu deyirsən, əvvəlcə ora gedək. Getdik. Orada elə bildim ki, mən həqiqətən orta əsrlərdəyəm. Özbəklərə “afərin” düşür ki, həmin kompleksi məhz tikildiyi şəkildə qoruyub saxlaya biliblər.

Orada öyrəndim ki, XI –XII əsrlərə aid məqbərələr və dini tikililərin daxil olduğu Şaxi Zinda (“yaşayan hökmdar” deməkdir) kompleksi müsəlman Şərqinin ən urvatlı ünvanlarından biridir. Məhəmməd peyğəmbərin (s.) əmisi oğlu Qutam ibn Abbasın burada dəfn edilməsi ilə bağlı deyilənlər isə ancaq rəvayətə əsaslanır. Hər halda məzarlardan birinin üstündə Peyğəmbər səlavatullaha istinadən özbək, rus və ingilis dillərində yazılmışdı: “Qutam ibn Abbas həm xarici görünüşlə, həm də daxili aləmi ilə mənə ən çox oxşayan səhabəmdir”.

***

Gur-Amir kompleksinə gedəndə isə yolüstü Bibixanım məscidinə də baş çəkdik. Əmirin məzarı önündə isə mən, sadəcə, çaşbaş idim. Çünki bu möcüzə xarakterli memarlıq nümunəsinin heç bir texniki vasitələr olmadığı dövrdə ərsəyə gətirilməsi... inandırıcı görünmürdü.

Mən orada başqa bir fakta da şahidlik etdim. Buxaradan gəlmiş turistlər qrupuna bələdçilik edən xanım Əmir Teymur məqbərəsi haqqında nə danışırdısa, mən onların hamısını Sərvərdən eşitmişdim. Eşitdiyim fərqli fikirlər isə bələdçi xanımın tez-tez “Atamız Amir” sözünü təkrar etməsi və əmirin Səmərqəndi qurub-yaratmaq üçün türk dünyasının müxtəlif yerlərindən çox sayda memar gətirməsi, həmin memarların xeylisinin azərbaycanlı olduğu barədə dedikləri idi. Ertəsi günü isə Qulu Kəngərli Səmərqəndə aparılmış azərbaycanlı memarların sayını da dedi: beş yüz nəfər.

Xatırladım ki, Əmir Teymurun məzarının yanında övladları – Şahrux və Miran şah, nəvələri Uluqbəy və Məhəmməd sultan, Mir Səid Baraka və Teymurilər sülaləsinin bir neçə başqa nümayəndəsi də dəfn olunub.

***

Nəhayət, Registan barədə. Registan qumluqlar məskəni deməkdir. Türk tarixinə böhtan atmaq istəyənlər yazıblar ki, guya həmin ərazidə çox insan öldürülüb və qanın dərhal yerə hopması üçün tamamilə qumlu ərazi seçilib. Ancaq bu kompleksdə mədrəsələrdən başqa heç bir tikinti yoxdur. Mədrəsədə isə heç kəs edam edilmir, orada təhsil verirlər.

Özbəklərin meydan adlandırdığı bu kompleksə Türk, İslam və Şərq memarlıq nümunələrinin möhtəşəm sərgisi də demək olar. Amma bu sərgini kiminsə tam gəzib-dolaşdığına inanmadım. Olduqca böyük ərazidir. Səmərqəndin simvolu kimi qəbul edilən bu məkanda XV-XVII əsrlərə aid üç böyük təhsil ocağı – Uluqbəy, Şerdor və Tilya-Kari mədrəsələri var. Burada tarix boyu İslam dini təbliğ edilib. Mədrəsələrdə bəzi bərpa işləri aparılsa da, elə hissələr var ki, onlar tikildiyi illərdə olduğu kimi saxlanılıb.

***

Sərvər məni Registandan xeyli aralıda gözləyirdi. Yorulduğuma görə bir oturacaqda əyləşdim. Sonra bir qoca özbək kişi də yanımda əyləşdi. Azərbaycanlı olduğumu biləndə gülümsündü: “– Maqsud Şeyxzadənin yerlisisən. Mən ədəbiyyat müəllimi olmuşam. Şeyxzodanın (onlar Şeyxzadə demirlər) əsərlərini çox sevmiş və tədris eləmişəm”.

Sonra da əlavə etdi ki, Səmərqəndə gəlib özbək plovu yeməmiş getməyin: “Özbəkistanda ən yaxşı plov Səmərqənddə, ən yaxşı laqman isə Daşkənddə bişirilir. Bu yaxında “Əslinin aşxanası” var. Orada çox yaxşı özbək plovu bişirilir”.

Sərvər oruc olduğuna görə həmin aşxanaya mən tək getdim. Məlum oldu ki, Əsli 65-70 yaşlı nurani bir özbək kişisidir. Amma soyutma bişirilmiş sığırçın yumurtası və at əti ilə hazırlanmış plov çox dadlı idi. Laqmanı isə Daşkənddə yemişdim.

***

Dəmir yolu vağzalına qayıdanda Sərvər mənə böyük, ucu-bucağı görünməyən, bəzi yerlərində mağara, oyuq kimi yerlər olan təpəni göstərdi: “Əfrasiyab şəhərinin xarabalıqlarıdır. Dünya xəritəsində bu qədər xarabalıqlar ola-ola yenidən kiminsə müharibə törətmək istəyi cəhənnəmi arzulamaqdan başqa bir şey deyil”.

***

Sərvərin 15 yaşlı ilk qızının adı Fərqanə, ikincisinin adı Dürdanə, üçüncünün adı Mərdanə, sonuncunun – iki aylıq körpənin adı isə Asmondur. Asmon özbəkcə Asiman deməkdir. Həmin körpəyə Səmərqənd şirniyyatı göndərdim. Bəxtimə Asimana şirinlik göndərmək də yazılıbmış. Elə Səmərqənddə onlarca foto-şəklimin çəkilməsi də bəxtimə yazılanlardan imiş.

***İttifaq MİRZƏBƏYLİ***

**Bakı–Səmərqənd–Bakı**


## LPO “Amrahbank”, “AGBank”, “Atabank” və “NBC Bank” ASC-lərdə qorunan əmanətlər üzrə fiziki şəxslərə (sahibkarlar istisna olmaqla) kompensasiyaların verilməsinin son müddətləri barədə bildiriş




Bildiririk ki, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 28 aprel 2020-ci il tarixli qərarı ilə “Atabank” ASC və “Amrahbank” ASC-nin, 12 may 2020-ci il tarixli qərarı ilə “NBC Bank” ASC və “AGBank” ASC-nin bank fəaliyyətinin aparılması üçün verilmiş lisenziyaları ləğv edilmişdir. Bakı Apelyasiya Məhkəməsinin 30 aprel 2020-ci il tarixli qərarı ilə “Atabank” ASC və “Amrahbank” ASC, 14 may 2020-ci il tarixli qərarı ilə “NBC Bank” ASC və “AGBank” ASC müflis elan edilmiş və iflas proseduruna başlanılmış, həmin qərarla Əmanətlərin Sığortalanması Fondu ləğvedici təyin edilmişdir.

Eyni zamanda bildiririk ki, qorunan əmanətçilərə kompensasiyaların verilməsi barədə ilk bildiriş “Atabank” ASC və “Amrahbank” ASC üzrə 08 may 2020-ci il tarixdə, “NBC Bank” ASC və “AGBank” ASC üzrə isə 17 may 2020-ci il tarixdə KİV-də dərc edilmişdir.

“Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun (Qanun) 28.3-cü maddəsinə əsasən Fond əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq bir il ərzində qəbul edir.

Həmin Qanunun 28.4-cü maddəsinə əsasən əmanətçinin müraciətini qeyri-mümkün etmiş halların mövcud olduğunu təsdiq edən sənədlər təqdim edildikdə bu qanunun 28.3-cü maddəsində göstərilən müddət əmanətçinin ərizəsinə əsasən uzadıla bilər. Lakin bundan asılı olmayaraq bütün hallarda əmanətçinin kompensasiya almaq hüququ Fondun kompensasiyaların ödənilməsi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq beş il müddətində saxlanılır.

LPO “Atabank” ASC və “Amrahbank” ASC-nin qorunan əmanətçilərinə kompensasiyaların verilməsi və ya kompensasiya vəsaitləri ilə öhdəliklərinin əvəzləşdirilməsi 08 may 2025-ci il tarixdə, LPO “NBC Bank” ASC və “AGBank” ASC-də isə bu müddət 17 may 2025-ci tarixdə bitir. Həmin tarixdən sonra məbləğ “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 82.1.8-ci maddəsinə əsasən sonuncu növbə üzrə təminatsız kreditor tələbi kimi qeydə alınacaqdır.

Qeyd edilən müddət və tarixləri nəzərə alaraq LPO “Amrahbank”, “AGBank”, “Atabank” və “NBC Bank” ASC-lərdə bugündək qorunan əmanətlər üzrə kompensasiya almayan şəxslərə onların vaxtında müraciət etməsini qeyri-mümkün etmiş halların mövcud olduğunu təsdiq edən sənədlərlə birlikdə Bakı şəhəri, Xətai rayonu, Babək prospekti 16 ünvanında yerləşən Əmanətlərin Sığortalanması Fonduna müraciət etmələri tövsiyə olunur.



## “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti

*2026-2030-cu illər üçün biznes planının satın alınması məqsədilə*

**açıq tender elan edir**

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin 2026-2030-cu illər üçün biznes planının satın alınması məqsədilə açıq tenderində iştirakçılar Laman.r.ibrahimova@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 28 aprel 2025-ci il saat 17.00-dır.

**Prosedur üzrə əlaqələndirici şəxs-Ləman İbrahimova, satınalma üzrə mütəxəssis – Laman.r.ibrahimova@azal.az**

**Əlaqə telefonu–+994124972600/ Dax: 5831.**



## “Binəqədi Yük Avtonəqliyyat -1” ASC səhmdarlarının nəzərinə!

25 may 2025-ci il saat 11.00 – da “Binəqədi Yük Avtonəqliyyat-1”ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

***Gündəlikdəki məsələlər:***

1. Cəmiyyətin 2024-cü təsərrüfat ili üzrə maliyyə balansının müzakirəsi və təsdiqi.
2. Dividendlərin verilməsi.
3. Digər məsələlər.

Yığıncaqda səhmdarların iştirakı vacibdir.

Əlaqə telefonu: 050-321-51-08.

Ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Xırdalan-Binəqədi şosesi 1N.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 69 (30763) 10 aprel 2025-ci il, cümə axşamı

İdman

## Gimnaziada millimiz medal sayını 53-ə çatdırıb

*Taekvondo komandamız 19 mükafat qazanıb*

**Serbiyada keçirilən ISF U15 Gimnaziada İdman Oyunlarında Azərbaycan millisinin uğurlu çıxışı davam edir.**



Yarışın 4-cü günündə taekvondoçularımız daha 9 qızıl və 1 gümüş medal qazanıblar. Bununla da, dayanq ustalarımız Oyunlarda döyüş üzrə ümumilikdə 10 qızıl, 3 gümüş və 3 bürünc medala yiyələniblər.

Dünən həmçinin, taekvondoçuların pumse üzrə yarışları təşkil edilib. Azərbaycan millisi turnirdə 3 qızıl medal əldə edib. Beləliklə, Azərbaycan yığması medal sayını 53-ə çatdlrıb.

Xatırladaq ki, aprelin 12-dək davam edəcək və 56 ölkədən 2 min 742 idmançının mübarizə apardığı yarışda Azərbaycan 18 idman növündə, ümumilikdə, 191 atletlə təmsil olunur.

## Komandamız Avropa çempionatında qalib olub

**Slovakiyanın paytaxtı Bratislavada keçirilən Avropa çempionatında Azərbaycan millisinin çıxışı davam edir.**



Dünən sərbəst güləş üzrə yığmamızın 2 pəhləvanı finalda, biri bürünc uğrunda qarşılaşmada qüvvəsini sınayıb. Ağanəzər Novruzov (74 kq) 3-cü yer uğrunda Ramazan Ramazanova (Bolqarıstan) qalib gələrək, millimizə 4-cü bürünc medalı qazandırıb.

Qızıl medal uğrunda Osman Nurmaqomedov (92 kq) Dauren Kuruqliyevə (Yunanıstan) uduzduğu üçün gümüş medalla kifayətlənib.

Təmsilçimiz Giorgi Meşvildişvili (125 kq) finalda gürcüstanlı Solomon Manaşvilini məğlub edərək çempion olub. Sərbəst güləş komandamız ümumi hesabda da bütün ölkələri qabaqlayaraq qalib olub.

Xatırladaq ki, sərbəst güləşçilərimiz Bratislavadakı çempionatın ilk iki günündə 3 bürünc medal qazanıblar. Qitə çempionatı aprelin 13-dək davam edəcək.

***L.QURBANOVA***
***XQ***

***Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən verilmiş Məmmədli Elvin Ramiz oğluna məxsus AR059347 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

HAVA

## Bu gün də yağış, külək və duman



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 10-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, səhərdən bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.

Yarımadanın bəzi yerlərində intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Güclü şimal-qərb küləyi əsəcək. Gecə 9-11°, gündüz 11-13° isti olacaq.Atmosfer təzyiqi 756 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq.

Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclü olacaq. Havanın temperaturu gecə 8-11°, gündüz 15-19° , dağlarda gecə 4-9°, gündüz 9-14° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

Təbiət insafa çağırır bizi




## Bu xeyir-bərəkət quşlarına kimlər və nələr qənim kəsiliblər?

**Azərbaycanda sərçələrin 3 növü yayılıb: dam, Qaradöş və çöl sərçəsi. Onlar yalnız zahirən deyil, həm də bioloji cəhətdən də fərqlənirlər. Hər 3 növ tipik sinantroplardır, insanla eyni yaşayış məkanını paylaşmaqla yanaşı, onun təsərrüfat fəaliyyəti nəticəsində dəyişən həyat mühitinə də tez uyğunlaşa bilirlər. Çöl sərçəsi qida axtarışında uzun məsafələrə uça bilir. Onlara daha çox kənd yerlərində, müxtəlif əkin sahələrində rast gəlinir.**

Sərçələr yuvada olan balalarını həşəratlarla qidalandırır. Yuvanı tərk etmiş balalar isə yabanı bitkilərin toxumları və bəzən cücülərlə bəslənir. Qışda onlar, əsasən, insanların qida qalıqlarına keçir. Ümumi oxşarlığa baxmayaraq, sərçələrin qidalanmasında bəzi fərqlər də var. Dam sərçəsi çöl sərçəsinə nisbətən daha böyük toxumlara, daha böyük onurğasızlara üstünlük verir. O daha sürətli uçan həşəratları tutur. Çöl sərçəsi isə adətən daha az hərəkətli onurğasızları yeyir. İki növ sərçənin üstünlük verdiyi qidalardakı fərqlər morfoloji xüsusiyyətləri ilə bağlıdır. Dam sərçəsinin daha güclü, yoğun, qısa və ucu iti dimdiyi var. Bu da ona nisbətən böyük və sərt qidaları yeməyə imkan verir. Sərçələrin sayında azalma XX əsrin sonlarından başlayıb. Əvvəlcə azalma Avropa ölkələrində müşahidə olunub. Azərbaycanda sərçələrin sayının azalması isə XXI əsrin əvvəllərindən başlayıb. Alimlər sərçələrin sayının azalmasını bir sıra amillərlə izah edirlər. Birinci amil yaşıllıqların, bağların və çöllərin ərazisinin azalması ilə bağlıdır. Bu, qida ehtiyatının tükənməsinə, xüsusən də həşəratların və hörümçəklərin azalmasına səbəb olur.

Bundan başqa, şəhərlərdə meydanların və parkların abadlaşdırılması, süni qazonların salınması, asfalt örtüyü ilə örtülmüş ərazinin artırılması da təsirsiz ötüşmür. Eyni zamanda, otların daimi biçilməsi onun bioloji müxtəlifliyinin məhv edilməsinə, həşəratların sayının azalmasına, toxumların qıtlığına, yəni sərçələrin qida ehtiyatının məhvinə səbəb olur. Nəticədə, sərçələrin sayı nəzərəçarpacaq dərəcədə azalır.

Bütün bunlar barədə ornitoloq Rafiq Hüseynov XQ-yə bildirdi:

– Sərçələr təbii qidadan – həşərat və tırtıllardan məhrum olub. Yəqin ki, uşaqlığımızın çobanyastığı və zəncirotu olan çəmənliklərini xatırlayırsınız? Həmin çəmənliklərdə çəyirtkələr tullanır, böcəklər və qarışqalar harasa tələsir, kəpənəklər və arılar uçurdu. Yazda və yayda böyük sərçə sürüləri şəhər parklarının, yaşıllıqlarının hündür otları arasında həşəratları axtarıb tapır, onları qida kimi qəbul edirdilər. Həm də öz balaları üçün həşərat toplayırdılar.

Onlar kol-kosda məskunlaşırdılar.

Qeyd edim ki, sərçələr təhlükə zamanı kolların arasında gizlənməyi xoşlayırlar. Lakin son onilliklərdə kolların və ağacların budaqları müntəzəm olaraq kəsilir, torpaqdan çıxarılaraq atılır. Bu, quşları sığınacaqdan məhrum edir. Onların yerinə isə tropik bitkilər əkilir. Sərçələr tropik bitkilərdə yuva qura, həmin bitkilərin meyvəsindən və toxumundan da yem kimi istifadə edə bilmirlər. Nəticədə təbii otlaq, yerli kol və ağac sahələrinin azalması yem qıtlığı (giləmeyvələr) yaradır. Bu da öz növbəsində quşların sayına mənfi təsir göstərir.

Digər tərəfdən, yeni parklar salınarkən yerli çiçək və ot bitkilərin növlərindən deyil, toxum verməyən süni şəkildə yetişdirilmiş ot növünün rulonlarından istifadə edilir. Tez-tez biçildiyindən bu sahələrdə sərçələr üçün qida ehtiyatı yox olur. Üstəlik də bu ərazilərdə toxumlar da olmur.

R. Hüseynov daha sonra bildirdi ki, sərçələr üçün qida qıtlığına səbəb olan amillərdən biri də açıq zibilliklərin azalmasıdır.

– Bakı əvvəlki illərlə müqayisədə daha təmiz şəhər olub. Bu gün zibil qabları qapaqlarla örtülü olur və tulantılar vaxtında şəhərdən kənara daşınır, çeşidlənir. Amma hər şeyin üst-üstə yığılıb "xoş qoxu" verdiyi, sərçələrin qidalandığı açıq zibil qutularının yoxa çıxması, onlara ciddi zərbə vurur. Bu səbəbdən quşların zibillikdən çörək, meyvələr və tərəvəzlərlə qidalanması çətinləşir. Bundan başqa, pandemiya dövründə paytaxtda davamlı şəkildə aparılan dezinfeksiya işləri sərçələrin yem bazasını məhv edib. Son vaxtlar şəhərdə ağcaqanadlar da azalıb. Bu da sərçələrin qida tapmasında problem yaradıb.

Ornitoloq qeyd etdi ki, uşaqlıq illəri kənddə keçib:

– Sovet dövründə kəndlərdə kolxoz və sovxozlar fəaliyyət göstərirdi. Onların da xırmanları vardı. Sahələrdən gətirilən taxıl xırmanlarda təmizlənir və qurudulurdu. Taxılın saxlandığı yerlərin üstü örtülü olsa da, açıq sahələri də vardı. Bu səbəbdən də xırmanlarda sərçələr çox idi. Amma indi nə kolxoz, sovxozlar, nə də onların xırmanları var. Yem olmadığı üçün sərçələr kəndlərdə də azalıb.



Sərçələrin azalmasının mühüm səbəblərindən bir də onların yuva qurması üçün əlverişli yerlərin azalmasıdır. Bu quşlar, əsasən, evlərin damında, çatlarında yuva qururlar. Artıq bu şəraitdən məhrum olublar. Buna binaların dam örtüklərinin dəyişdirilməsi və onlara üzlüklərin çəkilməsinin səbəb olduğunu söyləyən alim dedi:

– Urbanizasiya şəhərlərdə sərçə populyasiyalarının azalmasına səbəb olur. Çünki quşların yaşaması üçün yerlər azalır. Bildiyiniz kimi, sərçələr yaşayış üçün yarıqlar, boşluqlar seçirlər. Monolit texnologiyalar ilə tikilmiş müasir çoxmərtəbəli binalar praktiki olaraq belə sığınacaqlardan məhrumdur. Əvvəllər quşlar evlərin damları altında gizlənirdilər – indi onlar da yoxdur. Ümumiyyətlə, müasir şəhərin şəraiti belə kiçik quşların yaşaması üçün uyğun deyil.

Problemlər yalnız çoxmərtəbəli binalarla məhdudlaşmır. Sərçələrin azalmasına Bakının səs-küyü, havanın çirklənməsi, hətta mobil telefon qüllələrinin sayı da təsir göstərir. Son vaxtlar mobil rabitənin inkişafı ilə bağlı belə qüllələrin sayı sürətlə artır. Telefon qüllələrindən elektromaqnit şüalanmasının artmasının quşların naviqasiya qabiliyyətlərinə mane olduğu bildirilir. Başqa versiyalar da var – məsələn, sərçələrin şəhər zərərvericilərinə qarşı mübarizədə istifadə olunan zərərli maddələrlə məhv edilməsi".

Ornitoloq quş malyariyasının fəal yayıldığını da söylədi:

– Bu amilin nə dərəcədə həlledici olduğunu demək hələ çətindir. Amma kənd təsərrüfatında pestisidlərdən istifadə və iqlim dəyişikliyinin təsirini inkar etmək mümkün deyil. Yekunda onu da bildirim ki, Bakı da daxil olmaqla şəhərlərdə qarğaların və pişiklərin sayı artıb. Boz qarğanın və pişiklərin bu quşların yumurtalarını, ətcə balalarını məhv etməsi öz təsirini göstərir.

Müsahibimizin açıqlamasına əlavə olaraq deyək ki, Bakıda sərçələrin azalmasına səbəb kolların seyrəlməsi, süni çəmənliklərin çoxalması, şəhərdə ala qarğanın artması, son illərdə binaların dam örtüklərinin dəyişdirilməsi və paytaxtda dezinfeksiya işlərinin davamlı şəkildə aparılmasıdır.



Bəs sərçələrin azalması nə dərəcədə təhlükəlidir? Bunun üçün Çini xatırlatmaq kifayətdir. 1958-ci ildə Çin lideri Mao Tzedun bütün sərçələri məhv etməyi əmr edib. Səbəb bu idi ki, onlar həddən artıq çox dən yeyirdilər. Ölkə liderinin fikrincə, sərçələr Çin Xalq Respublikasının iqtisadi inkişafının qarşısını alırlar. Quşları məhv etmək üçün insanlar səfərbər edildilər. Onlar bayraqları yelləyərək quşları qorxudurdular ki, yerə oturmasınlar və gücləri tükənib ölsünlər. Məlumdur ki, sərçələr havada 15 dəqiqədən çox qala bilmirlər.

Bundan başqa, onların yuvalarını viran edir, uçan sərçələrə atəş açırdılar. Nəticədə, Çində bu quşların sayı olduqca azaldı. Bəzi regionlarda isə sərçələr tamamilə yox oldular. Kampaniya müddətində 1,96 milyard sərçə məhv edildi. Nəticədə çəyirtkə və tırtılların sayı artdı. Çəyirtkələr sahələrə hücum edərək qarşılarında nə varsa yeməyə başladılar. Kəndlərin əksəriyyətində taxıl məhsulu tamamilə yeyilmişdi və kütləvi aclıq başlandı. Müxtəlif qiymətləndirilmələrə görə, 40–45 milyona qədər insan iqtisadi təsərrüfatsızlığın, ekoloji qəzaların doğurduğu aclıq nəticəsində həlak oldu. Sonradan Mao Tzedun bu kampaniyanın səhv qərar olduğunu etiraf etdi və təbliğata son verilməsini əmr etdi. Sərçələrin bərpa edilməsi üçün Kanada və SSRİ-dən bu növ quşların idxalı başlandı.

Sərçələrin əvvəlki səviyyədə olmasa da sayını artırmağın yolları varmı? Bunun üçün problemə kompleks şəkildə yanaşmaq lazımdır. Sərçələri yuva yerləri ilə, məsələn, yuva qutuları, qida ehtiyatı ilə təmin etmək lazımdır. Eyni zamanda, böyük qazon sahələrində qarışıq otlardan istifadə olunmalı və onlar vaxtından tez biçilməməlidir. Bu həm çoxalma dövründə, həm də qışda sərçələri qida ilə təmin edəcək. Bu barədə R. Hüseynov deyir: "Soyuq dövrlərdə quşların toxum, taxıl və ya meyvə ilə qidalandırıcılara çıxışını, həmçinin təmiz su ilə təmin etmək xüsusilə vacibdir. Şəhər landşaftında müxtəlif ağaclar, kollar və çiçəklər əkməklə əlavə qida mənbələri də yaradıla bilər. Təbii ki, havanın çirklənməsini azaltmaq üçün tədbirlər də görülməlidir. Bu, təkcə sərçələrə deyil, digər quşlara da kömək edər. Həm də təbiətə şüurlu münasibəti təbliğ etmək: maarifləndirici proqramlar, məqalələr və mühazirələr vasitəsilə sərçələrin əhəmiyyəti və qorunması haqqında məlumat yaymaq vacibdir".

***Hazırladı:***
***PÜNHAN***
***XQ***

## Zəfəran – çox dərdə dərman

**Zəfəran dünyanın ən qiymətli ədviyyatlarından biridir və sağlamlıq üçün çox faydası var. Yetişdirilməsi çətin olduğundan baha başa gəlir. 1 kiloqram zəfəran əldə etmək üçün, təxminən, 150 min zəfəran çiçəyi toplamaq lazımdır. Bu səbəbdən dünyanın ən bahalı ədviyyatları sırasına daxil edilib. Onun dəyərini faydalılığı birə-beş artırır.**

Güclü antioksidant tərkiblidir.

Hüceyrələri stresdən qoruyaraq yaşlanmanın qarşısını alır.

Əhval-ruhiyyəni və yaddaşı yaxşılaşdırır.

Depressiya və narahatlıqdan azad olmağa kömək edir.

Beyində serotonin səviyyəsini artıraraq xoşbəxtlik hissi verir.

Alzheimer və parkinson kimi nevroloji xəstəliklərə qarşı qoruyucu təsir göstərir.

Göz xəstəliklərinin inkişafını ləngidir.

İmmunitet sistemini dəstəkləyərək orqanizmi xəstəliklərdən qoruyur.

Mədəyə sakitləşdirici təsir göstərir.

Həzmi asanlaşdırır və mədə turşusunu tarazlaşdıraraq qastritdən qoruyur.

Xolesterol səviyyələrini tarazlayaraq damarı sağlam saxlayır.

Qan təzyiqini aşağı salaraq ürək xəstəliyi riskini azaldır.

Antioksidant xüsusiyyəti dərini gənc və sağlam saxlamağa kömək edir.

Sızanaq kimi dəri problemlərini aradan qaldırır.

Menustrual ağrıları aradan götürür.

Menopoz əlamətlərini azaldır.

***Z.HÜSEYNLİ***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Baş nazirin müavini Samir Şərifova atası

**RAUF ŞƏRİFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mətbuat Şurasının sədri Rəşad Məcid və Ahıl Jurnalistlər Məclisinin üzvləri "Xalq qəzeti"nin əməkdaşı Ruslan Rəfizadəyə həyat yoldaşı

**İRADƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədov və kollektivi Baş nazirin müavini Samir Şərifova atası

**RAUF ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3361
SİFARİŞ 649
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00